WWW.AZYB.AZ
WWW.AYB.AZ

# Ulduz

AYLIQ ƏDƏBİYYAT DƏRGİSİ
SENTYABR 2023
№09 (649)



**GƏNC YAZARLAR ÜÇÜN NƏZƏRİYYƏ DƏRSİ**

**Azər Turan:** Mənim ədəbiyyatım bu üç nəfərlə başlayır…

**Elnarə Qaragözova:** Çağdaş nəsrimizin yeni imzaları "Ulduz"un şəfəqləri altında

**Təbrizli Əli Çağlanın "Liman"ı**

**Barbara Uolkerin** hekayəsi Alsunun tərcüməsində

**Dərgidə kitab**

*"Hara gedəcəyinizi bilmirsinizsə, istənilən yol sizi ora aparacaq…"*
**Luis Kerroll**

# Bu sayımızda



**Günel MEHRİ**
ÖZÜYLƏ SÖHBƏTİ VƏ HEKAYƏSİ 3


**Seyid AYNUR**
AND OLSUN TƏBİƏTƏ... 5


**Anar ADİL**
SƏMADAN MƏKTUB 7


**Məti OSMANOĞLU**
SİMVOLİZM ƏDƏBİ CƏRƏYANI 9


**Alsu**
TƏRCÜMƏ SAATI 12


**Ceyhun ÖTKƏM**
1 ŞEİR 15


**Taleh Mansur**
YAZI MASASI 16


**Rüstəm KAMAL**
AZƏR TURAN: MƏFKURƏNİN VƏ SÖZÜN İŞIĞI 23


**Aydın ARSLAN**
ALLAHA MƏKTUB 25


**Kənan HACI**
BUYNUZ QƏZİYYƏSİ 27


**Elnarə QARAGÖZOVA**
TƏNQİD 40


**Əli ÇAĞLA**
LİMAN 43


**İnqilab ORXAN**
ƏLİNDƏ BİR DƏSTƏ ÇİÇƏK 48


**Bəhruz NİFTƏLİYEV**
BƏTN VƏ BATİN 51



Xuraman HÜSEYN
SAMAN ÇÖPÜ
53



Əlizadə NURİ
VER SÖZƏ EHYA Kİ...
55



Aysel FİKRƏT
KAKTUS ÇİÇƏYİ
57



Süleyman ABDULLA
BOZ EVİN AĞ GECƏSİ
60



Nurlana İŞIQ
BURULĞAN
63



Sevinc YUNUSLU
SAÇLARINA TOXUNSAM...
64



DƏRGİDƏ KİTAB
Natiq RƏSULZADƏ
66

**Təsisçilər:**
Azərbaycan Yazıçılar Birliyi və "Ulduz" jurnalının kollektivi
**Baş redaktor:** Qulu Ağsəs
**Redaksiya heyəti:** Təranə Vahid (Baş redaktor müavini), Hicran Hüseynova (şöbə redaktoru), Dayandur Sevgin (şöbə redaktoru), Taleh Mansur (şöbə redaktoru), Anar Amin, Allahşükür Ağa, Baloğlan Cəlil (Başqırdıstan), Cavid Zeynallı, Elxan Yurdoğlu, Elmar Vüqarlı, Elşən Əzim, Elxan Elatlı, Ələmdar Cabbarlı, Əyyub Qiyas, Furqan, Fuad Cəfərli, Gülnar Ümid, Günay Səma (Voronej), Həyat Şəmi, Hafiz Hacxalıl, Xəyal Rza, Xaqanı Qayıblı (Estoniya), Qılman İman, Nuranə Nur, Nargis, Nilufər Şıxlı (Moskva), Məshəti Musa, Orxan Cuvarlı, Rəsmiyyə Sabir, Səhər Əhməd, Seyfəddin Alaylı (Türkiyə), Saodat Muxammadova (Özbəkistan), Şəfa Vəli, Ulucay Akif.
**Bədii redaktor:** Ədalət Həsən
**Ünvanı:** AZ1000, Bakı, Xaqani küçəsi, 25
ulduz_dergisi@mail.ru; www.ayb.az
**Telefon:** (+99412)498-72-43
Çapa imzalanıb: 29.08.2023. "Ulduz" jurnalı redaksiyasında yığılıb, səhifələnib.
**"ASPOLİQRAF LTD" MMC**-də çap olunub.
Sifariş № 41, Tiraj: 300. Qiyməti: 2 man.
**1967-ci ildən çıxır. Şəhadətnamə** № 238




**"AZƏRMƏTBUATYAYIMI"**
**AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**"Ulduz"** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "Mətbuatyayımı" şöbələrinə müraciət etməyiniz kifayətdir.

**"QAYA"**
**MƏTBUAT YAYIMI**

**"Ulduz"** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "QAYA" mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

**Jurnalın**
**satış qiyməti – 2.00 man.**
**abunə qiyməti – 1.00 man.**

**Bakı şəhərində abunə yazılmaq istəyənlər:**

**441-19-91**
**440-16-26**

**566 – 77 – 80**



Günel MEHRİ

# özüylə söhbəti...

Mənə görə, ədəbiyyat – özünlə söhbətdir. Öz içinə – ağrılarına, narahatlıqlarına boylanmaqdır. Ətrafda baş verənləri içindəki süzgəcdən keçirib, saf-çürük edib öz rakursundan göstərməkdir.

Ədəbiyyat – güzgüdür. Hər kəsin hər zaman dilinə almadığı, etiraf edə bilmədiyi, amma hamıya doğma, məhrəm olan duyğuların güzgüsü... Ona görə bu güzgüyə baxanda çox məqam bizə tanış, doğma gəlir. Ona görə ədəbiyyat səmimiyyəti, sərhədsizliyi sevir...

# ...və hekayəsi

**DOĞUM GÜNÜ**

“De görüm, necəsən?” ...Yaxınlarda motivasiya ilə bağlı bir kitabda oxumuşdu: “Hərdən güzgüyə baxıb öz əhvalınızı soruşun...” Heç olmazsa doğum günündə özüylə səmimi olmaq istədi. Bir də pıçıldadı: “Necəsən?” Necə olacaqdı? Nə zövqlü libası, nə saç ustasının səyi əvvəlki görkəmini qaytara bilirdi. Rəngi-rufu avazımış, gözlərindəki işıq sönmüşdü. Yaxşı deyildi... Ona görə yox ki, yaşının üstünə yaş gəlirdi. Əksinə, heç vaxt öz doğum gününü belə həsrətlə gözləməmişdi. Xeyli vaxt idi, hər gün təqvimi işarələyir, ad gününə qalan günlərin hesab-kitabını aparırdı. Olan-qalan ümidini bu günə bağlamışdı...

Ev qonaq-qarayla qaynayırdı. Bir yandan da telefonu susmaq bilmirdi. Təbriklərin ardı-arası kəsilmirdi. Amma nə qiymətli hədiyyələr, nə də gözəl diləklər gözündə idi. Heç kimdən yox, bu özəl gündə məhz ondan sürpriz gözləyirdi. Düzdür, ona aparan yolların önünə qalın divarlar hörmüşdü. Amma bilirdi ki, onun bir qərarlı addımıyla aralarındakı buz sədlər qalxar, hər şey dəyişə bilər. Ən azından param-parça olmuş münasibətləri ya sapa düzülər, ya da… Başqa ehtimalı beynindən qovmağa çalışırdı. Danışmadıqları, görüşmədikləri bu bir il ərzində qəlbinə yüklənmiş bütün cümlələri, cavabsız sualları beynində saf-çürük edirdi: “Görəsən, ad günümü necə təbrik edəcək?” Amma anası demiş, yüz fikir bir borcu ödəmir ki... O gün anasıyla xeyli mübahisə etdilər. Eləcə israrla deyirdi ki, unutmalısan, vəssalam. Necə razılaşa bilərdi anasıyla? Necə yəni keçmişi buraxmalısan? Sözlə deməyə nə var? Buna əməl etməyin nə qədər mümkünsüz olduğunu anası başa düşməliydi axı. Axı niyə içini isidən hissləri öldürüb boşluqla yaşamalıydı? Axı o boşluğu doldura biləcək bir nəsnə tanımırdı. Anası isə bir ucdan üyüdüb tökürdü: “Sevgi boş şeydir. Bu gün var, sabah yoxdur. O dediklərin eşq kitablarında, bir də filmlərdə var. Bax, atanla görücünün köməyi ilə evlənib necə gözəl yaşayırıq...” Yenə nələrsə söyləyirdi anası, amma artıq onu eşitmirdi. Qadının ağzı balıq ağzı kimi açılıb-yumulurdu, səs yox idi. Ya da var idi, ona dəyib qayıdırdı, divara dəyən kimi. Birdən bütün gücünü toplyıb bağırdı, hə, eynən, qışqırmadı, bağırdı: “Mənə unutmaqdan danışma. Bacarırsansa, mənə unutmamağın reseptini öyrət, ana!” O an susdu anası. Amma susan kimi də bənizi bəmbəyaz oldu. Yazıq qadın qızından belə münasibət gözləmirdi. Əslində, anasını qınamırdı. Bəlkə də, anası əkiz ruhların vəhdətindən xəbərdar olsaydı, ona haqq verərdi. Anlayardı ki, kitabları bağlansa da, yolları ayrılsa da, Tanrı tərəfindən qəlbinə həkk olunmuş ruh əkizini öldürə bilməz…

Telefonun ekranı yandıqca həyəcandan boğazı quruyurdu: “Bax bu dəfə o olacaq.” Amma hər dəfə də başqa birinin təbrik mesajı, zəngi… Bu

müddət ərzində mexaniki şəkildə qonaqları salamlamış, neçə dəfə rəqs etmişdi, kimlərləsə qədəh toqquşdurmuşdu, hətta ad günü tortundan da dadmışdı. Amma nə etsə də, dönüb-dönüb bir nöqtəyə baxırdı: kiçik qara ekrana. Nə baş verirdisə, içində baş verirdi. Uzun müddətdir hiss edirdi ki, xarici görünüşü ilə daxili dünyası arasındakı bağ qopub. Bədəni fiziki anlamda yatıb-durur, yeyib-içir. Amma içi bir nöqtədə quruyub qalıb. Nəyə əl atsa da, bir tərpəniş baş vermirdi. Bir növ daxili iflic yaşayırdı. Boynuna alırdı ki, ilk dəfə "mən olmaq"dan yorulub. "Biz"i tanıyandan bu yana daha mən olmaq istəmirdi. İlahi, o ağrılı gündən sonra hər şey necə də adiləşib, eyniləşib. Heç bir fiziki həzzin əvvəlki dadı qalmayıb: nə sevdiyi təamların, nə vurduğu ətirlərin, nə izlədiyi filmlərin, nə dinlədiyi musiqilərin. Hər şey boz rəngə bürünüb. Sanki hava da, mahnılar də, filmlər də, yeməklər də boz rəngdədir, əsl mahiyyətini itirmiş kimidir. Çünki onların bir ucu "biz" məfhumuna bağlıydı. Çünki hər notda, hər ətirdə, hər dadda, hər misrada "biz" vardı. Artıq onları tək halda həzm edə bilmirdi. "Biz" olan hər şeyi – birgə gülüşlərini, davalarını, göz yaşlarını, baxışmalarını və görmə trayektoriyasına iişib qalmış daha nələri dondurub, saniyə-saniyə, kadr-kadr xatırlamaq istəyirdi. Qorxurdu, günlərin bir günü yuxudan durub görər ki, hafizəsindəki o sevimli obraz yoxa çıxıb, silinib. Arada fraqment-fraqment onun təsvirlərini çəkirdi: göz, saç, ya əl fraqmenti. Bununla rahatlaşırdı. Amma heç vaxt onu bütövlükdə çəkməyə cəhd etməmişdi. Beynindəki "o" obrazı o qədər işıqlı idi ki, haqqını layiqincə verə bilməməkdən qorxurdu. Yaddaşını möhkəmlətmək üçün onun pazllarını qarşılaşdığı başqa oğlanlarda toplayırdı: "Bunda onun duruşu var, o birində isə barmaqları..." Xırda bənzərlik belə diqqətini cəlb edirdi və uzun-uzun baxırdı o adama, baxdıqca da içi isinirdi. Sanki həmin an onunla qarşılaşırmış kimi olurdu. Birdən lap yaxınlıqda kimsə güldü. Çönüb baxdı. Qonşu oğlan idi. Qəribədir. İlk dəfə düşündü ki, onların təbəssümü bənzəyir... İlahi, onun təbəssümü üçün necə darıxmışdı. Halbuki ən son görüşlərində siması tutqun və gərgin idi...

Saat 12-ni vururdu. Bu günün son akkordları... "Bəlkə, indi, bəlkə, gecənin ən son təbriki ondan gələcək…" Ovcunda sıxdığı telefonun qaralmış ekranına son bir nəzər saldı və bütün ruhuyla içindəki "Biz"in qırılıb sonsuzluğa yuvarlandığını duydu. O an qərarlıydı. Aralarındakı son bağı qoparmaq istəyirdi. Telefonun nömrəsini çıxarıb eyvandan aşağı tulladı. Qəfil isti bir təmas çiyinlərinə toxundu:

– Əllərin necə əsir... Əməlli-başlı donmusan ki… Üzün-gözün də göyərib. Soyuq səni almamış yaxşı-yaxşı pencəyə bürün.

Başını qaldırıb gözlərinə hərarətlə dikilmiş qonşu oğlanın gözlərinə baxdı. Deyəsən, üzbəüz yaşadıqları bu illər ərzində ilk dəfə görürdü onun baxışlarındakı hərarəti. Ya bəlkə, o heç vaxt belə baxmayıb?..

– Bu gün yaman fikirliydin. Yoxsa bir yaş da gəncləşməyin dərdini çəkirsən?)

Gülüşdülər. Son günlər ərzində ilk dəfə üzü gülürdü. Qonşu oğlansa bundan xəbərsizdi:

– Şamları üfürəndə arzu tutmuşdun? Qoy tapım, sənin kimi gənc xanım ancaq böyük eşq arzulayar…Ya Rəbb, bəlayi-eşq ilə qıl aşina məni! Bir dəm bəlayi-eşqdən etmə cüda məni!..)

Bu nədir?.. Yavaş-yavaş içi donurdu. Şaxtanın əvvəlcə dərisini, sonra bircə-bircə daxili orqanlarınıı, iliklərini bürüyüb işğal etdiyini hiss edir, titrətməsi artırdı. Yox, bu elə-belə baş vermirdi. Hardasa dərin qatlarda yanan sevgi çırağı dörd tərəfini bürümüş soyuğun təsirindən öləziyib, öləziyib sönürdü. Uşaq vaxtı izlədiyi cizgi filmindəki qar kraliçaya çevrilirdi. Acı-acı gülümsündü: "Eşq…"

– Mən eşqə inanmıram ki…

– Necə yəni? Yəni heç?

– Heç. Əllə tutulmayan, gözlə görünməyən bir şeyə necə inanasan… Düz demirəm?

– Orası elədir. Amma bu Leyli-Məcnunlar, Əsli-Kərəmlər elə-belə yazılmayıb da.

– Elə məsələ ondadır ki, onlar hamısı nağıldır, əfsanədir. Reallıqsa daha sadədir. Olmayan bir şeyə inanaraq həyatı ötürmək olmaz…

– Yəqin ki. Maraqlı məntiqli yanaşman var. Ora bax, ora bax. Ulduz axır.

– Ay da, hə. Tez arzu tutaq:

Eyni anda pıçıldadılar:

– Hüzur...

Qonşu oğlan onun buz kimi barmaqlarından tutdu:

– Doğum günün mübarək, qonşu qızı. Yeni yaşın hüzurlu gəlsin.

– Sağ ol. Təsəvvür eləmirsən, bu təbrikin necə yerinə düşdü.

Dərindən nəfəs aldı. Soyuq hava ciyərlərini yaladıqca yüngülləşirdi. Ona elə gəlirdi ki, bu saniyələrdə daxilində əvvəlkindən fərqli, yeni bir mən doğulur. Pıçıldadı: "Yaxşıyam… "

*06.07.2023*




Seyid AYNUR

**KƏPƏNƏK**
Gözlərimin içində məskunlaşmış atom
hissəciklərinin
göyün üzünə səpələnmiş bütün ulduzların
sayından
trilyon dəfə çox olduğunu dəqiq bildiyim üçün
deyə bilərəm ki, məhəbbətin gözü kor deyil.
İnanmırsan, işıqları söndür,
gözlərimin içinə bax.
Gəl Ümumdünya cazibə qanununu pozmayaq,
qollarımızı geniş açıb qucaqlaşaq səninlə.
Nə oldusa, bu gün oldu –
ömrümün ən uzun tıxacına düşəndən bəri...
İllərdir sənə doğru yol gəlsəm də,
səni gördüyüm heç bir dayanacaqda tapmadığımı
anladım.
Özümü ayaqları ilə dad alan
kəpənəklər kimi hiss edirəm:
anam atamdan ayrılandan bəri
neçə bayramdır,
"Uşaqlıq" adlı sehrli şəhərə
düşmür yolum.

**LAYLA**
Qar yağır yerə lay-lay,
Anam oxuyar layla.
Elin igid oğluna
Səngərlər deyər layla.

Əzizim, xarıbülbül,
Ağladı yarı bülbül.
Beşiyi dağlar oldu,
Saraldı sarı bülbül.

Düzləri ağ qar aldı,
Yol çəkən göz ağardı.
Axtarmayın əsgəri,
Əhdi dağlarda qaldı.

Əzizim, asa məni,
Sırğatək asa məni.
Don vurmuş bənövşəyəm,
Çağırın yasa məni.

**AĞAC**
And olsun təbiətə,
kəsilmiş ağacların
o səssiz hönkürtüsünə!
Mən sevgi şeirlərini
heç vaxt vərəqdə yazmadım:
Musiqi kimi gəldi,
nəğmə kimi zümzümə etdim,
üşüdü misralarımdakı ağaclar,
bir quş qanadı kimi
titrədi dodaqlarımda bir təbəssüm:
gecdir,
çıx get, dostum,
meşənin yuxusu gəlib.

**ƏSGƏR**
"Ölüm-qalım,
ya əlil":
Canını döşək əvəzi torpağa,
başını balınc yerinə
daşa qoyub pıçıldadı küləyə –
"Düşmənin başına kül elədik, KOMANDİR!".

**SAÇLARIM**
Çiçəyi içində gizli
Əncir ağacısan!..
Bir güldana qoyulmayacaq,
Bir evə sığmayacaq qədər
fərqli idik səninlə –
qərənfil və qızılgül kimi...
Səni tanıyandan
Saçlarım gül ətrini itirdi.
Qadın baxışları məktubdur –
ünvanlı, ünvansız...

**NAR**
Şelli dağının arxasında gizləndi,
O gün həmişəkindən tez batdı günəş.
Səhərədək göydən mərmilər yağdı –
Biz Əkbərlə Qaraqayaya yaralıları daşıdıq,
yuyat yerinin tək bircə pilləkanı qalmışdı.
Nə ölüyə,
nə diriyə acıdı erməni...
Qarın içində
bir qız uşağı
anasının cansız bədəninin üstünə şal atdı
və yana-yana qaldı ağacların üstündə narlar.

**GÜLLƏ**
Hardasa qışqırır bir körpə:
"Ana, mənə nə isə dəydi"
Güllələr,
Güllələr,
Güllələr...

**ÇƏKMƏ**
Sıxılıb bir küncə darıxır.
Vətən boyda yol gedən
əsgər çəkmələri,
Hardasa bir şəhidin ayağı üşüyür.
Ağappaq bir göyərçin
dimdiyində dəfnə yarpağı,
qonur çiynimə –
Gülümsəyir göyün üzü,
gün çıxır.

**FATMA**
"Biri azdı, biri çox,
Biri vardı, biri yox".
Kasıbların ac qarnı
Olmur almalarla tox.
Fatma qədər deyildim,
Kəndirimi açalar,
Bir qarının evinə
Əlçimimi atalar.
Yığ, ay qız, tellərini,
Nağıllarda yu asan,
Yox şəhərdə rəngli su,
Axı necə yuyasan?..
Diri vaxtı danışmır
İnəklər baş qatmağa
Çevrilmir sümüklər də
İpəyə, ya başmağa.
Körpüdən keçən zaman
İtmir tayı başmağın,
Gəzə, araya səni
Adamları padşahın.
Gizlədəndə analıq
Banlamır xoruz damdan,
Nağıllarda quşlar da
Mərd olur adamlardan!..

**QADIN**
Bir qadın xəstəxana pəncərəsindən baxar:
anasının qoxusunu almış körpətək,
iməkləyər kor ölümün dalısınca.
Yaralı göyərçin qədər titrək,
payız yarpaqları kimi solğun,
siqaretdən yox, dərddən azarlamış
bir cüt ciyərini qollarıyla sıxar.
Bir qadın xəstəxana pəncərəsindən baxar,
və düşünər:
müharibələri, köçkünləri, əsirləri,
qan leysanının yuduğu səhraları, çölləri,
səngərdə düşmən snayperinə tuş gələn əsgəri,
zibilliklərə atılmış körpələri.
Bir qadın xəstəxana pəncərəsindən baxar,
və unudar:
QADINLIĞINI!

**ŞƏKİL**
Həsrətin doğum günü.
Foto-albomları vərəqləyirəm,
şəkillər qovuşa bilməyənlər üçün
təsəllidir.
Ürəyimdə ayaq səslərin eşidilirdi:
Tap! Tap!
Adın dilimdə çiçəkləyirdi
ləçək-ləçək –
yaz gəlmişdi.



Anar ADİL

# SƏMADAN MƏKTUB

Böyürtkən kollarının mühasirəyə aldığı həyətin giriş qapısından poçt qutusu asılmışdı. Qutu yaranışından yaşadığı ömrü başa vurandan bəri sərçələrin dəndanına çevrilmişdi.

Əmimin qapısından sərçə civiltisi, göyərçin qurultusu kəsilməzdi. Sərçələr dən yeyib tut ağacının budaqlarına, göyərçinlər taxtapuşa çəkilib sərinlənirdilər.

Əmim müəllimliyin daşını atsa da, ipə-sapa yatmayan şuluq uşaqları həyətinə toplayır, əvvəlcə onlara kamança çalır, sonra kitab oxutdurur, tapşırıq yazdırır, dərslər bitən kimi isə əllərinə kolbasa-çörək verib həyətində özü tikdiyi hovuza ötürürdü. Dərsi yaxşı oxumayanları hərdən şillələyirdi. Onun şilləsini dadan uşaq mum kimi yumşalırdı.

Əmim avtomobil qəzasından sağ çıxdı, amma şillə vuran sağ əlini bərk əzdi. Sarıqlı əli ilə kamanı götürüb simlərə çəkdi, kamançadan sərçə civiltisinə, göyərçin qurultusuna bənzər səs çıxan gün əmim şilləsini də, hirsini də boğub öldürdü.

Əmimin evinə toplaşan uşaqlar evlərində tapmadıqları sevgini, hüzuru hovuzun sərin suyunda çimib, kolbasa-çörəyi acgözlüklə ağızlarına təpməklə tapırdılar.

***

Əmim göyərçinlərə, sərçələrə dən almaqdan gəlirdi. Dən torbasını mizin üstünə qoydu, aerodrom kepkasını çıxartdı, çəliyini iki dəfə mizin ayağına vurdu:

– Qardaşoğlu, bəri gəl, dünən ziyil basmış əlini gördüm, yaxma aldım sənə, götür, axşam yatmazdan qabaq ziyillərinə çək, bircə həftəyə quruyub təmizlənsin.

Əmimə “sağ ol” dedim. Alnındakı qat-qat qırış açıldı, bığlarının ucu yanağına dartıldı.

– Qardaşoğlu, dünyada ən gözəl iş, bilirsən, nədi?

Çiynimi çəkdim.

– Dünyada ən gözəl iş göyərçin uçurtmaqdı.

Əmim hər dəfə göyərçin uçurmazdan qabaq kepkasının üstündən başını qaşıya-qaşıya beş dəqiqəlik hadisəni bir saata uzadıb, cüt göyərçinlərin göyə qalxmasını, fit çalan kimi göydə mayallaq aşmalarını, quşların ayağından tutmuş, dimdiyinə qədər hər şeyi elə dolu, elə bəlağətlə təsvir edirdi ki, onun eyni söhbətinə yüzüncü dəfə də eyni maraqla qulaq asırdım.

– Sənin söhbətindən sonra ağ-qara həyat da gözümə rəngli görünür, əmi, – dedim.

Əmimin sifətinin qaraldığını gördüm. Bilirdim… Yenə rəhmətlik yoldaşı yadına düşmüşdü.

Əmidostum Səma rəhmətə gedəndə əmim camaatın yanında özünü toxtaq tutub ağlamadı. Bir dəfə kənd toyunda yaxşı yeyib-içmişdi, ayaq üstə zorla dururdu. Qoluma girib mənə danışmışdı ki, Səma ölən gecə, qonaqlar dağılışıb gedəndən sonra yataq otağına keçib, kaman sürtən sağ əli ilə arvadının başına vurduğu yumruqları dayanmadan öz başına endirib, elə Səma kimi də cınqırını çıxarmayıb.

Əmim kepkasının dimdiyini aşağı çəkib gözünün üstünə saldı. Sol əli ilə kepkasının dimdiyindən bərk-bərk yapışıb buraxmırdı, sanki illərlə ondan qabaq oyanan, ondan gec yatan, hər kürünə, hər yalanına, hər təhqirinə dözən arvadının başından-beynindən çıxıb qaçacağından qorxurdu.

Əmim Səma ilə nişanlı vaxtı bir-birinə yazdıqları məktubları indiyəcən servantın gözündə saxlayırdı.

– Qardaşoğlu, poçtalyon məktub gətirdi, gördün?

– Yox, görmədim, əmi – çaşqınlıq içində əmimə baxdım.

Əmimin sifəti haldan hala düşdü.

– Bir get bax. Yaxşı-yaxşı bax, bayaq gördüm ki, poçtalyon qutuya nəsə atdı.

– Baş üstə, – deyib böyürtkən kollarına bürünmüş həyət qapısına sarı yüyürdüm.

Qutuda üstünə dən səpilmiş zərfi görəndə nə deyəcəyimi bilmədim. Tez kimdən gəldiyinə baxdım. Sevincdən qışqırdım. Qaça-qaça məktubu əmimə gətirib sadəlövhcəsinə güldüm:

– Hə, əmi, məktubdu, qutuda... Səma əmidostumdandı.

Əmim tez ayağa qalxdı, məktubu əlimdən aldı, açdı, əzbər bildiyi sətirləri dilinin alıtında sürətlə oxudu. Məktubu oxuyub bitirib, səliqə ilə qatlayıb döş cibinə qoydu, pencəyinin üstündən məktubu sığalladı.

Yataq otağının işığı yandı.

Kamançanın simlərindən “Segah”ın iniltisini həyətə yayıldı. Sərçələrin civiltisi, göyərçinlərin qurultusu eşidilməz olmuşdu.



“Ulduz” jurnalı ilə “525-ci qəzet”in birgə layihəsi

Məti Osmanoğlunun təqdimatında



# SİMVOLİZM ƏDƏBİ CƏRƏYANI

Azərbaycan ədəbiyyatı tarixində fərqli istiqamət yaratmış Əbdürrəhim bəy Haqverdiyev simvolizm cərəyanı ilə 1890-cı illərin ortalarında, Peterburqda ali təhsil alarkən tanış olduğunu yazmışdı: “Bu üsulun Şərq ruhuna xeyli uyğun olması məni artıq həvəsə gətirdi. Və mən Şərq həyatından götürülmüş simvolik bir əsər yazmaq fikrinə düşdüm. Nəhayət, 1901-ci sənədə “Pəri cadu” əsərimi yazdım”...

Əbdürrəhim bəyin Şərq ruhuna yaxın hesab elədiyi simvolizm (fransızca “symbolisme”) cərəyanının adı işarə, rəmz mənasına bağlıdır. Avropa sənətində modernist cərəyanlardan biri sayılan simvolizmdə müəyyən hadisəni canlandıran bədii obrazı durmadan dəyişən “ruh həyatı”nın, “əbədi həqiqət” axtarışının əlaməti olan bədii simvol əvəz edir.

Simvolizm ədəbi cərəyan kimi XIX əsrin 60-70-ci illərində Fransada yaranıb. Simvolizm termini isə fransız şairi Jan Moreas 1886-cı ildə “Simvolizmin manifesti” adlı əsərini nəşr etdirəndən sonra qəbul olunub və yayılıb. Jan Moreasın “Simvolizmin manifesti” həm məzmun, həm də forma məsələlərini əhatə edən müxtəsər estetik proqramdır.

Jan Moreas fransız şairi Şarl Bodleri (1821-1867) simvolizm hərəkatının əsl sələfi kimi qəbul edirdi. Onun qənaətinə görə, simvolizm Ş.Bodler tərəfindən müəyyənləşdirilmiş “uyğunluqlar” qanununa əsaslanır: bu uyğunluqlar ucu-bucağı olmayan, daim yenilənən bir aləmə səpələnib ki, həmin aləmdə batində olanlar “öz-özünə fəal şəkildə zahirə çevrilir”.

Simvolistlər belə hesab edirdilər ki, dünyanın mahiyyəti ağıl gücünə dərk edilə bilməz, buna ancaq məntiqə sığmayan, bir rəmz, işarə sayəsində canlanan intuisiya ilə nail olmaq mümkündür.

J.Moreasın manifestinə əsasən, simvolist mövqe “obyektiv təsvir”in düşmənidir, konkret hadisələr isə görünüşdən başqa bir şey deyildir. Simvolizmin estetik sisteminin əsasını adi olandan qaçmaq təşkil edir: dünyanın ideal mahiyyətinə – gözəlliyə nail olmağın yolu isə rəmzdir.

Simvolistlər belə hesab edirdilər ki, şair həqiqətə gedən yolu intuitiv hiss etdiyi üçün Tanrı məqamındadır, intuisiya, hissi idrak isə insanın

mistik dünyaya açılan gözüdür. Bu göz maddi həqiqətdən daha dərin və daha sirli həqiqəti görür.

Simvolizm cərəyanı üçün iki fərqli dünya mövcuddur: əşyalar dünyası və ideyalar dünyası. Simvol isə bu dünyaları bir-birinə bağlayan şərti işarədir. Hər bir simvolun həm işarə edən, həm də işarələyən tərəfi var. İşarələyən tərəf qeyri-real dünyaya, sirlər aləminə yönəlir. Sənət isə sirrin açarına çevrilir.

Simvolistlər öz əsərlərində yaşantılarla, qaranlıq, qeyri-müəyyən əhval-ruhiyyələrlə, incə hisslərlə, keçici təəssüratlarla dolu hər bir qəlbin tarixini əks etdirməyə çalışırdılar. Onlar bədii sözü yeni, canlı və ifadəli obrazlarla doldurmağa cəhd edir, bəzən orijinal forma yaratmaq həvəsi ilə söz və səs oyununa üstünlük verirdilər.

"Əbədi həqiqət" axtarışında olan simvolistlər mürəkkəb metaforalar, alleqoriyalar, eyhamlar, rəmzlər işlədir, sözün ahənginə, fikrin çoxqatlılığına, mücərrəd obrazlara xüsusi diqqət yetirirdilər.

Rus ədəbiyyatında simvolizmin banisi hesab olunan, ömrünün böyük hissəsini mühacirətdə – Parisdə yaşamış Konstantin Balmontun "Poeziya sehr kimi" traktatından seçdiyimiz hissənin bu cərəyanın mahiyyətini daha aydın başa düşmək üçün faydalı olacağı qənaətindəyik. Heç şübhəsiz ki, Ə.Haqverdiyev Peterburqda təhsil alarkən onda simvolizmə ciddi maraq yaradan mənbələrdən biri də K.Balmontun yaradıcılığı olmuşdu.

**Konstantin BALMONT**

# POEZİYA SEHR KİMİ

Güzgüdə əks olunan güzgü. İki əksi qarşı-qarşıya yerləşdirin və onların arasına bir şam qoyun. Şamın alovu ilə şölələnən iki dibsiz dərinlik getdikcə dərinləşəcək, biri digərini dərinləşdirəcək, şamın alovunu zənginləşdirəcək və onları bir yerdə birləşdirəcək. Bu, şeirin obrazıdır.

Bir-biri ilə əlaqəsi olmayan, lakin bir qafiyə ilə şölələnən iki misra ahəngdar şəkildə qeyri-müəyyənliyə və məqsədsizliyə gedir və bir-birinə baxa-baxa dərinləşir, birləşir və ahənglə şəfəq saçan vahid bir bütövlük yaradır. Üçlüyün bu qanunu, ikinin üçüncü ilə birləşməsi bizim Dünyamızın əsas qanunudur. Güzgünü güzgüyə yönləndirirək dərindən baxsaq, hər yerdə oxuyan qafiyə tapacağıq. Dünya çoxsəsli musiqidir. Bütün dünya heykələ dönmüş bir misradır.

Sağ və sol, yuxarı və aşağı, hündürlük və dərinlik, yuxarıdakı Göy və aşağıdakı Dəniz, gündüz Günəş və gecə Ay, göydəki ulduzlar və çəmənlərdəki çiçəklər, ildırımlı buludlar və nəhəng dağlar, gözişləməz düzənliklər və sərhədsiz fikir, havadakı tufanlar və ruhdakı fırtınalar, qulaqbatıran ildırım və qulağa güclə çatan çay səsi, qorxunc bir quyu və dərin bir baxış - bütün dünya ikiliyə əsaslanan bir uyum, nizam, harmoniya içindədir, gah səslərin və rənglərin sonsuzluğuna dalır, gah da ruhun daxili bir himninə, ayrıca bir ahəngdar mənzərənin vəhdətinə, sağın və solun, yuxarının və aşağının, zirvənin və uçurumun ucsuz-bucaqsız müxtəlifliyini özündə cəmləşdirən bir Mənin hər şeyi əhatə edən simfoniyasına qovuşur.

Bir günümüz iki yarıya – gündüzə və gecəyə bölünür. Günümüzdə iki parlaq şəfəq var, səhər və axşam şəfəqləri, biz gecədə toranlığın qatılaşan və seyrəkləşən ikiliyini bilirik və həmişə varlığımızdakı başlanğıcın sonla qovuşduğu ikiliyinə arxalanırıq, gümüşü ulduzlar səpələnmiş qara məxmər yolda səhərdən axşama qədər aydınlığa, parlaqlığa, ayrılığa, genişliyə, həyatın çoxluğu ilə kainatın ayrı-ayrı hissələrinin rəngarəngliyi duyğusuna, ala-toranlıqdan ala-qaranlığa doğru gedib böyük sükut məbədinə, mənzərənin dərinliyinə, vahid bir xorun, bütöv bir Ahəngin dərkinə daxil oluruq. Həmin dünyada gecə-gündüz o ahəngi səsləndirə-səsləndirə ikini bir araya gətiririk, ikiliyi həmişə bütövlüyə çeviririk, birləşdirən düşüncəmizlə, onun yaradıcı toxunuşu ilə bir neçə simi səsli bir alətdə birləşdiririk, əbədi ayrı olan iki böyük yolu bir araya gətiririk, onlar qafiyədə öpüşən iki ayrı misra kimi ayrılmaz ahəngdə birləşirlər.

Səslər və əks-sədalar, hisslər və onların yaratdığı xəyalat, aradıcılığın sirri, yeni yaranmış misra.

Bir yaz səhərində leysan yağışının təzəcə yağdığı və selin bütün su tutarlarından daşdığı zaman gərginləşmiş qulağımıza bəzən kristal bir səs gəlir – damın harasındansa düşən damlalar uzun müddət yüngül cingilti ilə bir-birini təqib edir, su yığıntısının altından gələn bu səs fikirlərdə əks-



səda verərərək insan düşüncəsini bir xəyaldan başqasına, bir daxili xülyadan yeni xülyaya aparır, bu xülya getdikcə genişlənir, kiçik ilə böyüyü, fərd ilə dünyanı qovuşdurur. Bir damcı səslənərək Dünya haqqında danışır, bərq vuran bir damlada göy qurşağının bütün rəngləri cilvələnir. Beləcə misra doğulur, ahəngdar obraz yaranır, insan özünü Dünyada görür, əks olunan Dünyanı da özündə tapır.

İnsan həm damladır, həm də Dəniz. Dənizdə nə qədər xəzinələr var! Mərcan meşələri, ağ, mavi, çəhrayı, qırmızı, sarı, göy və sirli yosunlar, kürəyində xaç təsviri olan, müxtəlif nöqtə və xətlərin bir-birilə kəsişdiyi naxışlı meduza var - və dəniz suyunun ənginliklərində rəngarəng formada balıqlar qaçışır, elə orada kəskin qısqacları olan dəhşətli canlılar sürünür. Gecə bənövşələri üzür, kiçik avarlara oxşayan üzgəcləri ilə hərəkət edir, onlar gündüzlər Dənizdə qırmızımtıl talalar əmələ gətirir, gecələrsə fosfor işığı ilə işıldayırlar və bu işıq dalğada yellənib daha güclü alovlanır, sülhməramlı Dənizdə şüa saçan kökayaqlılar yaşayır, onların naxışlı üzləri cilvələnir, tikan-tikan kiçik şəffaf toplar, canlı torlar, dəbilqələr və fənərlər, canlı səbətciklər, zənglər, minlərlə xırda məxluqlar - hamısında da mahnı var, onların hər qatarı bir misradır.

Dərinliklərindəki formaların səssiz musiqisindən ləzzət alan Dənizin üzündə dalğalar nərə çəkir, oyulmuş çanaqları sahilə atır – onlardan bəzilərini insan Dəniztək zəngin olmaq, dəniztək azad olmaq üçün talisman kimi sinəsindən asacaq, bəzilərini qalaq-qalaq yerə atacaq, tapdalayacaq, əzib onlardan hamar yollar salacaq, üçüncü qismini naxışlı, yüngül, kiçik boyunbağıya düzəcək, əyri buynuza bənzəyən, spiral şəklində bükülüb dənizin qorxunc səsini özündə saxlayan dördüncü qismini isə acgözlüklə dodaqlarına toxunduracaq və bu, ilk döyüş şeypuru olacaq, insan onda ilk döyüş havasını çalacaq, havasını təzələmək istəyəndə isə öldürməyə gedəcək.

Təbiətin bütün səslərinin musiqisini dinləyən ibtidai ağıl onları öz içinə yığır. O, tədricən naxış-naxış çoxlaylı ərintilərə qarışaraq daxilində onlardan musiqi yaradır və zahirdə onu ahəngdar sözlə, nağılla, sehrlə, tilsimlə ifadə edir.

Poeziya zahirdə ölçülərə salınmış nitqlə ifadə olunan daxili musiqidir.



Barbara UOLKER

Barbara Uolker ruhanilik, feminizm və mifologiyaya dair kitabları ilə tanınan amerikalı yazıçıdır. 1930-cu il, iyulun 2-də dünyaya gələn B.Uolkerin həm də toxuculuğa və sənətkarlığa dair kitabları var. Doğulduğu Pensilvaniya ştatında jurnalistika üzrə təhsil alan yazıçı 1970-ci illərdə zorakılığa məruz qalan qadınlara kömək edən yerli Qaynar xətdə xidmət edərkən feminizmlə maraqlanıb. Uolker təhsilini bitirdikdən sonra dinlərin müqayisəsi, mifologiya və feminizmlə bağlı araşdırmasını davam etdirib və bu, onun ən məşhur əsərlərini – "Qadınların miflər və sirlər ensiklopediyası", "Qadınların ritualları", "Tarotun sirləri: mənşəyi, tarixi və simvolizmi", "Tac: yaşlı, hikmətli və güclü Qadın", "Feminist nağıllar"ı yazması ilə nəticələnib. Amerika Humanist Dərnəyi 1993-cü ildə onu "Humanist qəhrəman" adlandırıb və o, 1995-ci ildə "Tarix yaradan qadınlar" mükafatını alıb.

Bu, 93 yaşlı yazıçının "Ulduz"un oxucuları ilə ilk görüşüdür.

# DİŞİ CANAVAR

*hekayə*

*Canavarlara sitayiş Avropanın bütpərəst qəbilələrinin dövründən, onlardan bəzilərinin qurda müqəddəs totem kimi pərəstiş etməsindən başlayıb. "Qurd"un nəsil adı olaraq günümüzə gəlib çıxması bunu sübut edir. Qurd totemli qəbilələrin üzvləri canavar dərisi geyinir və canavarı imitasiya (təqlid) edən rəqslərlə ritual olaraq özlərini heyvan ruhlarına çevirirdilər.*

*Yunan mifologiyasında tanrı Zevsin də canavar formasına çevrilməsi təsvir edilir. Xristian hakimiyyətləri tərəfindən "şeytanlaşdırılan" canavara inam orta əsrlərdə likantropiya (qurda çevrilən insan) haqqında xurafatlara səbəb olur. Bu da canavarları mənfi obraz kimi əks etdirən nağılların yaranmasına gətirib çıxarır. Daha dəhşətli, qorxunc canavar təsviri böyük ehtimalla hər hansı canavardan daha çox, insanlarda uşaqlıqdan yaranmış iri, dişləyən it xofundan qaynaqlanır... Uşaqlığımdan bəri itləri çox sevirəm, ona görə də nağıllarda canavarların dəhşətli təsvirlərinə baxmayaraq, onlara heç vaxt qorxuyla baxmamışam. Maraqlı və ecazkar bir canlını niyə pisləyirsiniz? Canavar totemli qədim qəbilələrin üzvləri, yəqin ki, likantropiyanın sehrli bir transformasiya (çevrilmə) vasitəsilə insanların kəskin qoxu və eşitmə hissini, canavarın çevikliyini, gücünü və cəldliyini bəyənmişdilər. Bir canlının – canavarın bu qeyri-adi xüsusiyyətlərinə müəyyən paxıllıq, demək olar ki, bütün insan cəmiyyətlərində özünü göstərir...*

Biri vardı, biri yoxdu, qızı Lupa ilə kiçik bir fermada, balaca daxmada yaşayan kasıb, dul kişi vardı. Torpaq, demək olar ki, onlara lazımi qədər yemək vermirdi, tək ümid yeri inəkləriydi – onları süd, yağ, pendir kimi qidayla təmin edirdi. Bu kişinin həyatda yeganə sevinci qızıydı, ən böyük arzusu da onun böyüməsini görmək idi. Atasının göz bəbəyi olan Lupa isə ağıllı, həm də mehriban bir qızcığazıydı.

Bir gün fəlakət baş verdi: inək xəstələndi və öldü. Artıq nə süd vardı, nə də pendir, yağ. Dul kişinin nəinki təzə inək, heç bir-iki toyuq almağa da pulu yox idi. O, ölmüş inəyi kəsdi, ətini qızı ilə



köməkləşib doğradı, bu ət onları bir müddət tox saxladı. Amma inəyin əti qurtarandan sonra onların yeni məhsul üçün əkiləcək toxumlardan başqa, demək olar ki, heç nəyi qalmamışdı.

Kişinin mərhum arvadı bacarıqlı dərziydi və onun bir neçə qobeleni hələ də evdə qalırdı. Lupanın atası onları zirzəmidən çıxardı. “Bunları anandan yadigar olaraq saxlamağı düşünürdüm” – o, kədərlə qızına dedi:

– İndi isə bu qobelenləri satmaqdan başqa çarəm yoxdur. Sabah mən yaz əkininə başlamalıyam. Sən də bu əl işlərini bazara aparmalı və bacardığın qədər ən yüksək qiymətə satmağa çalışmalısan.

Ertəsi gün səhər tezdən Lupa qobelenləri də götürüb yola düşdü. Evlərindən mərkəzi bazara yol uzaq olduğu üçün o, bir neçə kilometr yol getməliydi. Yolda ikən hava tutqunlaşdı və şiddətli tufan qopdu. O, daldalanmağa bir yer tapmadığına görə dayanmadı və yoluna davam etdi. Hava sakitləşəndə Lupa tamamilə islanmışdı… Qobelenləri sıxıb sudan təmizləmək üçün çantasından çıxaranda dəhşətə gəldi: bütün rənglər bir-birinə qarışmışdı!.. Anası solmayan, rəngi getməyən boyalardan istifadə etmədiyi üçün qobelenlərin üzərindəki təsvirlər islanıb dağılmış, gözəlliklərindən əsər-əlamət qalmamışdı...

Başına gələnlərdən məyus olan Lupa çarəsiz halda yolun kənarına çöküb ağlamağa başladı. Dolanmaq üçün son şanslarını itirməkdən əlavə, anasının əmanəti olan əl işləri də artıq yox idi… Atasının ən çox buna kövrələcəyini bilən Lupa nə olur-olsun, bazara getmək qərarına gəldi. Məqsədi ya qobelenin kətanını satmaq, ya da bir parça çörək üçün dilənmək idi. Yolunun üstündəki meşədən keçəndə o, həzin ulama səsi eşitdi. Bir o qədər də uzaqdan gəlməyən bu səs ona öz kədərinin izharı kimi göründü... Qorxu hissini kədərindən unutmuş bu qızcığaz səsin sahibini axtarmağa başladı və sağ qabaq ayağından tələyə düşmüş, ağrıdan acı-acı ulayan boz, iri, sarı gözlü dişi canavarla qarşılaşdı.

“Ah, yazıq canavar”, – dedi təmizürəkli Lupa, – “Sənə kömək edə bilərəmmi?”

Onun çox heyrətləndiyini görən canavar “məni bu tələdən xilas elə” – deyə yalvardı:

– Yuvamda körpələrim var. Mənsiz onlar məhv olarlar.

Lupa qalın çubuq götürüb tələnin ağzını açdı və canavarın ayağını ordan çıxartdı. Daha sonra paltarından bir az cırıb canavarın yarasını şəfqətlə sarıdı. Canavar yardımına, həyatını qurtardığına görə qızcığaza təşəkkür etdi və “balalarımla mən borcundan çıxmaq üçün həmişə hazırıq”, – deməyi də unutmadı. Lupa isə “təəssüf ki, mən o qədər pis vəziyyətdəyəm, heç kim mənə kömək edə bilməz”, – pıçıldadı və başına gələnləri, inəklərinin ölümündən tutmuş, qobelenlerə qədər hər şeyi canavara danışdı. Canavar ona bazara getməyi deyil, evə qayıtmağı məsləhət gördü və əlavə etdi:

– Narahat olma, hər şey yaxşı olacaq.

Bunu deyərək ana canavar axsaya-axsaya, amma sürətlə uzaqlaşdı. Lupa çox təəccüblənsə də, düşündü ki, danışan sehrli bir canavara etibar eləmək lazımdır. Atasının qobelenləri pis halda görməsini istəməyən Lupa onları meşədə torpağa basdırdı və əliboş evə qayıtdı. Atasına qobelenləri satdığını, lakin pulunun yolda oğurlandığını deyərək ağ yalan danışdı. Atası bütün gün işləmişdi, qızı kimi həm yorğun, həm də ac idi. Lakin onların yeməyə bir neçə toxumdan başqa bir şeyləri olmadığından qarınları quruldaya-quruldaya yatmağa getdilər. Gecə boyu hər ikisi meşədə canavarların səsinə tez-tez oyanırdılar. Səhər açılanda Lupa özünü hələ də yorğun hiss etdiyindən yerindən qalxmaq istəmirdi, amma qəflətən atasının qışqırığını eşidib onun yanına qaçdı. “Bir bax!” – atası ağlayaraq deyirdi: “Budur, qapının astanasında!”

Burada təzəcə kəsilmiş, kənarları cırıq-cırıq olmuş, sanki cəmdəyindən vəhşicəsinə parçalanmış iri bir maral əti parçası varıydı. Sevincək olan ata-bala dərhal ətdən doğrayıb bir neçə tikə qızartdılar və uzun müddət sonra ilk dəfə yaxşıca yeyib qarınlarını doyurdular.

Ertəsi gün isə həmin qapının astanasında kralın mühafizəçilərini görüb mat-məəttəl qaldılar. Onların arasındakı kapitan əlindəki qılıncın sapı ilə qapını döyərək qışqırırdı: "Qapını açın, qanunsuz ovçular!"

Lupanın atası tələsik qapını açdı: "Mən sadəcə yoxsul bir kəndliyəm. Siz səhv adamın dalınca düşmüsünüz", – deyə yalvarmağa başladı. Kapitan daha da hiddətləndi: "Sən kral meşəsində kralın maralını ovlamısan! Boynuna al! Biz meşədən qan izi ilə bu qapıya gəlib çatmışıq". Kapitanın əmri ilə mühafizəçilər daxmanın qapısından içəri keçib mətbəxdə, tavandan asılmış maral ətini gördülər. Kapitan içəri nəzər salıb bunu görən kimi dedi: "Hər ikiniz həbs olunursunuz". Lupayla atası çox dil tökdülər ki, günahları yoxdur. Əti onların qapılarına hansısa "naməlum" bir varlıq qoyub desələr də, heç bir faydası olmadı. Elə daxmadaca onları tutdular, əli-ayağı bağlı halda mühakimə üçün kral sarayına apardılar.

Zindanda iztirablı, acınacaqlı gecə keçirdikdən sonra səhərisi gün ata və qızını sürüyərək kral və kraliçanın saray əyanlarının əhatəsində taxtlarında əyləşdiyi zala gətirdilər. Hətta əkiz körpə şahzadələr də beşiklərində kraliçanın taxtının yanında idilər. Qızılla bəzənmiş qara məxmər geyimli məmur zaldakı bütün cinayətkarlara qarşı ittihamları oxuyub sübutları təqdim etdi. Növbə Lupanın atasına gələndə o, bütün ittihamları inkar etdi və kral qarşısında diz çökərək günahsızlığını bildirdi. O, hadisəni belə izah edirdi ki, əti gecə saatlarında naməlum şəxs və ya şəxslər onun qapısının ağzına qoyublar... Kişinin bu hadisəni təkrar-təkrar danışması kralı bezdirdi. Təqsirləndirilən şəxs də izahının nə qədər zəif, əsassız olduğunu başa düşdü və utanaraq susdu. Amma kralın əksinə olaraq, kraliça bu məsələyə daha maraqla, həvəslə yanaşır, qıza və atasına diqqətlə baxırdı.

Lupa kraliçanın gözlərinin qeyri-adi, sarı rəngdə olduğunun fərqinə vardı. "Sən bu ikisi haqqında heç bir hökm çıxarma", – deyə qətiyyətlə kraliça dilləndi, – "onları öz yanıma işə götürəcəm". "Ancaq əzizim, qeyri-qanuni ovçuluğun cəzası edamdır", – deyərək kral etiraz elədi. Lakin kraliça "mən də deyirəm ki, bu ata-bala edam edilməyəcək", – dedi və əminliklə: "mühafizəçilər, onları mənim otağıma aparın!" əmrini verdi.

Beləliklə, Lupa və atası kraliça gələnədək onun otağında mühafizəçilərlə birgə gözlədilər. Kraliça gələn kimi onların qandallarını çıxartdırdı və sonra hamını otaqdan qovub ata-bala ilə tək qaldı. Lupa və atası onun qarşısında diz çökərək göstərdiyi mərhəmətə görə təşəkkür elədilər, o isə cavabında "Mən mərhəmətli deyiləm, sadəcə dürüst və vicdanlıyam. Mən borclarımı geri ödəyirəm. Keçən dəfə bunu eləyəndə sizin başınıza əlavə iş açdım, indi isə hər şeyi yoluna qoymaq mənim öhdəmə düşür", – dedi.

Lupa qorxa-qorxa dillənib heç nə başa düşmədiklərini bildirdi. "Bu tanış gəlir?" – deyə kraliça soruşdu. O, sağ qolunu, dirsəyindəki qanlı sarğını göstərdi. Lupa diqqətlə baxaraq paltarının parçasını tanıdı. "Kraliçamız dişi canavardır?" – Lupa heyrətlə pıçıldadı. "Bir də heç vaxt bu haqda danışmayacağıq. Sən, Lupa, mənim qulluqçum olacaqsan, atan isə kral bağbanı. O da çoxlu qızıl qazanacaq və yaxşı dolanacaq, sən də. Acınacaqlı günləriniz bitdi".

Kraliçanın sözlərini eşidər-eşitməz ata-bala sevinclə onun əlini öpdülər və bir də heç vaxt o kasıb daxmalarına qayıtmadılar, kral sarayında məskunlaşdılar. Lupa illər uzunu kraliçaya sədaqətlə xidmət elədi. Atası da kralın bağına qayğıyla yanaşdı və günlərin bir günü də baş bağban təyin olundu. Lupa anasının qobelenlərini basdırdığı meşəyə gedib onları qazaraq çıxartdı, ucuz boyalarını yuyaraq təmizlədi və yenidən tikilməsi üçün saray dərzilərinin ən yaxşısına təhvil verdi. Nəticədə ortaya çıxan əsər onun adı ilə bütün dünyada məşhurlaşdı. İllər keçsə də, bu əsərlər milli muzeylərin vitrinlərində göz oxşayır…

İnsanlar o vaxtlar deyirmişlər ki, bəzi aysız gecələrdə Lupa və atası qəribə bir dəyişiklik keçirir və sarı gözlü, sağ qabaq ayağı yaralı olan iri, boz dişi canavarın başçılıq etdiyi vəhşi canavar sürüləri ilə birgə meşə boyu qaçırlar...

*İngilis dilindən tərcümə etdi:*
BDU-nun filologiya fakültəsinin ingilis dili və ədəbiyyatı ixtisası üzrə 2-ci kurs tələbəsi
**ALSU**





Ceyhun ÖTKƏM

# 1 ŞEİR

***

mən ya kor bucağam,
ya kar bucağam,
özümü dürtməyə məzar qucağam,
qolları xaraba bekar qucağam,
mənim ayaqlarım yoxdur, üzəngi...
toz basıb çiynimi, bayquş da qonmur,
kəfənlə qaçan da gəlib sığınmır...
sən də bekarasan, mən də bekara,
mənim ayaqlarım yoxdur, üzəngi...
daha boşlamışam əldə yüyəni,
uşaqlar uzaqdan görəndə məni
deyirlər, ay nənə, kentavr əmi...
mənim ayaqlarım yoxdur, üzəngi...
atım-arzu, murad... çox adları var
at murad deyil ki, muradları var...
nə olsun, görünməz qanadları var
mənim ki ayağım yoxdur, üzəngi...
mənim ki ayağım yoxdur, üzəngi...





# MƏNİM ƏDƏBİYYATIM BU ÜÇ NƏFƏRLƏ BAŞLAYIR...

"...Atəşkədələr, fırtınalar yavrusu Azər
Coşduqca alevlər və köpüklər kibi çılğın...
Bəzən bayılıb sərəli bir heykələ bənzər,
Yorğun gözü həsrətli üfüqlər kibi dalğın.
Bəzən o baqışlar yenə şimşək kibi parlar,
Qəsvət savuran hiçliyi bir anda yaqarlar".

Bu misralar Hüseyn Cavidin "Azər" poemasındandı... Az qala bir əsr öncə yazılıb. Böyük ədib bu poemanı qürbətdə – Almaniyada müalicə alarkən yazmağa başlasa da, vətəndə bitirmişdi. O Cavid ki, ziddiyyət və məhrumiyyətləri nəzərə almasaq, işıqlı ömür yolu günəşli məmləkətində başlayıb, soyuq qürbətlərdə sona çatmışdı.

Azər Turanla müsahibəyə başqa cür başlaya bilməzdim. Başqa cür başlasaydım, günah etmiş olardım, yaşadan ruhlara, yaşayan ürəklərə toxunmuş olardım. Cavid əfəndinin altı misralıq xeyir-duasına sığınıb başlayıram. Bu misralarda təkcə Azər adı keçmir, həm də Azər Turan şəxsiyyətinin cizgiləri, taleyinin müəyyən nəzərəçarpan və çarpmayan məqamları kodlaşdırılıb. Elə bir fövqəl düşüncəyə, bəsirət gözünə, duyuma-filana malik deyiləm. Cavid əfəndini anlamaq, duymaq elə də çətin deyil, onu görmək istəyəndə görürsən, eşitmək istəyəndə eşidirsən, oxumaq istəyəndə oxuyursan, sevmək istəyəndə... yox, sevmək istəyini duymursan, birbaşa sevirsən, vəssalam!

Adətim belədi, az və çox tanımağımdan asılı olmayaraq, müsahiblərimin yazdıqlarını, yaşadıqlarını müsahibə öncəsi təkrar-təkrar oxuyuram. Əvvəl oxuduqlarım öz yerində, ancaq indi Elnarə xanım Akimovanın Azər Turanın həyat və yaradıcılığına işıq tutan "Uzun, incə bir yolda" kitabından başlayıram. Bu yerdə Azər Turanın əbədi ədəbiyyat ünvanlı ömür və yaradıcılıq yolunu nəfəs qədər yaxına gətirən, daha da sevdirib doğmalaşdıran Elnarə xanıma ruhani təşəkkür etməyi də özümə borc bilirəm.

Azər Turanın kitablarını oxumağa, televiziya çıxışlarını izləməyə başlamışdım ki, özümü Hüseyn Cavidin, Əli bəy Hüseynzadənin, Ömər Faiq Nemanzadənin, Məhəmməd Hadinin, Xəlil Rza Ulutürkün və neçə-neçə vətən, millət təəssübkeşinin yazdıqlarını, yaşadıqlarını oxuyan, izləyən yerdə tapdım. Dünyanın bu üzündə ürəyimə sevincqarışıq fərəh qondu, o biri üzündə isə azman ruhlar şad oldu. Ürəkləri şad etməyə nə var ki, bacarırsan, ruhları şad eylə. Azər Turan: adı əzəli yurd, təxəllüsü əbədi vətən. Azər Turan adını da, təxəllüsünü də göz bəbəyi kimi qoruyub. O təkcə ad və təxəllüsünün qoruyucusu deyil, onun çiyinləri zaman-zaman Turan Cavidin cismani və ruhani yükünün ağırlığında bərkiyib. Ürəyi, düşüncəsi Hüseyn Cavidin, Mişkinaz xanımın, Ərtoğrol Cavidin müqəddəs ruhlarının ziyasında aydınlanıb. Əli bəy Hüseynzadə kimi bayraq şəxsiyyətin ömür yolunu yaradıcılığının ən yüksək zirvələrindən birində dalğalandırıb. Saymaqla bitməz ki, nə yazıb, savaba yazılıb, deməsək, günaha batmış olarıq...

Təsadüfi ənənəyə sadiqəm, yenə də müsahibimin cismani yaşı altmışdır. Daha doğrusu, bu günlərdə altmış yaşa qədəm qoyacaq. Mən Azər müəllimə bilərəkdən 60 yaşıyla bağlı sual vermədim. Ona görə vermədim ki, onu ulu ruhların həmyaşıdı hesab edirəm, mübaliğəsiz-filan. Uzun sözün qısası, mən ona yaşına bağlı sual vermədim, o da ürəyinin və düşüncəsinin ən yuxarı köşəsində qərar tutan bir nakam şairdən danışmadı. “Ölüm süvarisi” kitabında abidləşən və abidələşən Faiq İsmayılovu nəzərdə tuturam. Əslində, Azər müəllim Faiqdən baxışlarıyla, ürəyiylə və ruhuyla danışdı, sadəcə, dilə gətirmədi. Olsun, mən onun dilə gətirməyib danışdıqlarını da eşitdim. Əminəm və and içə bilərəm ki, Azər müəllim bu sətirlərə görə məndən yerdən göyəcən razı qalacaq. Çox uzatmayacam, Hüseyn Cavidin əzəmətli misraları ilə başladığım fikirlərimi Faiqin İsmayılovun əbədiyyətə ünvanlanmış cavabsız sual misraları ilə yekunlaşdıracam:

Qaranlıq pəncərəmdə
Qara pərdə kimi –
Nə mənim o üzdən xəbərim var,
nə o üzün məndən.
Divarlar nənəmin ağ kəfəni kimi –
bilmirən çitdəndi, ya bezdən.
Ən yaxın nöqtəyə söykənib
gözlərim dondu.
Bəlkə də, ölmüşəm,
bəlkə də, sondu?..

**– Dünyaya professor İmamverdi Əbilovun cismani övladı kimi gəldiniz, Hüseyn Cavidin, Turan Cavidin mənəvi övladı kimi yaşayırsınız... Yeri gəlmişkən, bu məqamda Məmməd Aslanın Turan xanıma həsr etdiyi “Turan mələyi” essesini xatırladım. Həmin essedə belə bir fikir var: “Çox böyük imkanı ilə Cavid irsinin təbliğində kimsənin bacarmayacağı köməyi ilə seçilən Azər Turan bütün varlığı ilə Turan mələyinin müqəddəs ruhunun övladı ucalığında!”. Cismani övlad həqiqətində yaşamaq məsuliyyətlidir, ya mənəvi övlad ucalığında?**

– Mənim üçün hər iki tərəf ucalıqdır və məsuliyyətdir. Azər də, Turan da həm cismanidən, həm də mənəvidən gəlir. Düşüncələrimin estetikasını İmamverdi Əbilovdan, həyat fəlsəfəmi Turan Caviddən miras almışam.

Məsələ burasındadır ki, mənim xatirələrim də sənədlidir. Hər şey 1969-cu ilin 10 sentyabrında başladı. Həmin gün atamın dostları: Bəxtiyar Vahabzadə, Məsud Əlioğlu və Xudu Məmmədov bizə qonaq gəlmişdilər. Onlar, ümumiyyətlə, bizə tez-tez gəlirdilər. Bir yerdə, ayrı-ayrı. Mən 1969-cu ilin 10 sentyabrını niyə fərqləndirirəm? 6 yaşımın tamam olmağına hələ 6 gün qalıb. İndi evimizdə bir lent yazısı və bir fotoşəkil var. Duman kimi xatırladığım o günün şəkli və səsləri... Atam danışır. Sonra bir-bir Bəxtiyar, Xudu və Məsud. Bəxtiyar Vahabzadə “Bu evdə Şekspirdən tutmuş, Sartra qədər hamı var” - deyir. Xudu Məmmədov “İnsan ziyarətgah yaradan olsa, onu Salyanda da yaradar, Qarabağda da yaradar” - deyir. Məsud Əlioğlu isə “Mən istəyirəm bu ziyarətgahın ən böyük şəxsiyyəti Əli bəy Hüseynzadənin şeirinnən ayrılaq burdan. Bəxtiyarın da ürəyindən olar” – deyib Əli bəy Hüseynzadənin “Hali-Vətən” şeirini öz şaqraq səsiylə sona qədər əzbər söyləyir: “Ucundadır dilimin Həqiqətin böyüyü...” və ardıyca da yenə ürəkdən gələn uca və işıqlı səsiylə “Eşq olsun Hüseyn Cavidə” deyib Şeyx Sənanın monoloquna keçir: “Arkadaşlar, şu parlayan günəşin feyzi birdir cahanda hər kəs için”.

Əli bəy Hüseynzadə və Hüseyn Cavid həyatıma bu şəkildə – ilk dəfə Məsud Əlioğlunun vasitəsilə keçdi. Sonra həyatda ilk əzbərlədiyim Cavidin bu iki misrası oldu: “Gəldin də niçin

pənbə buludlar kimi axdın". Onda heç bilmirdim pənbə buludlar nədir? Pənbə buludlar kimi axan kimdir, nədir? Bu mənada, mən 1969-cu ilin 10 sentyabrından başlayıram. Onda hələ bilmirdim ki, atam Cavidin "Azər"inə görə mənə Azər adını verib... Məndə Azər olmağımla bağlı 1963-cü ilin sentyabrında Bəxtiyar Vahabzadənin atama ünvanladığı bir məktub var: "Azər böyük azərbaycanlı olsun" yazıb. Sonralar Turan Cavidin istəyi ilə Azər Turan olanda və bu imza ilə ilk dəfə məqaləm dərc olunanda yenə də Bəxtiyar Vahabzadə sırf bu münasibətlə atama bir məktub yazdı: "Azərin Azər Turan olmasını təbrik edirəm. Bu ad onun boyuna biçilib".

Uşaq yaşlarımda, xüsusən qış aylarında gecələr bəzən atamla yatırdım. Onun nəfəsindən gələn alma ətri indi də mənimlədir. Mənə rəsm kitablarındakı şəkilləri göstərərdi. İlk dəfə göstərib şərh etdiyi rəsm əsəri Petrov Vodkinin "Qırmızı atla çimən oğlan" tablosu olmuşdu. Atın rəngi niyə qırmızıdır? Oğlan niyə çılpaqdır? Qırmızı atın yüyəni niyə qaradır? Bu oğlan niyə dənizdə atla çimir? Verdiyim sualları da bir-bir cavablandırırdı. Onun yüksək estetik zövqü, bənzərsiz mütaliəsi vardı. Təfəkkür tərzinə görə indi onu heç kimlə qiyaslandıra bilmirəm. Beləliklə, onun başlatdığı yol məni Əli bəy Hüseynzadəyə və Hüseyn Cavidə hazırladı. Mən isə onların, sadəcə, tədqiqatçısı olmadım. Mən Cavidi də, Əli bəy Hüseynzadəni də ömür kimi yaşadım. Cavidin qızı Turan mənə "Çoban şeyx", Əli bəy Hüseynzadənin qızı Feyzavər "Yaramaz çocuk" deyə xitab etdilər. Turan Naxçıvana Cavid məqbərəsinə – atasının ziyarətinə sonuncu dəfə mənimlə bir yerdə getdi. Dünyasını dəyişəndə yanında məndən başqa kimsə olmadı. Son sözlərini də mənə deyib ruhunu tapşırdı, gözlərini mən qapadım. Feyzavər də İstanbulda Qaracaəhməd məzarlığında atasının ziyarətinə sonuncu dəfə mənimlə bir yerdə getdi. Hüseynzadənin məzarına səpmək üçün Salyan torpağı aparmışdım. O torpağı ikimiz bir yerdə səpdik Əli bəyin məzarına. Orda çəkilmiş şəklimiz də var. İndi sualınıza necə cavab verim, bilmirəm... Cismani övlad həqiqətiylə mənəvi övlad ucalığı arasındakı sərhədlər mənim həyatımda belə qaynayıb-qarışdı. Bu iki nəfərin ardıyca Ömər Faiq Nemanzadənin qızı Bəxtli xanımın da adını əlavə edə bilərsiniz. Turan Cavid dünyasını dəyişəndə, son anında əlimi möhkəm sıxdı. Çox möhkəm sıxdı. Məhz bu zaman telefon zəng çaldı. Bir əlim Turanın əlində, o biri əlimlə dəstəyi qaldırdım. Ömər Faiqin qızı Bəxtli xanım idi. "Azər əfəndi can, Turan hardadı?" "Turan yatır, Bəxtli xanım", – dedim. "Yazıq Turan, narahat etmə onu, qoy yatsın. Mən sonra zəng vuraram" deyib dəstəyi asdı. Məhz o anlarda da Turan dünyasını dəyişdi...

**– Daha çox ali məqsədlər, müqəddəs amallar uğrunda ömrünü fəda etmiş insanların həyatını araşdırıb gün üzünə çıxarmısınız. Bəlli ki, bütün bunlar ürəyinizin, düşüncənizin, ruhunuzun diktəsiylə baş verib. Alber Kamyu "Amal uğrunda ölmək-amala layiq olmağın yeganə yoludur" – deyirdi. Amala layiq olmaq üçün ölməkmi lazımdı?**

– Bunu yalnız amal uğrunda ölənlər deyə bilər. Ölənlər isə heç nə demir. Sonradan onlar haqqında danışanlar, onların ömür yolu barədə yazanlar deyir ki, bu insan amal uğrunda öldü. Siz Kamyunun sözlərini xatırlatdınız. Mən daha çox Hadiyə inanıram: "Məfkurə yolunda tökülən qan hədər olmaz". Gənclik illərimdə çalışdığım rəsmi işimlə əlaqədar 130 nəfərə yaxın şəhidi aparıb valideynlərinə təhvil verən biriyəm. Mən şəhid qanının ətrini bilirəm. Məncə, o ətir behişt ətridir. Mən o ətri Həcc ziyarətim əsnasında Məkkədə, Hira dağındakı məşhur mağaranın divarında da hiss eləmişəm. İkinci Qarabağ savaşında 3000 gəncimiz amal uğrunda şəhid oldu. Onlar öləcəklərini və sonra da qanlarının hədər olmayacağını hardan biləydilər. Onlar isə məhz o amal uğrunda öldülər və yenidən bu dünyaya gəldilər. Quranda Hz. İsanın dilindən deyildiyi kimi: "Doğulduğum gün də, öləcəyim gün də və diriləcəyim gün də mənə salam olsun". Bir az da mistik məntiqlə baxın. Tanrı şəhadətindən qabaq Xudayar Yusifzadəyə bir nəğmə oxudur, Əliağa Vahidin nəğməsini. Vahid hardan biləydi ki, yazdığı bu şeir neçə illərdən sonra Vətən savaşının simvollarından birinə çevriləcək. Vətən belə bir anlayışdır. Ədəbiyyat da Vətən kimidir. Millətin ən çətin günündə Vətən və Ədəbiyyat belə birləşir. Əliağa Vahid İkinci Qarabağ savaşında Xudayarın oxuduğu təsnifin timsalında iştirak etdi. Sonra da Xudayar şəhid olur və o təsnifin mistikası bütün Azərbaycana sirayət edir. İndi Xudayarın səsində o mahnı qutsaldır, deyilmi? Mahnının sözlərinə diqqət yetirin: "Dumanlı dağların başında durdum, / Dumandan özümə bir xeymə qurdum. / Keçdi xəyalımdan öz gözəl yurdum..." Sabah şəhid olacaq bir əsgər oxuyur bunu... Bəlkə də, amal uğrunda ölənlər bunu öncədən duyurlar...

Bilmirəm... Amma Xudayarın təsvir etdiyi məkan, dumanlı dağların başında özünə dumandan qurduğu çadır... Bəlkə, xəyalından keçən gözəl yurd elə behiştin özüydü....

**– 2014-cü ildə işıq üzü görmüş “Əli bəy Hüseynzadə” monoqrafiyanızda Əli bəy Hüseynzadənin bütün hallarda pərdə arxasında qaldığını, pərdənin önündə baş verənlərin, eləcə də türk dünyasının XX yüzilinin Əli bəyin əsəri olduğunu qeyd edirsiniz. Bu fikirdən çıxış edərək, XXI yüzili – türk dünyasının yaxınlaşmaqda olan intibahını kimin əsəri kimi xarakterizə etmək olar?**

– Məfkurəsini yaratdığı, bayrağını mənalandırdığı müstəqil Azərbaycan qurulub artıq. Hüseynzadə bu gün pərdənin arxasında olmasa da, buna rəğmən, hələ halal haqqını da almayıb. Paytaxt olmasını təklif etdiyi Bakıda heykəlləşməyib, ev-muzeyi yoxdur və s. Yaxşı xatırlayıram. İnstitutu yenicə bitirmişdim. Kamal Talıbzadənin məsləhəti və səyi ilə Ədəbiyyat İnstitutunun dissertantı oldum və Cavidlə bağlı yazmağa başladım. 1984-cü ildə, Kamal müəllimlə ilk söhbətimizdə dediyi bir fikri unutmamışam: “Əli bəy Hüseynzadə nəhəngdir, sovet hökuməti elə nəhəng şəxsiyyəti çuvalda gizlədə bilməyəcək”. Caviddən yazdım və eyni zamanda Əli bəy Hüseynzadədən də ayrılmadım. Bir-birinin ardıyca Cavidlə bağlı üç kitabım nəşr olundu. Nəhayət, ömrümü verdiyim “Cavidnamə”ni qələmə aldım. Bu kitabın bir hissəsi Əli bəy Hüseynzadənin Cavidə təsiri barədə, Cavidin düşüncə şəcərəsi haqqındadır. Cavidlə bağlı elmi işimi müdafiə etmədən 2008-ci ildə Moskvada “Əli bəy Hüseynzadə” kitabım həm Azərbaycan, həm də rus dillərində hər biri 5000 tirajla nəşr olundu. Kitabın Moskvada təqdimatı keçirildi. Sonra 2014-cü ildə dediyiniz kitab – “Əli bəy Hüseynzadə” Bakıda nəşr olundu. Sualınıza keçək. Türk birliyi ideyası Əli bəy Hüseynzadəyə aiddir. Bu, birmənalı şəkildə belədir. Biz bu gün də ona istinad etməliyik. Hətta təkcə türk birliyi məsələsində deyil, bütün məsələlərdə. Qarabağ problemində də, erməni məkrinə münasibətimizdə də, Rusiyanın Azərbaycana yönəlik siyasəti barədə düşünəndə də… Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq konsepsiyamızı dövlətimizin altyapısında bərqərar edəndə də. Üçrəngli bayrağımızın elmi təsnifatını verəndə də. Ədəbiyyata, sənətə estetik baxışlarımızda da… Və təkcə sənət və ədəbiyyat deyil, hətta iqtisadiyyatda da. Axı Əli bəy Hüseynzadə 1928-ci ildə Adam Smitin “Millətlərin sərvəti” əsərini də tərcümə etmişdi.

**– Türk dünyasının ünlü ədiblərinin, alimlərinin, fədailərinin həyat və yaradıcılığına, taleyinə işıq tutmusunuz. Bununla kifayətlənməyib türk dünyasının böyük sərkərdələrinin, deyək ki, əfsanəvi Alp Ər Tonqa və Ənvər Paşa kimi qəhrəmanların taleyini də qələmin köynəyindən keçirmisiniz. Sizcə, türk ruhunu ayaqda tutan sözün qüdrətidi, ya qılıncın cəngi? Bəlkə, Tanrının qüdrətiylə vəhdəti-vücud**



**olmuş söz və qılınc ittifaqından qaynaqlanır bu əzəmətli ruh yüksəkliyi?**

– Bu, türkün ruh halıdır. Əzizim Taleh Mansur, türk ruhu hər zaman qalibdir. Gözəl ifadə etdiniz, türk qılıncı ilə türk qələminin vəhdəti-vücudu. Bu, dəqiq təyinat oldu. Mən təkcə ədəbiyyat yazıları yazmıram. Tutaq ki, bizim yerlərin – 2800 illik tarixinə həsr etdiyim "Darülmömininin" kitabım Salyanda, Neftçalada çoxlarının stolüstü kitabıdır. Qafqaz İslam Ordusunun 1918-ci ildə bizim tərəflərdə ermənilərlə apardığı savaşın tarixini və xronikasını da yerli qocaların – şahidlərin dilindən, arxiv sənədlərinə istinad edərək yazmışam. Bu, əslində, nəyisə yazmaq deyil, tarixin bir hissəsini bərpa etməkdi. 1918-ci ildə həlak olmuş 11 türk şəhidinin məzarının dəqiq yerlərini müəyyənləşdirmişəm. Bunu danışsam, gördüyüm işin mənəvi vüsətinə, az qala, özüm də inanmaram.

**– Biz inanırıq, elə özünüz də, danışın.**

– Nağıl kimi bir söhbətdir. Mən hətta 1918-ci ildə bu yerlərdə qalmış, geri qayıtmamış türk əsgəri Həsən Çavuş deyilən adamın izinə düşdüm. Sonunda məlum oldu ki, burada qalan türk mehmetciyi sonralar adını, soyadını dəyişdirib, Hasan Çavuş Həsən Abdulova çevrilib. Burda evlənib, oğul-qız sahibi olub, Ərzrumlu Hasan Çavuşun, yəni Həsən Abdulovun nəvəsi neftçalalı Həsən Abdulov da Birinci Qarabağ savaşının şəhidlərindən oldu. Onun da nəşini aparıb Qazaxbərəsi kəndində valideynlərinə mən təhvil vermişdim, dəfnində iştirak etmişdim. O dönəm Türkiyənin Azərbaycandakı səfiri Kadri Ecvet Tezcanla görüşdüm. Neftçaladakı türk şəhidlərinin məzarları barədə məlumat verdim. Kadrı bəy kövrəldi. "Demək ki, dədələrimin gəlib şəhid olduğu torpaqdayam"- dedi. Mən ona burda bir anıt yapılmasının münasib olduğunu söylədim. Yağışlı bir havaydı. Türk şəhidlərini ziyarət etmək istədi. Dedi ki, böylə bir iş olarsa, cümhurbaşkanı Süleyman Dəmirəlin o törənə qatılmasını təmin edərəm. Sonra Kadri Ecvet Tezcan bəy başqa ölkəyə səfir təyin edildi. Amma məsələ artıq gündəmə gətirilmişdi. Bu barədə çoxlu televiziya verilişlərində danışdım. Ən təsirli və effektiv verilişlərdən birini 1998-ci ilin sentyabrında İstiqlal dövrümüzün çox dəyərli tədqiqatçısı rəhmətlik Xanlar Bayramlı hazırladı, veriliş elə həmin il sentyabrın 16-da AzTv-də yayımlandı. Digəri isə rejissor rəhmətlik Rövşən Almuradlının yaratdığı film kimi bir veriliş idi. O da televiziyada 1998-ci ilin 17 sentyabrında göstərilmişdi. Yəqin ki, hər iki veriliş AzTv-nin arxivində qalır. Bu verilişlərin əks-sədası böyük oldu. Xanlar Bayramlı ilə əlavə olaraq Azərbaycan radiosunda bu mövzuda beş silsilə söhbətimiz də oldu. Sonralar "Kürün sahilində soyqırım" sənədli filminin ssenarisini yazdım. Film Ans TV-də yayımlandı. Türk şəhidlərinin məzarı üzərində abidə qoyulması mənim idealım idi. Bir iş adamını bu işə cəlb edə bildim. İşə dəstək olacağına söz verdi. Cüzi hərəkət yarandı. 1999-cu il martın 22-də abidənin təməli qoyuldu. İlk daşı da ora mən qoydum. Amma təəssüf ki, bu iş də yarımçıq qaldı. O zaman Alqış Həsənoğlu məni "Yeni Azərbaycan" qəzetinə humanitar şöbənin müdiri və "Ədəbiyyat" əlavəsinə məsul redaktor təyin etmişdi. Qəzetdə də bu barədə "Gülü gülşən edənlər" adlı silsilə yazılarım dərc olundu. Hər verilişdən, hər məqalədən sonra Türkiyə səfirliyindən məni arayırdılar. Nəhayət, türk iş adamları gəlib o yerdə möhtəşəm bir abidə - anıt ucaltdı. Və həmin abidənin açılışında mənim "Qafqaz İslam Ordusu Neftçalada" kitabımın təkrar nəşri tədbir iştirakçılarına paylandı.

Alp Ər Tonqa mövzusuna gəlincə. Alp Ər Tonqa barədə ayrıca bir araşdırma kitabını nəinki bizdə, heç Türkiyədə də heç kəs yazmamışdı. Təvazökarlıqdan kənar olsa da, deyim, mənim yazdığım "Alp Ər Tonqa" bu sahədə bir ilkdir.

**– "Xalid Səid Xocayev" kitabınız da bir ilkdir.**

– Bəli, o da bir ilkdir. Xalid Səid Xocayev barədə ilk kitabın müəllifi mənəm. Şükür ki, mənim ardıcıl yazılarımın nəticəsində 1937-ci ildən sonra itirilmiş əlyazma – Xalid Səid Xocayevin tərcüməsində "Divani-Lüğət-it-türk" tapıldı və indi Dilçilik İnstitutunda nəşrə hazırlanır.

**– Fevral ayında "Atam, anam, qardaşım, mən və Stalin" dramınız əsasında hazırlanmış eyniadlı tamaşanı izlədim. Bilərəkdən zalda gözdən, belə demək mümkünsə, bir az da yad könüllərdən uzaq bir yerdə əyləşmişdim. Bilirdim ki, tamaşanın necə alınmasından asılı olmayaraq, göz yaşlarıma hakim ola bilməyəcəm. Gözlədiyim kimi də oldu və nə qədər qəribə səslənsə də, ilk dəfəydi ki, göz yaşlarıma görə sevindim. Bir də ona görə sevindim ki, o qədər ağrı-acının, ölüm-itimin içində nə Hüseyn**

**Cavid öldü, nə Mişkinaz xanım, nə Ərtoğrol, nə də Turan xanım. Eynən xatirimizdəki kimi diri və canlı qaldılar. Əminəm ki, siz də eyni hissləri keçirdiniz, türlü duyğulara qərq oldunuz, nəhayət, müəllif olduğunuzu unutdunuz. Bəs sizi tamaşaçı kimi ən çox kədərləndirən və sevindirən nə oldu?**

– Bu sualın cavabına bir haşiyə ilə başlamaq istəyirəm. "Cavidnamə"ni yazdım, kitabı nəşrə göndərəndə qəribə hisslər keçirdim. Kitab həyatım boyu bir yerdə olduğum Cavidlə ayrılışım təsiri bağışlayırdı mənə. Bu kitab ömür kimi bir hadisəydi. O ömürdən Turan Cavid keçmişdi. Sonra Cavidlə bağlı elmi işin müdafiəsi. Sonra boşluq. Cavidlə yaradıcılıq irtibatımın tamamlandığını zənn edirdim. Tamamlanmayıbmış. Hüseyn Cavidin bütün əsərlərinin Türkiyədə ilk nəşrini hazırlamaq da mənim taleyimdəymiş.

**– Bu da bir ilk...**

– Bəli, Cavidin ilk Türkiyə nəşri. Amma mən başqa mətləb barədə danışmaq istəyirəm. İlk Türkiyə nəşrinin – min səhifəlik kitabın mətbəəyə göndəriləcəyi gün İstanbulaydım. Gecə oteldə yatmışdım və Cavid yuxuma gəldi. Qara kostyum geyinmişdi. Mənə bir sual verdi. Dedi: "Sən elə bilirsən Çingiz Atilladan əvvəldi?" Bunu deyib susdu. Təəccüblə üzünə baxdım. "Çingiz Attiladan sonradır" deyib getdi. Yuxudan oyandım. Gecəydi. Səhərə qədər İstanbulun Laləli səmtini gəzdim. Duyğularımı bölüşəcəyim adam – Turan Cavid dünyada yox idi. Dediyiniz tamaşadan sonra da eyni hissləri yaşadım. Sevincqarışıq kədər... Daha çox isə kədər...

Bir TV layihəsi var, "Belə-belə işlər" adlanır. O verilişdə Cavidlə bağlı danışdım. Baxış sayı yüz minlərlə oldu. Verilişdən sonra Amerikadan zəng oldu. Amerika-Azərbaycan Ticarət Palatasının icraçı direktoru idi. Verilişə baxmışdı. Bakıya gəldi. Məni aradı. Redaksiyada görüşdük. Çox doğma söhbətimiz oldu. Vaşinqtondakı Amerika-Azərbaycan ticarət palatasının binasına Cavidin barelyefini vurmaq ideyası yarandığını dedi. Onlara Cavidlə bağlı, özü də Amerika kontekstində fakt lazım idi. Cavid haqqında 1937-ci ildən sonra və bəraətə qədər ilk araşdırmanın Vaşinqtonda azərbaycanlı siyasi mühacir Mustafa Haqqı Türkəqul tərəfindən yazıldığını dedim. Sonra həmin barelyefin Vaşinqtonda açılışı oldu. Demirəm ki, bu, həmin verilişlərdəki çıxışımın təsiri ilə oldu, amma o barelyefin yaranmasında həmin çıxışın müəyyən rolu olmamış deyildi. Gördüyünüz kimi, mən Caviddən ayrıla bilmədim. Allah buna imkan vermədi. İstanbulda və Avropanın müxtəlif şəhərlərində Cavidə həsr olunmuş tədbirlərə, konfranslara dəvət olunmağım da mənim Cavidlə bağlı davam edən tale missiyamdı.

**– Araşdırmaçı kimi əbədi və ədəbi yaşam hüququ qazanmış dühalardan yazdınız. Yazmaqla kifayətlənmədiniz, yazdıqlarınızı yaşadınız. Yaşadıqlarınız həm də taleyinizə çevrildi. Artıq on ilə yaxındır ki, "Ədəbiyyat qəzeti"nin baş redaktorusunuz. Sanki həyat missiyanızın ikinci dönəmini yaşayırsınız. Publisistik fəaliyyətinizi yaradıcılığınızın ilk dönəmlərinə təsadüf edən ruhsal missiyanın davamı hesab etmək olarmı?**

– Bilmirəm "Ədəbiyyat qəzeti" həyatımın neçənci dönəmidir... Amma bunu dəqiq bilirəm ki, məni başqa şəkildə təsəvvür edənlər çox yanılır. Yazdıqlarım, təbii ki, yaşadıqlarımdır, yaxud əksinə, yaşadıqlarımı yazıram. Bu, mənim həyat tərzimdir. Hüseyn Caviddən necə yazmışamsa, tutaq ki, Şuşanın ilk fatehi orgeneral Cəmil Cahid Toydəmirdən də elə sevgiylə yazmışam. Sizə bir söz deyim, siz də buna inanın. Şuşa zəfərinə jurnalist gözüylə baxanların sevincini anlamaqda çətinlik çəkirəm. Şuşanı yazmaq deyil, yaşamaq lazım idi. Özü də zəfərdən sonra deyil, 30 il sərasər yaşamaq lazım idi. Gecə-gündüz, hətta yuxuda da.

Məndə bir xarıbülbül süveniri var. Onu mənə iyirmi il əvvəl Turan Cavid bağışlayıb. Qarabağlı deyiləm. Amma iyirmi ildir ki, o süvenir yazı masamın üstündədir. 20 ildir yazılarımı o xarıbülbül simvolunun işığında yazıram. "Qarabağlı deyiləm" sözlərimə xəfif bir aydınlıq gətirmək istəyirəm. Əli bəy Hüseynzadənin 150 illik yubiley tədbiri, yəni Prezident sərəncamı ilə keçirilən yubiley tədbirlərinin yekunu, salyanlıların istəyinə görə, onun doğma yurdunda – Salyanda keçirilirdi. Respublikanın bütün ədəbi-elmi ictimaiyyəti ordaydı. Türkiyədən də qonaqlar gəlmişdi. Əsas məruzələrdən birini akademik İsa Həbibbəyli, birini də mən etdim. Məruzəmin sonunda Tanrıdan bir təmənnamı dilə gətirdim. Dedim ki, beş ildən sonra Əli bəy Hüseynzadənin ən yaxın dostu Əhməd Ağaoğlunun da 150 yaşı tamam olacaq. Necə ki Ə.Hüseynzadənin yubileyini doğma Salyanda qeyd edirik, Tanrı nəsib etsin, Ağaoğlunun da 150 yaşını onun

doğulduğu Şuşada qeyd edək. Dediyim sözlər özümü də kövrəltdi. Salona baxdım, qarabağlılar – Aqil Abbas da, Rəşad Məcid də, hərbi həkim Bəhruz Səfərəliyev də ordaydılar. Rəşad Məcid bu sözdən çox təsirlənmişdi, kövrəlmişdi. Sonra möcüzə baş verdi. Allah nəsib etdi, düz beş ildən sonra, yəni böyük zəfərimizdən sonra Şuşada keçirilən ilk Vaqif Poeziya günləri çərçivəsində ilk elmi simpoziumda çıxış etdim və bu epizodu, Salyanda Əli bəy Hüseynzadənin yubileyində dediyim sözləri xatırlatdım.

**– Yuxarıda qəzeti həyatınızın sanki ikinci dönəmi adlandırdım. Amma belə görürəm ki, dönəmlər çoxdur.**

– Hə. Çoxdur, hətta qatbaqatdır. Tutaq ki, yazdıqlarımı yaşamışam deyirəmsə, siz mənim səmimiyyətimə inanın. Bayaq dedim, Turan Cavid dünyasını dəyişəndə yanındaydım. Bunu indi bütün Azərbaycan bilir. Ömər Faiqin qızı Bəxtli xanım tək yaşayırdı. Dünyasını dəyişəndə onun telefon kitabçasına baxıblar, ilk yazılmış ad mənim adım olduğuna görə mənim nömrəmi yığıblar. Yeri gəlmişkən, bu iki nəfərlə bağlı bir böyük təsəllim də var. Cavidin yubileyi ərəfəsində Prezident Heydər Əliyevin sərəncamı ilə sənədli film çəkilirdi. Rejissoru Şamil Nəcəfzadəydi. Ssenarisini mən yazmışdım. O zaman Turanı böyük çətinliklə razı saldım ki, filmdə yalnız o danışsın. Film boyu təkcə Turan danışdı. Bir də Lider TV-də rejissor Akif Arifoğlu mənim ssenarimlə “İşığımız sönməyəcək” adlı bir televiziya filmi çəkdi. Orda da əsasən, Bəxtli xanım danışdı və bu, Bəxtli Nemanzadənin dünyamızda qalan yeganə canlı görüntüsü oldu.

**– Yaradıcılığınızın ilk dönəmlərində, hələ “İrfan çobanı” kitabının işıq üzü gördüyü zamanlarda sizə atılan iftiraları nəzərdə tuturam, sanki ruhunuza çökmüş Turan məfkurəsinə, Hüseyn Cavid, Əli bəy Hüseynzadə, Məhəmməd Hadi, Ömər Faiq Nemanzadə sevgisinə qısqanclıqla yanaşıblar. Sizə elə gəlmirmi ki, bütün bunlar təkcə şəxsinizə qarşı yox, həm də sevdasına tutulduqlarınıza görə idi?**

– Əlbəttə. Amma mən bu barədə heç danışmaq istəmirəm. Cavid deyirdi: “Hər qaranlıqda çırpınır bir nur, Hər həqiqətdə bir xəyal uyuyur”.

O xoş olmayan, o bədbin söhbətlərin sıxıntısından məni bir gün Mehdi Bəyazid xilas elədi. Ölümündən qabaq mənə bilmədiyim çox şeyləri anlatdı. Son görüşümüzdə mənə bir əlyazma verdi. “Sənin haqqında bunu yazmalıydım” – dedi. “İstəsən, çap etdir, istəsən, yandır. Məndən yazmaq idi. Yazıb rahatlaşdım” – dedi. Bu, bizim Mehdi ilə son görüşümüz oldu. Mən onu nə çap etdirdim, nə də yandırdım. Mehdinin həmin bir kitablıq əlyazısını arxivimdə saxlayıram. Təbiətimə uyğun olmasa da, o əlyazmadan bir pasajı burda xatırlatmaq istəyirəm. Mehdi Bəyazid yazırdı: “Onun ballı-pətəkli üslubuna, şərqlə qərbi, şimalla cənubu bir cümlədə qəfil improvizasiya edən cümlələrinə dodaq büzənlər, sanki əsrlərin dərinliyindən gələn uzun zindan siqlətli milli kədərinin mahiyyətinə vara bilmədən üzdən şütüyüb keçərək öz manqurt təfəkkürlərini dözülməz gülünclüklə faş edirlər və vaxtaşırı mənə də tənə oxu atırlar: “Muzey qoxusu gəlir sizin bu Azər Turandan, orta əsrlərdə qalıb. Anoxronizmdir!” – “Bəli, anoxronizmdir, – deyirəm, – amma sizin düşündüyünüz kimi yox, ən azı təyyarədə gəzən Roma papası kimi anoxronizmdir”. Əslində isə, Azər Turan bu rəzalət maskaradının səbəbini hamıdan gözəl bilir və onun sərçeşməsinin hardan baş alıb gəldiyini cərrah tişəsində yarıb göstərir: “Vahid Turan məfkurəsi olmayınca mədəniyyətin coğrafiyaya təsiri baş verməyəcək”.

“İrfan çobanı”nı xatırlatdınız. Mənim üçün o kitaba Xalq yazıçısı Anarın ön söz yazması ayrıca önəm kəsb edirdi. Sonralar Anar “İrfan çobanı”na yazdığı ön sözü özünün “LİK Azerbaydjana” kitabına daxil etmək üçün rus dilinə tərcümə etmək əvəzinə, “Türk düşüncəsi” adlandırdığı həmin yazıdan yola çıxaraq “Yaşamaq haqqı” traktatını yaratdı.

**– İş otağınızda Hüseyn Cavidin, Əli bəy Hüseynzadənin və Məhəmməd Hadinin portretləri yanaşı asılıb. Əminəm ki, ürəyinizin ən ali köşəsində də bu üç şəxsiyyətin xatirəsi, sevgisi qərar tutmaqdadır...**

– Mənim ədəbiyyatım bu üç nəfərlə başlayır…

*Söhbətləşdi:* **Taleh Mansur**



Rüstəm KAMAL

# AZƏR TURAN: MƏFKURƏNİN VƏ SÖZÜN İŞIĞI

...Bundan əvvəl də Azər Turan haqqında iki-üç xırda yazı yazmışam. Burda yazdıqlarımı təkrarlamaq niyyətim yoxdu. Arada bir geriyə baxıb, uzaqdan və yaxından tanıdığın insan haqqında qənaətləri ümumiləşdirmək lazımdır. Düşüncələrimi tezis-fraqment şəklində bölüşmək istəyirəm.

Nə gizlədim, mən öz üslubu olan, öz üslubunu tapan "stilist" müəllifləri sevirəm. Azər Turan "düşünən stilistlərdən" (B.Paskalın "düşünən şəkər qamışı" metaforasına istinad etmişəm) biridir. Onun yazı və düşüncə stili temperamentinə, poetik ovqatına və hətta səs tembrinə tam uyğun gəlir.

Azər poeziya bilicisidir. Bunu deməklə, güman edirəm ki, heç də mübaliğəyə yol vermirəm. Yazılarında və söhbətlərində poeziya tariximizin elə detallarını və faktlarını elə söyləyir ki, poetik yaddaşının və zövqünün məntiqinə heyrətlənməli olursan.

Bəlkə, ona görə də onun yazılarında nəsr və poeziya, təhkiyə ilə lirizm iç-içədir.Lirizm su kimi onun bədii esselərinə də, publisistik məqalələrinə də dərindən hopub. O, analitik təhlillərini belə lirizmlə "doyuzdurur", filoloji yazılarının strukturuna subyektiv avtobioqrafik başlanğıcın daxil olması da bu üzdəndir.Onun esselərində şeir və nəsr bir ritmik məxrəcdə (qovşaqda), bir ümumi sintaksisdə üzvi surətdə birləşir. Rus alimi B.V.Tomaşevski deyirdi ki, ritm sintaksisin spektridir. Mətnlərdə prozaik cümlələr misralar havasında olur. Onun prozaik misraları daim poetik ritm və deyim tərzi üçün darıxır, "şeir üfüqü"nə tələsir. Azərin esselərində poetik ricətlərin və ovqat düşüncələrin, duyğusal obrazların, metaforaların zənginliyi, inanın ki, fərasətli bir şairin şeiri üçün "tikinti materialı" da ola bilərdi.

Həmişə bu fikirdə olmuşam ki, o, yazılarını şair kimi yazır, şair kimi düşünür və yaşayır. Bu düşüncə ilə "Ölüm süvarisi" essesinin sonunu sərbəst şeir prinsipi ilə sıralamaq da istədim.

Qardaşım Azər məni bağışlasın, icazə almadan mətninə müdaxilə edirəm.

Göylər yenə də buludlu.
Mart həmin mart,
aprel həmin apreldir.

Şifonerdəki sahibsiz paltarlar da
papaq və qırx iki ölçülü

ayaqqabı da onunkudur...
...Vaxt buz kimi soyuyur.

Soyuduqca soyuyur.

Azərin yaddaşı keçmişə çox bağlıdır. Keçmiş isə artıq ötüb keçmiş, geridə qalmış bir zamanın adı deyil, fərdi və ya toplum yaddaşına inteqrasiya

ola biləcək bir konstruksiyadır – alman yazıçısı Bernhard Şlinki təxminən belə deyirdi.
Azərin arxivində nə varsa, yaddaşın bərpası və diriliyi üçündür, zamanlararası əlaqəni yaratmaq, keçmişi bu günə və sabaha daşımaq üçündür. Fotoqrafiya Azər Turan yaradıcılığında vacib vizual element olmaqla yanaşı, həm də mistik simvolikadır, "başqa" dünya ilə əlaqə yaratma üsuludur.

Azər Turan mənim tanıdığım nadir yazarlardan biridir ki, müdrik, el ağsaqqalı, böyük ziyalı İmamverdi Əbilovun – atasının, yaddaşını (keçmişini) özünü yaddaşına adekvat şəkildə birləşdirə bilir. Bu da ona atasının müasirlərindən, dostlarından öz müasirləri və dostları kimi rahatca danışmağı və yazmağa imkan verir.

Atasına və özünə ünvanlanmış məktublar, maqnitofon lentinə "qısılıb qalmış" (A.Turan) səslər, şəkillər ruhların (R.Rza, B.Vahabzadə, X.R.Ulutürk, X.Məmmədov və b.) maddiləşmiş obrazlarıdır.

Əslində, Azər bu üsulla onlarla, əminəm ki, mistik-spiritual prosedur keçirir, yəni ruhlarla söhbət edir.

Bu cür yazıları ancaq kədərli adam yaza bilər. İnsanların taleyini şəkillər, xatirələr, səslər vasitəsilə oxuya bilən adamın ruhu mütləq göydən "nəm çəkməlidir".

"Ölüm süvarisi" essesi sevimli, əziz dostu nakam taleyinə, Faiq İsmayılovun unudulmaz xatirəsinə həsr olunub. Faiqlə xəyali söhbətlər, Faiqin şeirləri xatirə qırıntıları, gündəlikdən qeydlər həkimlərin söylədikləri, lirik ricətlər – hamısı "historia morbi" latınca: ("ölüm tarixi") üçündür. Tarixçəsi Faiqin şeirləri ilə "süslənir". Məndən olsa, bu yazıya Moris Blanşonun "Kafka və yaradıcılıq tələbatı" essesindən bu sözləri epiqraf qoyardım: "və o öz ölümü hesabına yaşamağa məcbur idi...". "Ölüm süvarisi" essesi Azərin yalnız dərdini danışıb, "içini boşaltmaq" aktı deyildi, həm də Uca Yaradanla dialoqu idi, dua aktı idi (Emil Çoran deyirdi: "İnsan duasız yaşaya bilər, amma dua etməməsi heç vaxt – mümkünsüzdür").

Turançılıq və türkçülük Azər Turan üçün məfkurə – əqidə hadisəsidir. Hüseyn Cavid, Əlibəy Hüseynzadə, Əhmədbəy Ağaoğlu, Yusuf Akçura, Fuat Köprülü, Nital Atsız onun üçün türkçülük məfkurə babaları deyil, həm də bir millətin inanc – iman kultlarıdır.

Azər Turan üçün Turan mifoloji məkan adı deyil, sivilizasiya tipidir. O, dəyərli araşdırmaları ilə həmin sivilizasiya tipinin coğrafi-mədəni, məfkurəvi-estetik hüdudlarını müəyyənləşdirir və qəti inanır ki, bu gün ölkəmizdə çağdaş türkçülük fəlsəfəsinin təntənəsində Hüseyn Cavid, Məhəmməd Hadi, Əli bəy Hüseynzadə kimi fikir dühalarının irsinin öyrənilməsinin və təbliğinin böyük əhəmiyyəti var. Millət sevdalısı kimi artıq özü bu uzun mücadilənin içindədir. Beləcə, otuz ilə yaxındır ki, Azər Turan türk məfkurəsinin böyüklərindən yazıb oxucularını da böyüdür.

Azərin 2002-ci ilin dekabrında yazdığı və böyük musiqiçi Vaqif Mustafazadəyə həsr etdiyi "Ayın 18-i" adlı bir essesi var. Bu yığcam (səhifə yarımlıq) poetik mətn maraqlı struktura malikdir. Bu yazıda Azər poeziyanın arxaik priyomunun birindən – təkrirdən istifadə edərək, yəni bir mətnin əvvəlində və sonunda iki fotoşəkil ilə bağlı xatırlamalar verir. Həmin xatırlamalar essenin leytmotivi – nəqaratı kimi səslənir: "Qarşımda bir fotoşəkil var. XX yüzil Azərbaycan musiqi mədəniyyətinin böyük yaradıcılarından biri Vaqif Mustafazadənin anası Zivər xanımla yanaşı dayanan 21 yaşlı oğlan – mənəm.

Üstündən 18 il keçib". Yazının sonunda fotoşəkil məsələsi yenidən təkrarlanır: "Qarşımda 1984-cü ilin 27 aprelində çəkilmiş bir fotoşəkil var.

Üstündən 18 il keçib. Vaqif Mustafazadənin isə "Ayın 18-i" adlı bir əsəri vardı. 1969-cu ildə, 29 yaşındaykən, iyul ayının 18-də keçirdiyi infarktla əlaqədar özünə ithaf etdiyi "Ayın 18-i" ni Zivər xanımla qoşa dayanıb çəkdirdiyimiz şəklə baxarkən bir daha xatırladım". Beləcə, bu fotoxatırlatmalar da "18" simvolik mistik məna qazanır.

2005-ci il idi. Azər təzəcə çapdan çıxmış "İrfan çobanı" kitabını gözəl xəttilə avtoqraf yazıb mənə bağışladı: "Əzizim Rüstəm Kamal. Nə yaxşı ki, bu dünyada varsan. Sənsiz bu fikir dünyamız necə də kasıb olardı. Tanrı səni bizə çox görməsin. Böyük sevgilərlə. Azər Turan".

Qəribədir, aradan 18 il keçib. Səmimi deyirəm: bu avtoqrafa heç fikir verməmişdim. Amma bu günlərdə – qardaşım Azər Turanın yubileyi ərəfəsində onun kitablarını vərəqləyib gözdən keçirirdim və mənə elə gəldi ki, bu avtoqraf-dua onun özünə ünvanlanıb. XXI yüzilin bədii – estetik, kulturoloji, ictimai fikir dünyamızı Azər Turansız təsəvvür etmək qətiyyən olmaz.

Yenə 18 ildən sonra böyük Azər Turanı təbrik etmək arzusu ilə...



## Aydın ARSLAN

***

Mən onda qayğısız, onda şən idim.
Gölə qarğı çalan, yer eşən idim.
Özüm öz kölgəmlə güləşən idim,
Bol idi yanlışım, xətam, ay atam.

Qanmaz çocuq idim, qanı qaynayan,
Səhərdən-axşama gülən, oynayan,
Kədər tanımayan, acı duymayan,
İndi dərd önündə matam, ay atam.

Hər gələn yeni gün qəmi gətirir,
Doldurur bir yekə gəmi, gətirir,
Qalmır bir kəsiri, kəmi, gətirir,
Gətirmir naxışım, butam, ay atam.

Erkən yarpaq töküb, solmağa nə var?
Yaş olub gözümə dolmağa nə var?
Qanmazın atası olmağa nə var?
Gəl indi atam ol, atam, ay atam...

**ALLAHA MƏKTUB...**

Salam. Nigaran olma çayımdan, çörəyimdən,
Həmd olsun ki, əlini çəkmirsən kürəyimdən.
Bu gün bir şeir çıxar şəninə ürəyimdən,
Allah haqqı, sənin də xoşuna gələr, Allah.

Qəribədi insanlar, qəribədi bu bəşər,
Doğrusu, bundan sonra, çətin ki, gözəlləşər.
Bir gün ölər bu bəndən, bir gün ehsanı bişər,
Hayına gəlməyənlər aşına gələr, Allah.

Eşqindən doğulubdur bütün ülvi sevgilər,
Ağlatdığın kiriməz, güldürdüyün hey gülər.
“Ol” dediklərin oldu, “öl” dediklərin ölər,
“Qal” dediklərin Nuhun yaşına gələr, Allah.

Nə azdı oyaq olan, necə çoxdu yatanlar,
Hamısı məğlub oldu fələklə zər atanlar.
Sənin qapından ayrı qapıya üz tutanlar
Başı dəyər əhlətin daşına, gələr, Allah.

Xar olsun o bəndə ki, nemətlərini danır,
Verdiyin ruziləri özü qazandı, sanır.
Qəlbim sənin evindi, İlahi, evin yanır,
Yardıma səndən özgə boşuna gələr, Allah.

Sonda bir xahişim var, rəhm et, cavan yaşıma,
Əlinə nə qəm keçir, taleyimə daşıma.
Yoruluram, bu qədər oyun açma başıma,
Allaha acıq gedər, başına gələr, Allah...



***

Qəlbinə dağ çəkilmiş dumanlı dağlar kimi
Qaxılmışam, yerimdən min ildi tərpənmirəm.
Mən dünyanın ən böyük köçünü yaşamışam,
Nə gedən, nə gələnə daha təəcüblənmirəm.

Köçənə rəhmət deyib, ardınca ağlayanlar,
Bəs niyə sən köçəndə adəti unutdular?
"Başın sağ olsun" – deyən olmadı, azmış kimi,
Zurna-qaval gətirib başıma toy tutdular.

Mən dərdin tanıyanı, mən sərin arifiyəm,
(Zər zərgərə verilib, qədrini də o bilsin).
Günü zəhər olanın süfrəsində bal olsa,
O bal niyə sevilsin, şordan  necə seçilsin?

Yerə soxum boyumu, bir altmışı ötmədi...
Boyum yetsə, bir ömür arxanca boylanardım.
Yox, yeri yandım, dedim. İznin olsa, öləndə
Gözlərinin düşdüyü çuxurda quylanardım...

***

Qaranlıqlar başlayır ümidlər yox olanda,
Qosqoca uçurumdur ümidlərdən ötəsi.
Həyat dözülməz olur gözləntin çoxalanda,
Daralır gözlərində dünyanın xəritəsi.

Bir ömür üzmək olar, təkcə, axına qarşı,
Mütləq haqqa inanıb iman gətirə bilsən.
Hər şey səndən başlayar, zirvələr sən olarsan,
Əgər içindən "mən"i söküb bitirə bilsən.

Qocalıqda daş olub düşər bir-bir başına
Cavanlıqda önəmsiz zənn etdiyin xətalar.
Gecə "nadzor"u kimi gələr bəd əməllərin,
Yuxuna haram qatıb başına toy tutalar.

Nicat tapanlar olar nəfsini qınayanlar,
"Yox" deməyi bacarmaq əyri nəfsi düzəldir.
Hər kim təmiz saxlasa insanlıq libasını,
Deyər ona baxanlar: – Həyat necə gözəldir,
İnsan necə gözəldir!



Kənan HACI

# BUYNUZ QƏZİYYƏSİ

*uzun hekayə*

*Nizami Gəncəvinin ruhuna ehtiramla*

Səhər ayılanda hiss etdi ki, nəsə qaydasında deyil. Başında ağırlıq hiss elədi, gecəni dostlarla düt deyincə vurmuşdu, fikirləşdi ki, bircə bu arağın "paxmel"i olmayaydı. Əzgin-əzgin odeyalı üstündən atıb gərnəşdi, fikirləşdi ki, soyuq duş qəbul edib üstündən də sərin pivə içsə, başındakı bu qəribə ağırlıq da ötüb keçəcək. Başını qaldırıb güzgüdə öz əksini görüncə çarpayıdan dik atıldı; başında qoşa buynuz əmələ gəlmişdi.

Lənət şeytana! Bu nə işdi?! Üzünü şapalaqlamağa başladı ki, özünə gəlsin. "Bu nə dəhşətli yuxudur, heç cür ayıla bilmirəm. Zəhrimara qalsın, bir də bu qədər içməyəcəm. Adam adamlıqdan çıxır" – deyə fikirləşdi. Güzgüdəki tursik-maykalı adamın gözləri alma boyda olmuşdu, döyükə-döyükə təzə peyda olmuş buynuzlarına baxırdı.

"Bircə buynuz çıxarmağım qalmışdı, o da oldu!"

Bir azdan sürücüsü onu işə aparmağa gələcəkdi, görsəydi ki, müdiri buynuz çıxarıb, düdüyünü çalıb aləmə car çəkəcəkdi. Bu rüsvayçılığın qarşısını almaq mümkün olmayacaqdı. Yaxşı ki, Şirini gecə ikən taksiylə yola salmışdı, yoxsa qızın yanında xəcil olacaqdı. Onun belə gecə qonaqları çox olurdu, Şirini isə qonaq saymaq olmazdı. Adı kimi özü də şirin olan bu gözəlçə İsgəndərin həyatına da şirinlik qatmışdı, onunla keçirdiyi eyş-işrətin ləzzətini heç bir qadında tapa bilmirdi. Dəniz sahilində tikdirdiyi restoranın da adını məşuqəsinin şərəfinə "Qəsri-Şirin" adlandırmışdı.

Bəs indi necə olacaqdı? Bu buynuzlardan necə xilas olmağın yollarını düşünürdü. Soyuducunu açıb sərin çex pivəsindən hortuldatdı, yenə qayıdıb güzgünün önündə durdu. Buynuzlar yerində idi. "Əstafürullah, bu nə işdi, düşdüm? Mütləq buna bir əncam çəkmək lazımdır. Yoxsa bütün karyeram məhv olub gedər. Dişimlə-dırnağımla bu boyda biznes qurmuşam, heç rəvadırmı ki, bütün bunlar bircə buynuzun badına getsin?!" Yaxınlaşıb əlini güzgüyə sürtdü, buynuzlar silinib getmədi. Əsəbindən az qaldı ki, yumruğu ilə güzgünü çilik-çilik eləsin. Xırıldadı: "Bircə sən qalmışdın elə başıma oyun açmayasan. Yer üzündə yeddi milyard insan yaşayır, gərək elə buynuz mənim başımda çıxaydı?!"

Sonra fikirləşdi ki, əslində, güzgüyə minnətdar olmalıdır, onu böyük bir rüsvayçılıqdan xilas edib, eybini ona göstərib. Vaxtında bütün

eyiblərini ona göstərən olsaydı, indi heç buynuzları da çıxmazdı.

İşə zəng vurub katibəsinə dedi ki, bu gün gəlməyəcək, onu soruşan olsa, xəstədir, bir neçə gün olmayacaq, desin. Katibə xəttin o başında nazlandı:

– Aa, İsgəndər müəllim, olmasın azar. Nolub sizə?

– Heç, bir az təzyiqim qalxıb. Bir-iki gün dincələcəm. – İsgəndər katibəni başından eləmək istədi.

Katibə əl çəkmək bilmirdi:

– Sizə yaxşı masaj lazımdır e, vallah. Bəlkə...

İsgəndər katibənin sözünü ağzında qoydu:

– Heç nəyə ehtiyac yoxdur, dediklərimi unutma! – deyib dəstəyi asdı.

Kabinetində tək olanda katibəni çağırıb bədənini masaj etdirirdi, qızın pilə kimi yumşaq əlləri, odlu nəfəsi canına rahatlıq gətirirdi. Amma indi masaj hayında deyildi. Beynində müxtəlif variantları götür-qoy edirdi. Nə vaxtacan evdən çölə çıxmayacaq? Bu işin üstü əvvəl-axır açılacaqdı. Bədəninin harasındasa yara-xora əmələ gəlsəydi, bunu gizlətmək olardı, başını necə, harda gizlədəydi?

Aha, başı ancaq papağın içində gizlətmək olar. Bu fikir ağlına gəlincə bir az toxtadı. Bircə ölümə çarə yoxdur, qalan hər dərdin bir əlacı var. Yaxşı, bəs deməzlər ki, İsgəndər müəllim, bu papaq hardan çıxdı? Axır bu papağı başından çıxarmalı olacaqdı, ya yox? Onda necə olacaqdı? Bu, müvəqqəti çıxış yolu idi, məsələyə birdəfəlik əncam çəkmək lazım idi. Evə də gedə bilməzdi, arvad-uşaq onu bu vəziyyətdə görsəydi, aləm bir-birinə qarışacaqdı. Dilə-ağıza düşdün, vəssalam. Ağız torba deyil ki, büzəsən.

Telefonun zənginə diksindi, sürücü idi.

– Neman, bu gün lazım deyilsən. İşə çıxmayacam, qadası. – sürücünü də başından elədi.

Nemanın kefi kökəldi, "S-Class"ı yerindən tərpədib sevgilisi Şəkərə zəng vurdu. Qızın incə, ehtiraslı səsi maşının salonuna yayıldı:

– Alo...

– Alo deyən şəkər dilini yeyim sənin. Hazırlaş, səni dənizə aparacam.

– Aaa, səhər-səhər nə coşmusan, adə? Bəs işdə deyilsən? – qız təəccüblə soruşdu.

– Müdür xəstədir, işə çıxmayacaq. Mənə də dedi, get şellən özünçün. – Neman arxayın tövrlə dilləndi.

– Onda gərək mən hazırlaşım. Günorta zəngləşək, gəl məni götür, yaxşı?

– Aaz, toya-zada gedirsən bəgəm ki, hazırlaşasan? Günorta o gül bədənin günün altında yanacaq, səhər-səhər dənizin başqa kayfı var. Sən mənim canım, günortaya saxlama. Hardasan, yerini de, gəlim səni götürüm, – Neman hövsələsizcəsinə dedi.

– Ay bala, mənim bədən kremim var, narahat olma. Həm də ki günəş vannası cana xeyirdir, bədənə vitamin D lazımdır. – qız istəyirdi ki, bədəni gün görsün.

– Şəkərim, nabatım, noğulum, gəlirəm. Səni görmək istəyirəm, darıxmışam səninçün.

– Aa, mənim kupalnikim yoxdur e. Gərək evə gedib kremlərimi, şlyapamı, kupalnikimi, yay başmaqlarımı götürüm.

– Nə lazımdırsa, yolüstü alarıq, Şəkərim.

Nemanın maşını artıq Şəkərin işlədiyi idarənin yaxınlığında dayanmışdı. Şəkər jalüzü aralayıb maşını görüncə tez müdirin kabinetinə yan aldı.

– Xosrov müəllim, anamın qızdırması qalxıb, vəziyyəti yaxşı deyil. Bu günlük mənə icazə verə bilərsiniz? – deyib yazıq görkəm aldı.

Xosrov müəllim sənədlərlə məşğul idi, eynəyinin altından qızı süzüb soruşdu:

– Bəs evdən indi gəlmirsən? Nə oldu birdən-birə?

– Dünəndən halı özündə deyildi. Yaşlı adamdır da, təzyiqi də oynayır...

Xosrov müəllim armudu stəkana süzülmüş xoruzquyruğu çaydan bir qurtum alıb dedi:

– Yaxşı, get. Əvvəlcə Şapuru yanıma çağır, sonra get.

– Baş üstə, – Şəkər sevincək dabanı üstə çevrilib kabinetdən çıxdı.

Xosrov müəllim şübhəli-şübhəli qızın arxasınca baxdı və başını bulayıb yenə sənədlərlə məşğul olmağa başladı.

Şəkər daxili telefonla Şapura zəng vurub müdirin onu çağırdığını deyəndən sonra kompüteri söndürüb çantasını əlinə aldı. Dəhlizdə Nemana zəng vurdu ki, maşını idarədən bir qədər aralı saxlasın, onu maşına minən yerdə görməsinlər. Dikdaban ayaqqabıların taqqıltısı dəhlizi başına götürdü.

***

Söz uzaq düşməsin, İsgəndər başının çarəsini hələ də tapa bilmirdi. Başı o qədər əyri işlərə qarışmışdı ki, düz yolun səmtini itirmişdi. Qazandığı pullar asudəlik hissini qaytarmaqda aciz

idi. Asudə deyildi, elə bil tikan üstə oturmuşdu. Fikri papaq ətrafında fırlanırdı. Fikirləşdi ki, bəlkə, papaqçı Qulama xəbər yollasın, ona quzu dərisindən tikilmiş bir külah göndərsin. Soruşanlara deyər, ibadətə başlamışam, bir kəhraba təsbeh də tapsa, əla olar. Hələlik papaqla keçinsin, sonrası Allah kərimdir. Deyirlər, dost başa baxar, düşmən ayağa. Elə papaq tikdirəcəkdi ki, dost da, düşmən də başa baxacaqdı.

Papaqçı Qulam sifarişi alınca onu gic gülmək tutdu; bu lotu İsgəndər hara, külah hara? Əclafın nəsə fırıldağı var, indi də papaq altda gizlənir. Qır satıb qazanc edənlərdəndir zalım oğlu. Hər papaq qoyan kişi olsaydı, nə vardı... Hər kişi də başında papaq saxlaya bilmir axı.

Papaqçı Qulam bu fikirlərlə həvəssiz-həvəssiz işə başladı.

***

İsgəndərin başında küt ağrılar əmələ gəlmişdi, ağrıdan az qalırdı başını divara çırpsın. Baş ağrısı üçün dərman içsə də, fayda vermədi. Əllərini belində birləşdirib eyvan boyu gəzinməyə başladı, nəfəsi daraldı. Bu dəm yenə telefonu it kimi zingildədi. Ekrana baxdı, arvadı idi. Cavab vermək istəmədi, telefonun susmağıyla ikinci dəfə hay-həşir salmağı bir oldu. “Lənət şeytana! Əl çəkməyəcək” – deyib “yes” düyməsini basdı:

– Hə, nədi?

– Bu nə danışıqdır, İsi? Deyəsən, səni bezdirmişəm. Neçə gündür hardasan?

– Nüşabə, o gün sənə dedim axı, işlə əlaqədar rayondayam, bir-iki günə gələcəyəm. Narahat olma.

– Mən zəng eləməsəm, sənin heç yadına düşmür. Bir demirsən ki, görüm evdəki yetim ölüb, ya qalıb. – Nüşabə gileyləndi.

– Az, yetim niyə olursan? Qızın yanındadır da.

– Hardan yanımdadır? O da padruqalarıyla Nabrana dincəlməyə gedib. Üç gündür bu boyda evdə tək qalmışam, – ağlamsındı.

– Bu qız da lap ağını çıxarıb. Evdə tapılmır, gərək gələn kimi onunla ciddi söhbət edəm, – İsgəndər sözü yayındırmaq istədi.

– Sən haçan qızınla ciddi söhbət eləmisən ki? Heç xəbərin oldu ki, bu qız nə vaxt böyüdü? Kef-damaqdan başın ayılmır, qız səndən nə tərbiyə alacaq?

– Yaxşı, bəsdir görək. Yenə başlama. Nemana deyərəm, nə lazımdırsa, alıb gətirər. Mən də iki-üç günə qayıdacam.

Nüşabə heç nə deməyib telefonu qapadı.

– Kül sənin kişi başına! Allah bilir, hansı şortuynan başı qızışıb. Mənə nömrə gəlir.

İsgəndər Nüşabəyə qədər üç arvad alıb boşamışdı. Arvadlarının heç biri ona uşaq doğa bilməmişdi. Dördüncüdə bəxti gətirmişdi; Nüşabə ona iki övlad bəxş eləmişdi. İsgəndər ən çox elə Nüşabəyə xəyanət eləmişdi...

Nüşabə divanda uzanıb seriala baxırdı. Reklam fasiləsində Leylaya zəng vurdu, telefonuna zəng çatmırdı. “Ata belə, qızı belə. Hərə bir tərəfdən məni aldadır. Padruqasıynan gəzməyə gedən də o cür bəzənib-düzənər? Bu gəzintilər də qurtarmaq bilmir. Qancıq telefonunu da koda qoyub, açıb baxa bilmirəm ki, nə qələt edir. Kimlərlə yazışır, kimlərlə zəngləşir, bilmək olmur”.

Leyla evin ərköyün qızı idi, atasının pulu və tanışları hesabına universiteti bitirmişdi. Bütün günü bahalı butikləri gəzib-dolaşır, “pub”larda rəfiqələriylə əylənirdi. Gizlincə siqaret çəkir, pivə içirdi. Anası neçə dəfə onu danlasa da, qız bu qulağından alıb o biri qulağından ötürürdü. “Sən lap ağını çıxarmısan, bax atana, qardaşına deyəcəm”. Hədə-qorxu da fayda vermirdi. Leyla evdə olanda da girib tualetdə siqaret çəkirdi. Anasının üstünə çımxırırdı:

– Siz geridəqalmış, köhnə fikirli adamlarsınız. Uşaq deyiləm ki, sizə hesabat verim. Mən yetkin qızam, imkan verin, öz həyatımı yaşayım!

Anasının əli üzündə qalmışdı:

– Bərəkallah! Görürəm ki, sənin bu sərbəst həyatın bizə baha başa gələcək. Atanın eyş-işrətdən başı ayılmır, qardaşın da burda deyil ki, sənin ipini yığsın. Ananı da saymırsan, bədbəxt olanda deyərəm sənə!

Qız botoks dodaqlarını büzdü:

– Sən mənə görə narahat olma. Bədbəxt niyə oluram? Bədbəxt olsun məni istəməyənlər. Mən gəncəm, indi əylənməyib nə vaxt əylənəcəyəm?

– Ay qızım, əylənməyin də təhəri var da. Elə bilirsən həmişə atanın pulu olacaq? Sən indidən iş karyeranı qurmalısan, təhsilini artırmalısan. Sənsə qoşulmusan özün kimi səfeh, yelbeyin qızlara, o restoran sənin, bu bar mənim, avaralanırsınız. Əlindən də bir iş gəlmir. Allahın bir qayğanağını bişirə bilmirsən. Sabah səni kim alacaq? – Ana qızıyla bağlı içini didən narahatlığını beləcə dilə gətirdi.

Leyla laqeydcəsinə əlini yellədi:

– Eeeeh, ay mamaa. Nəyimə lazımdır e oxuyub başımı xarab eləyim? Oxuyanlar guya ağ

gündədirlər? Bir də ki mən ərə getməyə hazırlaşmıram. Ərə gedəndə ev xanımı olacam, qulluqçumuz olacaq. Yeməkləri də o bişirəcək.

– Yazıq sənin gələcək ərinin halına! – Nüşabə xanım başını yellədi.

Leylanın qardaşı Bəhram Londonda təhsil alırdı. Deyilənə görə, bütün günü kazinolarda gün keçirirdi. Neçə dəfə atasına xəbər göndərmişdi ki, guya onu girov götürüblər, yüz min dollar istəyirlər, yoxsa öldürəcəklər. Atası əvvəlcə inansa da, sonra düşünmüşdü ki, axı bunu orda kim tanıyır ki, girov da götürsün? Araşdırıb məsələni öyrənmişdi, amma evdəkilərə bildirməmişdi. Pulla birlikdə oğluna ismarış yollamışdı ki, bu dəfə də uduzsa, daha ondan imdad gözləməsin. "Mən burda pul kəsmirəm, kopoyoğlu! Səni ora oxumağa yollamışam, yoxsa qumar oynamağa?"

Bəhram isə atasının sel kimi axan pullarını "dumanlı Albion"da əritməklə məşğul idi. İsgəndər özü də cavanlıqda möhkəm qumarbaz olmuşdu, özünə iş qurandan sonra isə bu zərərli vərdişdən uzaqlaşmışdı. Ata gedən yolları indi oğlu qarış-qarış gəzirdi. Oğul ataya keçmişini unutmağa imkan vermirdi. Tale əlini qana batırmadan atadan keçmişin və bu günün qisasını alırdı. İndi də bu buynuz məsələsi...

Müftə yeyib-içməkdən göz dimdikləməyə hazır olan dəyirman xoruzuna dönmüş İsgəndərin indi qanı üzündən çəkilmişdi. Əsəbi saatlı bomba kimi idi, hirsini kiminsə üstünə tökmək istəyirdi, tərslikdən bu vəziyyətdə adam arasına çıxa bilmirdi. Leyla eşitsə idi ki, atası buynuz çıxarıb, rəfiqələrinin, sevgilisinin yanında rüsvay olacaqdı. Arvadı xəcalətdən evdən çölə çıxa bilməyəcəkdi. Oğlunun qumardan başı ayılsa, bəlkə, azacıq təəccüblənəcəkdi. Hələ Şirin bilsə...

"Aman, Allah! Məni hoydu-hoyduya götürəcəklər, hamı barmaqla göstərəcək. Bəlkə, bir cərrah tapım, bu buynuzları kəssin, canım qurtarsın?!"

Ölkənin tanınmış cərrahlarından olan Fərhad doktorla yaxın münasibətləri vardı. Telefon nömrəsini tapıb ona zəng etdi.

– Qardaş, elə bil ölmüşəm, məni yerdən götür.

– İsgəndər müəllim, Allah eləməsin. Nə ölmək? Nə olub sizə? Nə lazımdırsa, qulluğunuzda hazıram. – Fərhad doktorun isti, səmimi sözləri İsgəndərə azacıq təsəlli verdi.

– Təcili görüşməliyik. Amma mənim evdən çıxmaq imkanım yoxdur. Sürücüyə deyim, gəlib səni gətirsin bağa.

Fərhad doktor bu tələsik təklifdən duruxub qaldı.

– İsgəndər müəllim, günortaya qədər səbir edə bilərsiniz? Saat 2-yə qədər xəstə qəbul edirəm. 2-dən sonra sizin qulluğunuzdayam.

– Hə, olar, iki tamamda sürücü sizi klinikanın qarşısında gözləyəcək.

Fikirləşdi ki, başının çarəsi ancaq bu iki nəfərin əlindədir: papaqçı Qulamda və Fərhad doktorda. Dəllək Bəxşeyiş bu siyahıya düşmədi. Çünki onun ülgücü İsgəndərin buynuzlarını kəsməkdə aciz idi. Yoxsa ona da deyərdi ki, ülgücünü itilə, tüpür dabanına. Dəllək Bəxşeyiş yeganə adam idi ki, İsgəndərlə açıq zarafat edə bilirdi, bu ixtiyarı ona İsgəndər özü vermişdi. Bir dəfə İsgəndər dedi ki, maşında bir şüşə zoğal arağım var. Dəllək Bəxşeyişin ağzının suyu axdı:

– İsi, onsuz da verən deyilsən, heç olmasa demə də. Göstərib verməyənlər kimi umsundurma da bizi.

İsgəndər dedi:

– Peşkəşdi, aç baqajı, götür.

Dəllək Bəxşeyiş arağı aparıb evdə içmişdi, görmüşdü ki, araq buna kar eləmir. Çıxmışdı evdən, dəlləkxanaya gələndə ayaqları bir-birinə dolaşmışdı, yer ayağının altından qaçmışdı. Kənd cayılları qoluna girib birtəhər evə gətirmişdilər. İsgəndər növbəti dəfə üzünü qırxdırmağa gələndə dəllək Bəxşeyiş elə qapının ağzındaca arağın tərifini vermişdi:

– Ay İsi, sənin arağın da çoban iti kimidir, evdə dəymir, çöldə tutur.

İsgəndər şaqqanaq çəkib əlini əlinə vurmuşdu:

– Can ay Bəxşeyiş! Səni bax buna görə çox istəyirəm də.

Eşmə bığları onu Budyonnıya bənzədirdi. Güləndə elə bil çal bığları da sevinirdi. Bu adı da ona ilk dəfə İsgəndər vermişdi:

– Bəxşeyiş, toçnı Budyonnıya oxşayırsan, bircə paqonların çatışmır.

Dəllək güzgüdə özünə baxıb üzünün həlim, mehriban ifadəsini bir anda dəyişdi, bığlarına uyğun amiranə forma aldı. Güzgünün kənarındakı ağ-qara fotoşəkildən ona Stalin baxırdı. "Budyonnı" bu zəhmli baxışlar altında büzüşdü, bir anlıq özünü rəhbərin hüzurunda hiss elədi. İsgəndəri qəfil gülmək tutdu.

– Alə, bizə ikinci Budyonnı lazım döyül e. Qoy oturmuşuq oturduğumuz yerdə.

Stalin əməlli-başlı "qəzəblənmişdi". Baxışları "bu axmaq zarafatı yığışdırın, yoxsa ikinizi də gedər-gəlməzə yollayaram!" – deyirdi.

Dəllək Bəxşeyiş itoynadanın biri idi, İsgəndərin buynuzlarını görsəydi, ona şəbədə qoşub aləm içində rüsvay eləyəcəkdi. Onda gərək İsgəndər bu şəhərdən biryolluq köçüb gedəydi. Bir anlıq ona elə gəldi ki, məhəllə uşaqları ardınca düşüb qışqırışırlar:

– İsgəndərin buynuzu var! İsgəndərin buynuzu var!...

***

Şəkər çətirin altında qoyulmuş şizlonqda uzanıb bədəninə yağ sürtürdü. Gözünə gün eynəyi taxmışdı ki, onu tanımasınlar. Neman arada əyilib onun göbəyindən öpürdü. Qız da xumarlanırdı. Bu dəm Nemanın telefonu cingildədi. Neman narazı-narazı telefona tərəf boylandı. Ekranda "müdir" yazılmışdı. Vaxtında telefonu söndürmədiyi üçün özünü söydü. Candərdi telefonu açdı.

– Neman, hardasan? – İsgəndərin xırıltılı səsi eşidildi.

– Müdir, şəhərdən qıraqdayam e. Dənizə gəlmişəm. – Neman belə dedi ki, müdir ondan əl çəksin.

– Sən günorta ikiyə özünü çatdır bizim klinikaya. Fərhad doktoru gətir bağa.

Neman əməlli-başlı dilxor oldu. Kefinin ala buludda olan vaxtı elə bil onu yerə çırpdılar.

– Dur geyin, gedirik, – qıza dedi.

Şəkər incik halda başını qaldırdı:

– Aaa, noldu? İndi gəlmişik ki?

– Müdir çağırır da, neyləyim? Zındıq oğlu səhər mənə deyir ki, bu gün sərbəstsən, indi də iş tapşırır.

Şəkər burnunu salladı:

– Axı mən də işdən icazə almışam. Elə buna görə gəldik? Eeh, Neman! Zəng vur de ki, gələ bilmirəm.

– Nə danışırsan? Elə şey olar? Onu istəyirsən ki, atsın məni bayıra? Mən nə biləydim ki, belə olacaq? – Neman pərt halda əynini geyinməyə başladı.

Yol boyu dinib-danışmadılar. Şəkər maşından düşəndə də incikliyini qapını çırpmaqla bildirdi. Neman əsəbindən yumruğunu sükana çırpdı. Maşın qamçı yemiş at kimi qəfil yerindən götürüldü...

***

Deyirlər, hər sirrin dəyəri o sirri gizlətdiyin adamın dəyəri qədərdir. İsgəndərin sirrinin isə qara qəpik qədər dəyəri yox idi. Bu sirr elə dəyərsizliyi ilə İsgəndəri məhv edirdi. Başına dəsmal bağlayıb kresloya çökmüşdü, siqareti siqaretə calamışdı. Tez-tez telefonuna baxıb Fərhad doktorun yolunu gözləyirdi. Doktor kaşılar döşənmiş dəhlizdə görünəndə İsgəndərin ölgün gözləri canlandı.

– Ay kişi, gəl çıx də! Səni gözləməkdən gözümün kökü ot bitirdi.

Ayağa qalxıb doktoru qarşıladı. Divanda əyləşdilər. Fərhad doktor İsgəndərin sarıqlı başına baxıb dedi:

– İsgəndər müəllim, siz hara, xəstəlik hara? Bu hal sizə heç yaraşmır. Açın başınızdan dəsmalı.

İsgəndər bir anlıq özünü itirdi, sonra toparlanıb doktora bir az da yaxın əyləşdi və astadan danışmağa başladı:

– Doktor, dəsmalı açsam, qorxacaqsan. Yer üzündə heç kəsin başına gəlməyən iş mənim başıma gəlib, daha doğrusu, mənim başımda bitib.

Fərhad doktor heç nə başa düşmədi, mat-mat İsgəndərin üzünə baxdı.

– Necə yəni? Başa düşmədim...

İsgəndər ayağa qalxıb başındakı dəsmalı açdı. Fərhad doktor gördüyü mənzərədən heyrətə gəldi. Adamın başında buynuzlar bitmişdi. İş karyerasında ilk dəfə idi ki, belə bir xəstəyə rast gəlirdi. Bilmədi nə desin.

– Bu nədi, İsgəndər müəllim? – Doktorun gözləri az qala hədəqəsindən çıxmışdı. – Bu nə buynuzdu belə?!

– Əşi, buynuzdu da. Buynuz görməmisən? – İsgəndər tövrünü pozmadan dedi. – Səni də elə buna görə çağırmışam da. Nə qədər biabır olmamışam, bunlara bir əncam çəkmək lazımdır. Haqqı nədirsə, verəcəyəm. Təki sən bir əlac elə.

Fərhad doktor gördüyü mənzərədən şoka düşmüşdü, tibb elmində bu vəziyyətin heç bir izahı yox idi. İzahı olmayan bu əlamət haqda nə deyə bilərdi?

– İsgəndər müəllim, sizin xəstəliyiniz tibbdə nadir, deyərdim ki, görünməmiş haldır. Mən birinci dəfədir ki, buynuz çıxaran adam görürəm. Heç bilmirəm nə deyim... Əvvəlcə başın və kəllə strukturlarının müayinəsinə ehtiyac var. Başınızı tomoqrafiya etdirmək və buynuzun çıxma səbəblərini müəyyən etmək lazımdır.

İsgəndər hövsələsizliklə doktorun sözünü kəsdi:

– Neyləyirsən elə, sən canın, öz aramızda qalsın. Bir kimsə bilməsin.

– İsgəndər müəllim, bunu necə gizli saxlamaq olar? Axı siz klinikaya gəlməlisiniz, analizlər verməli, müayinədən keçməlisiniz. Orda başınızı görəcəklər.

– Doktor, gizlicə əməliyyat edib bu buynuzları götürə bilməzsiniz? – İsgəndər inad elədi.

– Əməliyyatdan əvvəl müayinələrin nəticələri ilə tanış olmaq lazımdır. Başla zarafat etmək olmaz, İsgəndər müəllim. Üzr istəyirəm, siz qoç deyilsiniz ki, buynuzlarınızı qıraq.

İsgəndər yazıqlaşdı, çarəsiz halda doktorun üzünə baxa-baxa qaldı.

– Mən biabır olacam, doktor.

Fərhad doktor ona təsəlli verməyə çalışdı:

– Fikir eləməyin, mən bu barədə həkimlərimizlə danışaram, görək, ümumiyyətlə, dünya tibb elmində belə bir hal baş veribmi? Xaricdə də həkim dostlarım var, onlarla da məsləhətləşərəm, görək nə deyirlər. Hələlik siz evdən çıxmayın, səbirli olun.

İsgəndər Fərhad doktoru yola salıb dərin düşüncələrə daldı. “Demək, ümid qalır papaqçı Qulama”.

***

Pəncərənin pərdəsini aralayıb həyətə boylandı. Həyətin böyründən nəhəng çay axırdı. Çayın o biri üzü meşəlik idi, pəncərəni açdı. Havadan rütubət yağırdı. Sanki bütün gecəni yağış yağmışdı. Çayın üzərindən körpü keçirdi, uzaqda isə teleqüllə səmaya doğru uzanırdı. Çevrilib evdəki mənzərəni gözdən keçirdi. Otaqda hər şey öz yerində idi, çöldə isə başqa mənzərə vardı. Körpünün aşağısında kimsə var-gəl edirdi, diqqətlə baxanda bu adamın Neman olduğunu ayırd edə bildi.

– Neman! Orda nə gəzirsən? Tez gəl bura görüm. Bura haradır? – Ucadan sürücünü səslədi.

Neman siqaret kötüyünü yerə atıb dabanıyla əzdi və İsgəndərin pəncərəsinə yaxınlaşdı:

– Müdir, gecəni necə yatmısan? Maşallah, gümrah görünürsən.

– Deyirəm bura haradır?

– Baa, müdir, deyəsən, hələ yuxudan ayılmamısan. Bura Uçanq şəhəridir, bu da Yansızı çayıdır. Biz də çayın sahilindəki oteldə qalırıq.

İsgəndər yaddaşını qurdalasa da, bura nə vaxt, necə gəldiklərini xatırlaya bilmədi. Qolundakı isveç istehsalı olan saata baxdı, zaman dünənin davamı kimi axırdı. Biləyinə sarınıb hər yerə onunla birlikdə gedən bu qiymətli əşya kiçik bir dəqiqəyonan idi, həmişə onu harasa tələsdirirdi. Bu dəfə isə sanki heç yerə tələsmirdi. Qarşısında başqa bir zaman açılmışdı; ağaclar yarpaqlarını ətrafa səpələyir, qayıqlar yarışa hazırlaşırdı. Zaman yelpik kimi özü özüylə dolaraq axıb gedir, ondan təmiz hava, gecələr qurudan dənizə əsən sərin küləklər, bir qadın kölgəsi və çörək ətri tumurcuqlanırdı...

“Hə, İsgəndər, imkan ver ki, saat sərbəst işləsin. Onsuz da hamımız vaxta qandallanmışıq. Qorxunun əcələ faydası yoxdur, qorxu saatın əqrəblərini pasladacaq, ötüb keçən və unudulan hər şey onun damarlarını çürüdəcək və saatın üzərinə düzülmüş yaqut qaşların qanını donduracaq”.

O isə özünü evin bir küncünə atılmış lazımsız əşya kimi hiss edirdi. Bu ölü günlərin yükündən xilas olmaq istəyirdi. Lənətə gəlmiş buynuzlar imkan vermirdi. Evin divarlarına sığınmış soyuq günəş şüasının durğun gölməçəsində kiçik bir ümid vurnuxmaqda idi; bu sısqa ümid İsgəndərin başındakı buynuzlarla mübarizə aparırdı.

Əllərini ehtiyatla başına apardı, buynuzlar cağbacağ yerində idi. Birdən baxdı ki, Nemanın da başında buynuzları var. Qəşş edib özündən getdi:

– Alə, sən də mənim günümə düşmüsən ki. Kitaylar bizi görüb deyəcək ki, bu iribuynuzlular bura hardan gəlib çıxıb?

Neman arsız-arsız güldü:

– Müdir, elə kitayların zibilinə düşmüşük də.

Marağı yay kimi tarıma çəkildi:

– Necə yəni? Kitayların bu işlə nə əlaqəsi?

Neman əlini yellədi:

– Ay-hay! Sənin dünyadan xəbərin yoxdur. Səhərdən şəhərdə gəzib-dolaşıram. Adamların çoxu buynuz çıxarıb. Deyirlər, infeksiya yayılıb, kim yoluxursa, kəlləsində buynuzları çıxır.

İsgəndər bir az sevinəntəhər oldu:

– Yox əşi! Bəs belə deginən. Mən də elə bilirəm buynuz çıxaran elə tək mənəm. Onda çıxıb şəhərdə sərbəst gəzə bilərəm ki. Onsuz da hamı buynuz çıxarıb. Heç kim mənə gülməyəcək.

Neman onu arxayın elədi:

– Rəhmətliyin oğlu, kimdir sənə fikir verən? Sən bura işlərini yoluna qoymaq üçün gəlmisən, evdə oturub pəncərədən təbiəti seyr etmək üçün gəlməmisən ki.

Yansızı çayının sahilində gəzişirdilər. Hər ikisi idman geyimində idi, maraqla adamları seyr

edirdilər, qadınlı-kişili çoxu buynuz çıxarmışdı. İsgəndəri gülmək tutdu:

– Zalım uşağı, bütün günü ilan-qurbağa yeyəndə adam buynuz da çıxarar, o yana da keçər.

– Müdir, bunlar ancaq həşəratlarla qidalanmırlar ki. Çox dadlı yeməkləri olur. Bunların da düşbərəsi olur, amma Bakı düşbərəsinə çatmaz. Çin mətbəxi dünyada ən zəngin mətbəxdir. – Neman çoxbilmiş kimi danışdı.

– Alə, mən biznesmen adamam, bunların ən bahalı restoranlarında yeyib-içmişəm. Bütün günü düyü yeyirlər də. Xiyarı da pörtdədib gətirib qoyurlar süfrəyə, yemək olmur. Bir dəfə hansısa kafedə ördək sousu yedim, sancılandım. Hər dəfə bura gələndə qarınağrısına düşürəm. – İsgəndər üz-gözünü turşutdu.

– Gələndə özünlə Bakıdan küftə-bozbaş gətir, müdir, – Neman zarafatla dedi.

Uçanq bazarına çatdılar, burda iynə atsaydın, yerə düşməzdi. Bazar buynuzlu-buynuzsuz adamlarla dolu idi. Bura nəhəng qəssabxananı xatırladırdı, qənarələrdən asılmış müxtəlif heyvan cəmdəkləri ətrafa dözülməz qoxu yayırdı. Müxtəlif ölçülü qəfəslərdə canlı qurbağa, tısbağa, ilan görmək olardı. Bu heyvanlar müştərinin istəyinə uyğun kəsilib doğranır, ordaca bişirilib hazır halda paketlənirdi və satılırdı. Digər qəfəslərdə köpəklər, meymunlar, ekzotik heyvanlar gözə dəyirdi.

– Leş Tohidin yeri məlum, – Neman yenə zarafatından qalmadı.

İsgəndər sürücüsünün qolundan tutub öyüməyə başladı:

– Alə, tez çıxaq burdan, ürəyim qalxdı.

Yarasa satan eybəcər qadının piştaxtası önündə qələbəlik idi. Donqar belli qadın özü də yarasaya oxşayırdı, ağzını açanda iki dişi görünürdü, burnunu sanki plastilində sifətinə yapışdırmışdılar, nəfəs alıb verdikcə əprimiş bığları titrəşirdi, tum gözləri dünyanın bəd əməllərindən xəbər verirdi. Bu eybəcər məxluq İsgəndəri görən kimi anlaşılmaz sözlər deyib vağıldamağa başladı və sonra vahiməli gülüşü ilə əlindəki yarasalardan birini zorla İsgəndərin ağzına dürtdü. İsgəndərin çığırtısı bazarı başına götürdü.

...Evdə kimsə bağırırdı, səsə it oyandı və tənbəl-tənbəl yuvasından çıxıb kal səslə hürməyə başladı.

İsgəndər son vaxtlar tez-tez belə əcaib yuxular görür, qan-tər içində ayılırdı. Köpək belə bağırtılara öyrəncəli idi.

***

Səhəri gün işdən mühasib zəng vurub bildirdi ki, Çin firmasıyla bağlı müqavilələrdə problem yaranıb, təcili Çinə uçmaq lazımdır. Axşam gördüyü yuxunu xatırladı, canından üşütmə keçdi.

– Bütün sənədləri mənim elektron ünvanıma yollayın, evdə kompüterdə baxım. Müavinimi yollayaram, gedib görsün nə məsələdir.

– Özünüz getməlisiniz, İsgəndər müəllim, – mühasib qısaca cavab verdi. –Müqavilələri siz imzalamısınız.

Ürəyində “lənət şeytana” desə də, mühasibə: – yaxşı, – dedi.

Papaqçı Qulama zəng vurub dedi ki, papaq sabaha hazır olsun.

– Ay İsgəndər müəllim, bir günə papaq tikmək olar? Vallah, çatdıra bilməcəyəm. – Papaqçı Qulam gileyləndi.

– Bütün işlərini qoy kənara, bununla məşğul ol. Xəcalətindən üçqat çıxacam.

Papaqçı Qulam bilirdi ki, İsgəndər xəsis adamdır. Bir dəfə Əlibəndə adlı bir kasıb kişi İsgəndərin qarşısını kəsib ondan pul istəyir.

– İsgəndər kişi, bizə bir az cibxərcliyi ver, könlümüzə yeyib-içmək düşüb.

İsgəndər tövrünü pozmadan deyir:

– Rəhmətliyin oğlu, özüm adam axtarıram ki, mənə qonaqlıq versin. Ay Əlibəndə, sən elə şey istəyirsən ki, nə səndə var, nə məndə.

Əlibəndə İsgəndərin şişman qarnına, qan daman yanaqlarına baxıb udqunur. Ürəyində fikirləşir ki, darıxma, haram yediklərin bir gün burnundan gələcək.

Papaqçı Qulam bütün bunları bilirdi, fikirləşdi ki, üçqat yox, elə materialın pulunu versin, qalanı başına dəysin.

Bu dəm papaqçının oğlu Seyfəl canhövlü içəri girdi, əlindəki telefonda gördükləri uşağı heyrətə gətirmişdi.

– Papa! Ay paa...

– Nədi, köpəyoğlu? Yenə pulçün üstümə gəlmisən? Pulum-zadım yoxdur. Get özüvə iş tap, pul qazan. Eşşək boyda olmusan, nə vaxtacan atanın əlinə baxacaqsan? Sənin taylarının əli pulnan oynayır.

– Papa, yox ee. Pul istəmirəm e. İnternetdə yazıblar ki, Çində bir virus yayılıb, kim ki, yoluxur, buynuz çıxarır. Bude, şəkilləri də sayta qoyublar, – Seyfəl telefondakı görüntüləri atasına göstərdi.

Papaqçı Qulam buynuz çıxarmış adamların şəkillərini görəndə qəşş edib özündən getdi.

– Adə, bəs bunların quyruğu hanı? Rəhmətlik Darvin bu günləri görmədi, görsəydi, görəsən, buna nə deyərdi?

– Darbi kimdir, papa? – Seyfəl təəccüblə atasının üzünə baxdı.

– Darbi yox, adə, yox bir barbi. Darvin. Məktəb oxumusan ki, biləsən? İki eşşəyin arpasını tən bölə bilmirsən. Nolucey sənün axırun? Ay tupoy, Darvin böyük alim olub, o deyirdi ki, insan meymundan əmələ gəlib. Yəni biz şimpanzelərlə qohum olmuşuq...

– Bəs meymun nədən əmələ gəlib? – Seyfəl atasının sözünü kəsdi. – Mənim meymunlarla qohumluğum-zadım yoxdur. Darbindi, nədi, o özü də elə tupoyun biri olub. Meymun meymundur, adam adam.

– Adə, misalçün deyirəm də. Darvin bu buynuzlu adamları görsəydi, nə deyərdi?

– Deyərdi ki, indi də nabarot, adamlar heyvana çevrilir, – Seyfəl hırıldadı.

Papaqçı Qulam maddım-maddım oğluna baxıb dedi:

– Yoo, başın pis işləmir, heyif, içi boşdur. Vaxtında oxusaydın, indi sən də adam olub adamlara qoşulardın.

– Ay papa, elə oxuyanlardı da dünyanı bu günə qoyanlar. Yəqin ki, bu virusu da alimlər düzəldiblər ki, adamlar adamlıqdan çıxsınlar, vəhşiləşsinlər, bir-birlərinin ətini yesinlər. – Seyfəl başının boş olmadığını atasına sübut etmək üçün öz mülahizəsini dilə gətirdi.

– Eh, ay bala, adamlar onsuz da çoxdan adamlıqdan çıxıb. Acgözlük, tamahkarlıq adamları fəlakətə sürükləyir. Hamı nəfsinin quludur, var-dövlət üstündə oğul atanı öldürür, qardaş qardaşın qanına susayır. O deyirsən e, adamlar buynuz çıxarıb, bunlar hamısı qiyamətin əlamətləridir. Dəccal gələndə qiyamət qopacaq.

– Dəccal kimdir? – Seyfəl növbəti dəfə savadsızlığını nümayiş etdirdi.

– Atamın bibisi oğlu, – atası Seyfəllə məzələndi.

– Bəs mən nöşün tanımıram? – Seyfəl gözlərini döydü.

– Adə, deyəndə ki tupoysan, acığuva gəlir. Dəccalın zühur etməsi axırzamanın əlamətlərindən biridir. Dəccal Allahlıq iddiasına düşmüş şeytandır. Telefon bütün günü əlindədir, aç oxu də. Gərək hər şeyi mən sənə deyim?

Seyfəl atasından beş-üç manat qoparıb gedəndən sonra Papaqçı Qulamı fikir götürdü. "Allah eləməmiş, bu virus buralara da gəlib çıxsa, onda nolacaq? Bircə elə buynuzumuz çatmırdı", – deyə qulaqlarını çəkdi.

Papaqçı Qulam bir də onu fikirləşdi ki, İsgəndərin papaq sifariş verməyi heç də xeyirli əlamət deyil. O, İsgəndəri tanıyandan onun başında nəinki papaq, heç kepka da görməmişdi. Dindən yeddi ağac uzaq adamın birdən-birə ibadətə başlaması heç inandırıcı deyildi. Bu işin içində bir əmma var, - deyə düşündü.

***

Məhin xanım hovuzun kənarındakı həsir kresloda əyləşib qırmızı şərabdan qurtumlaya-qurtumlaya dərin düşüncələrə dalmışdı.

Bir neçə gün bundan əvvəl bazarda qəfil yanğın baş vermişdi və neçə hektar yer yanıb külə dönmüşdü. Obyektləri və malları yanmış sahibkarlar kompensasiya tələb edirdilər. Məhin xanım mühafizəçilərin əhatəsində sahibkarların və jurnalistlərin əlindən qurtulub özünü zorla maşınına çatdıra bilmişdi. Bütün kameralar ona doğru tuşlanmışdı. Maşının qara şüşələri onu kütlədən ayıranda dərindən nəfəs aldı. Sürücüyə bağa sürməyi tapşırdı. Yol boyu telefonları susmurdu. Jurnalistlər də bir yandan onu bezdirmişdi. Bazarda yanğın hansı səbəblərdən baş verib? Sahibkarlara təzminat veriləcəkmi?

Tanımadığı nömrələrdən zənglər gəlirdi, heç birinə cavab vermirdi. Bu məqamda onu xilas edəcək bir adam axtarırdı, beynindən sürətlə dostlar, tanışlar gəlib keçirdi. Güvənə biləcəyi adam isə çox az idi. Anidən Xosrov yadına düşdü, onun əli hər yerə çatır, özü də etibarlı adamdır, – deyə düşündü. Telefonda onun nömrəsini axtardı.

Xosrov elə yaşayırdı ki, sanki heç vaxt ölməyəcək. Onun ölüm haqqında düşünməyə vaxtı yox idi, beynində maşın sürətiylə o yan-bu yana şütüyən fikirlərin içində ölümün izi-tozu belə yox idi. Ümid, arzu kasıbların yavanlığıdır, – deyirdi. O, arzularla həmişə futbol topu kimi oynayıb. Kasıbın arzusu kreditə də olsa, maşın, bahalı telefon almaq, qışda su keçirməyən ayaqqabı almaqdırsa, Xosrovun ən böyük arzusu Məhinə sahib çıxmaq idi. Şair demiş, arzuya bax, sevgilim!.. Arzu ki pul gördü, daim qulluğunda müntəzirdir. Min belinə, çap! Amma elə arzular var ki, sifariş qəbul etmir, bilir ki, onun gücü çatası iş deyil...

O, Şapurun fotoatelyesində cazibədar bir qadın şəkli görmüşdü və bu qadına bir könüldən

min könülə aşiq olmuşdu. Şapurdan soruşmuşdu ki, kimdir bu qadın? Şapur da Məhin haqqında bildiklərini danışmışdı. Xosrov qadınla tanış olmaq üçün planlar qurub istəyinə nail olmuşdu... Əyin-baş almaq məqsədilə Məhinin müdiri olduğu ticarət mərkəzinə gəlmişdi və beləcə tanış olmuşdular. Məhin Xosrovun bank müdiri olduğunu biləndə onunla dostluq münasibətlərinə razılıq vermişdi. Düşünmüşdü ki, bu adam nə vaxtsa ona lazım ola bilər...

Xosrov Məhinin zəngini görəndə çiçəyi çırtladı. Çoxdandı görüşmürdülər. "Görüşmürdülər" deyəndə başqa şey ağlınıza gəlməsin, iş görüşmələrindən söhbət gedir. Məhin Xosrovun gizli niyyətini duysa da, özünü o yerə qoymurdu və həmişə onunla məsafə saxlayırdı. Dəfələrlə Xosrovun restoran, qonaqlıq təkliflərini geri çevirmişdi. Gilgilə gözlərində sayrışan şəhvət hissi Məhinin nəzərindən yayınmamışdı. Məhinin mütənasib bədən quruluşu Xosrovu həmişə həvəsə gətirirdi, hisslərini nə qədər cilovlasa da, gözləri onu ələ verirdi. Məhin bu qımıltılara biganə idi və hədəfdən ustalıqla yayınırdı. İş müstəvisində isə dostluqları davam edirdi.

– Bazarda yanğın baş verib... – Məhin salam-kalamdan sonra tələsik xəbər verdi.

– Nə danışırsan? – Xosrov kreslodan dik atıldı. – Nə vaxt? Yanğınsöndürənlər ordadır?

– Söndürüblər, – Məhin sakitcə cavab verdi. – Di gəl, qalmışam bu alverçilərin əlində. Malları yanıb külə dönüb. Kompensasiya ödəmək lazımdır. Hər yerdən tökülüb gəliblər e. Yanğının səbəblərini araşdırırlar.

– Səbəb? Məhin xanım, gəl görüşək, mən sənə səbəbləri açıqlayım. Güman edirəm ki, o qədər də sadəlövh deyilsən... – Xosrov özünü çoxbilmiş kimi göstərdi.

Şəhərkənarı restoranlardan birində görüşdülər və söhbət xeyli uzun çəkdi... Tünd ətir qoxusu və Məhinin dekolte geyimin içində buğlanan ağappaq, dolu döşləri Xosrovu bihuş etmişdi. Xosrov sevinirdi ki, Məhinin ona işi düşüb, özünü canıyanan kimi göstərib qadının rəğbətini qazanmağa çalışırdı. Bu əcaib sevinc hissi açıq-aşkar üzündən oxunurdu.

– Məhin, səndən sonra bir neçə yaxın dosta zəng vurdum, maraqlandılar. Desəm, bəlkə də, təəccüblənəcəksən, ya da güləcəksən. Sənin bazarında bir neçə gün əvvəl buynuz taxmış bir adam dolaşırmış.

Məhin səhv eşitdiyini güman etdi:

– Nə taxmış? – azca Xosrova doğru əyilərək soruşdu.

– Buynuz! – Xosrov özünü saxlaya bilməyib qəhqəhə çəkdi və Məhinin sərt baxışlarını görəndə özünü yığışdırdı. – Vallah, gülməlidir e. Deyirlər, buynuzlu adam görüblər bazarda. Tez də uzaqlaşıb, yoxa çıxıb. Adam kameralara da düşməyib, çox maraqlıdır.

– Bunu sən hardan bilirsən? Bu nə deməkdir? Bəlkə, kimsə oyuncaq buynuz taxıb kiminləsə məzələnirmiş? – Məhin soruşdu.

– Müəmmalı məsələdir. Bəlkə də, bu buynuzlu adamın yanğınla bir əlaqəsi var, – Xosrov düşüncəyə daldı.

Məhini də gic gülmək tutdu:

– Ay Xosrov, buynuzlu adam hardan çıxdı? Bazarı yandıran adam buynuz niyə taxsın ki? Sən Allah, bunu sənə kim deyib?

– Nə dəxli var, kim deyib? Buynuzlu adamın müəmmalı şəkildə yoxa çıxması şübhələrə əsas vermir? – Xosrov kresloya yayxandı, "Parlament" qutusundan bir siqaret çıxarıb alışdırdı və dərindən qullab vurub tüstünü tavana üfürdü.

– Elə buynuzlu adamla iş bitir? Min dənə versiya ola bilər. O qədər meymunluq edən gicbəsərlər var ki. Bazarda hər cür adam olur. Mən istəyirəm sizin bankdan pul götürüm. Bu barədə mənə köməklik edə bilərsənmi? – Məhin mətləbin üstünə gəldi.

– Mən sənin yanındayam, narahat olma. Pul məsələsini də həll edərik. – Xosrovun içindəki şeytan sevincdən şıllaq atmağa başladı.

Məhin ovcunun içində idi, indi onu əldə etmək çox asan idi.

***

Həqiqət çox vaxt qaranlıqda gizlənir. İsgəndər günün uzunluğundan şikayət edə-edə otaqda var-gəl edir, arada qədəhə süzdüyü viskidən içirdi. Qəfildən çox-çox illər bundan öncə dəniz kənarında rastlaşdığı qoca kişini xatırladı. Qoca dənizin sahilində gəzə-gəzə balıqqulağı yığırdı. Yaxınlaşıb ondan soruşdu ki, bu balıqqulağı sənin nəyinə lazımdır? Qoca başını qaldırıb bulanıq gözləriylə qarşısındakı bazburutlu adamı süzdü və narazı tövrlə dilləndi:

– Dənizlə həsb-hal edirəm, mənə mane olma!

Dəniz qocanın qulağına nəsə pıçıldayırdı. Qocayla yanaşı addımlamağa başladı. Xeyli müddət getdilər. Birdən qoca ayaq saxlayıb İsgəndərə tərəf çevrildi:

Sən dünyagir adamsan, fənafillahı bilməzsən, – dedi.

İsgəndər onun dediklərindən bir şey anlamadı. Maddım-maddım qocanın üzünə baxdı. Qoca gülümsədi, onun təbəssümü sanki dünya ilə yaşıd idi.

– Uzun ömür yaşamaq istəyirsən. Bu qəmxanədə xoşbəxtlik sarayı ucaltmaq hələ bir insan oğluna nəsib olmayıb. “Səyyadi-əcəl gəlsə, macal eyləmək olmaz”. Amma zülmət bir diyarda dirilik suyu var, bu, bir əfsanə deyil, həqiqətdir, oğul.

– Haradır ora, qoca? – İsgəndər tələsik soruşdu.

– Tələsmə. Səhər müşkin ipək kimi göy üzünə səriləndə yola çıxarsan. Yadında saxla, getdiyin yer zülmətdir, özünlə bolluca işıq apararsan. Yoxsa zülmət səni udacaq. İşıq bu səfərdə sənə bələdçi olacaq, iri bir daşın göbəyindən axan gümüşü çeşmə görəcəksən, bax dirilik suyu odur.

Qoca ravi sözlərini tamamlayar-tamamlamaz əynindəki köhnə-külüş paltarları soyunub sahilə atdı və tunc bədənini dalğaların ixtiyarına verdi. İsgəndər ağzını açmağa macal tapmadı. Dalğa qocanı hopp eləyib uddu. Qumun üstündə heç bir ayaq izi yox idi. Elə bil bu yerdən bəni-insan keçməmişdi...

İsgəndər birdən xatırladı ki, axı qoca o yerin adını demədi...



***

İki gündən sonra, nəhayət, papaq gəlib çıxdı. İsgəndər quzu dərisindən tikilmiş papağı başına qoyub güzgünün önünə keçdi. Papaq başına ağırlıq elədi. Özü də anladı ki, bu papaq bu baş üçün deyil, amma məcbur idi, başqa çarəsi yox idi. Səhər Çinə uçmalı idi.

Neman İsgəndərin başındakı külahı görəndə onu gic gülmək tutdu. İsgəndər tövrünü pozmadı:

– Nəyə gülürsən, alə?

– Müdir, olmaya sən də hacılərə qoşulmaq istəyirsən?

– Hacılərdən nəyim əskikdür? – İsgəndər lovğalandı.

– Onun şərtləri var e, müdir. Gərək ibadət edəsən, səxavət kisəsinin ağzını həmişə açıq qoyasan, yetim-yesirə əl tutasan, vaxtlı-vaxtında xümszəkatını verəsən, – Neman bic-bic gülümsədi.

– Sən öz işinlə məşğul ol, Neman, – müdir sinirləndi.

Neman dinməzcə çevrə yolunu burulub aeroporta istiqamət götürdü. Müdir üç-dörd gün burda olmayacaqdı, bu müddətdə Şəkərin könlünü almaq lazım idi. Neçə gün idi ki, qız Nemanın zənglərinə cavab vermirdi. Əməllicə küsmüşdü. Neman xəyalında Şəkəri soyundururdu, onu yataqda müxtəlif pozalarda təsəvvür edirdi.

Anidən hiss etdi ki, maşın yoldan çıxmaq üzrədir, sürət həddi yüksək idi, qəfil əyləci basdı... İsgəndərin bağırtısını eşitdi, sonra küt zərbə və daha heç nəyi xatırlamadı.

***

Məhin istintaqa ifadəsində bazarda gözə dəyən buynuzlu adam haqqında da məlumat verdi. Müstəntiq bu məlumatı təbəssümlə qarşıladı. Məhin də dediklərinə peşman oldu. “Allah bilir, ürəyində mənə gülür. Ciddi qəbul etmədi. Nə dəxli var, o qədər yalançı buynuz taxan avaralar var ki”.

Bir neçə gündən sonra müstəntiq Məhinə zəng vurub gülə-gülə dedi:

– Məhin xanım, sizin sözünüzdə həqiqət var imiş. Kameralara baxıblar, həmin adam bilirsiniz kimdir? Almaniyadan gələn turist! O gün televiziyada da onu göstərirdilər. Əməlli-başlı şeytana oxşayır zalım oğlu. Alnında da buynuzları var.

Deməli, yanğının buynuzlu adamla heç bir əlaqəsi yoxdur. Zəng edib Xosrova dedi ki, şübhələndiyiniz adam xaricdən gəlmiş turistdir, tanışlıq məqsədilə onu bazara gətiriblər.

Xosrov bir qədər düşünüb dedi:

– Yaxşı, bu barədə düşünərik. Sən gəl banka, sənədlərə qol çək ki, pulu götürə biləsən. Sonra da gedək birlikdə nahar edək...

***

Qaranlıq bitmək bilmirdi, qarşıda heç bir işıq ucu görünmürdü. Hər ikisi yorulub əldən düşmüşdülər, yeriməyə taqətləri qalmamışdı. Aclıq, susuzluq və qorxu hissi onların əzabını daha da artırırdı.

– Bəlkə, geri qayıdaq? – Neman halsız-halsız dilləndi.

– Bu boyda yolu gəlmişik, indi deyirsən geri qayıdaq? Az qalıb, bir az da döz, – İsgəndər təngnəfəs halda dedi.

İnamsız addımlarla irəliləyən Neman ürəyində İsgəndərin var-yoxunu söydü. İstədi İsgəndəri qaranlığa təslim edib geri qayıtsın. Sonra düşündü ki, peşmanlıq qədər mənasız bir duyğu yoxdur. Əvvəldən gərək bu səfərə razılıq verməyəydi. Amma ataların bir sözü var: ziyanın yarısından qayıtmaq da xeyirdir. İsgəndər sanki bunu hiss etdi və Nemanın qolundan tutub bütün ağırlığını üstünə saldı:

– Mənsiz geri qayıda bilməzsən. Bu işin axırına birlikdə çıxacağıq, – dedi.

Bu dəm qarşıda bir ağartı göründü və hənirti gəldi. Ayaq saxladılar. Təşviş və sevinc hissi bir-birinə qarışdı. Neman hiss etdi ki, ayaqları islandı. Elə zənn etdi ki, gölməçəyə düşüblər. Sonra baxdı ki, İsgəndər sidiyini saxlaya bilməyib, şalvarını batırıb. “Ay əbləh, qorxursansa pişikdən, nöş çıxırsan deşikdən?” Neman öz-özünə söyləndi.

Bir topa işıq göründü, ürəkləri yerinə gəldi. İşığın arxasında adam vardı. Yaxınlaşanda ağ saqqalı sinəsinə düşmüş nurani üzlü bir qoca olduğunu gördülər. İsgəndər diksindi, bu qocanın sifəti ona son dərəcə tanış gəlirdi. Amma onu harda gördüyünü xatırlaya bilmədi.

Qoca müdrikcəsinə gülümsəyirdi.

–Tarix necə də təkrar olunur, – dedi. – Fələyin çarxı fırlandıqca bir İsgəndər gedir, o birisi gəlir. Səni də ulu əcdadının və adaşının taleyi gözləyir, İsgəndər.

Qoca əlindəki işığı İsgəndərə uzatdı:

– Al bunu, yoluna çıraq tutsun, səmti tut, qayıt geri.

– Sən kimsən, qoca? – İsgəndər soruşdu.

– Mən sənə lazım olan adamam. Məsləhətdir ki, bu yoldan qayıdasan, – Qoca sakitcə dedi.

Sonra heybəsindən gümüş kuzə və buynuz çıxartdı, buynuzu İsgəndərə uzatdı. İsgəndər dinməzcə buynuzu aldı, qoca kuzədən buynuza qızılı rəngdə maye süzdü:

– Bunu axıracan iç!

İsgəndər buynuzu birnəfəsə başına çəkib qocaya qaytardı:

– Çox sağ ol, qoca! İndi isə izn ver, çıxıb gedim. Mən dirilik çeşməsini axtarmağa gedirəm. Məni yoldan saxlama, qoca. İşıq üçün də, şərab üçün də sənə minnətdaram. Amma incimə, geri qayıtmaq fikrim yoxdur.

Qoca dərk etdi ki, İsgəndər həqiqətə özü yetişməlidir, buna görə də yoldan çəkildi.

– Bəs sənə deyilməmişdi ki, yola çıxanda özünlə işıq götür? Qaranlıqda dirilik çeşməsini necə tapacaqdın, hə? – qoca xısın-xısın güldü.

İsgəndərin zehni içdiyi şərabın təsirindən aydınlandı, bir anlıq dəniz sahilində gördüyü qocanı xatırladı. Bu, həmin qoca idi!

Qoca çevrilib getmək istəyəndə İsgəndər çığırdı:

– Dayan, qoca!

Qoca bir anda əriyib qaranlığa qarışdı. Neman da, İsgəndər də duruxub qaldılar.

İşıq şam kimi əriyib İsgəndərin barmaqları arasından axırdı...

***

Məlum oldu ki, bazarda yanğın qısaqapanma nəticəsində baş verib. Məhin külli miqdarda borcları ödəməkdə çətinlik çəkdiyindən bazarı Xosrovun adına sənədləşdirdi. Xosrov Məhin üçün İstanbulda bir ev aldı və qadın İstanbula daşındı. O vaxta qədər Xosrov ondan doyunca kamını almışdı. İndi də könlünə şirin bir gözəl düşmüşdü...

***

İsgəndər reanimasiyada idi. Neman yüngül xəsarət aldığından palatada yatırdı. İsgəndəri ağır vəziyyətdə xəstəxanaya yerləşdirərkən başındakı buynuzları görən həkimlər və tibb bacıları heyrətə gəlmişdilər. İlk dəfəydi belə adam görürdülər. Saytlar fasiləsiz olaraq bu xəbəri yayımlayırdılar. İsgəndərin arvadı Nüşabə bu əcaib xəbəri eşidəndə şoka düşdü.

– Nəəə??? Buynuz??? Ola bilməz! Mənim ərimə şər atırlar. Necə yəni başında buynuz bitib? Bu nə deməkdir? – deyə hay-haray qopardı.

Bəhram Londondan anasına zəng vurub çaşqın vəziyyətdə soruşdu:

– Ana, bu nə xəbərdir? Deyirlər, atanın başında buynuz bitib.

– Bilmirəm, ay oğul, – Nüşabənin ağlar səsi Bəhramı həyəcanlandırdı, – atan avariyaya düşüb. Çinə gedəcəkdi, yolda başına bu iş gəlib. Həkimlər deyir başında buynuz əmələ gəlib. Qabırğaları sınıb, süni nəfəs aparatına qoşublar. Vəziyyəti heç yaxşı deyil. Sən hər ehtimala qarşı Bakıya bilet al.

Bəhram anlayırdı ki, atasının yoxluğu onun da sonu deməkdir. Onun təhsil xərcini, qumar borclarını atası ödəyirdi. Atasına bir şey olsaydı, bircə gün də Londonda qala bilməyəcəkdi. Sonra fikirləşdi ki, yeganə varis kimi atasının bütün var-dövləti ona qalacaq. İndidən başının çarəsini qılmalıydı. Aviaşirkətə zəng vurub Bakıya bilet sifariş etdi.

***

Jurnalistlər xəstəxanaya axışıb buynuzlu adamı görmək istəyirdilər. Həkim isə onun reanimasiyada olduğunu bildirərək görüşə icazə vermirdi. Buynuzla bağlı suallar isə bitib-tükənmək bilmirdi. Həkim suallara dürüst cavab verə bilmirdi. Tibb elmində bu xəstəliyin adı yox idi. İsgəndərin başının rentgen şəkilləri, analizlər xarici ölkələrin tibb klinikalarına göndərilmişdi. Alimlər buynuzun yaranma səbəblərini tapa bilmirdilər.

Qəfildən xəstəxananın həyətində mərəkə qopdu. İki qadın saçyolduya çıxmışdılar. Ağxalatlı həkimlərdən biri kənarda durub davaya tamaşa edən adamlara təpindi:

– Nə dayanmısınız? Ayırın də bunları.

Adamlar yenə tərəddüd edirdilər. Bu dəm qapıda dayanan polis özünü qadınların arasına atdı. İki qadını bir-birindən qopaqmaq mümkün deyildi. "Qancıq", "ifritə", "fahişə" sözləri havada uçuşurdu. Polis ratsiyanı çıxarıb kömək istədi. Axır ki, Şirini Nüşabənin qanlı caynağından xilas edə bildilər. Nüşabə Şirinin sifətini şırımlamışdı, qızın gül camalı qanlı bulağa dönmüşdü, saçları pərişan idi.

Nüşabə Şirini göydə axtarırdı, yerdə əlinə düşmüşdü. Hələ də ürəyi soyumayan qadın bütün latayır sözləri ona yağdırırdı. Fərhad doktor kənardan bu haləti görüb hadisə yerinə yaxınlaşdı və qəfil hücumdan özünü itirmiş Şirinin gözəlliyinə valeh oldu. Nüşabənin qulaq cırmaqlayan söyüşləri onu özündən çıxartdı:

– Ay xanım, ayıb deyil? İctimai yerdə bu nə tərbiyəsizlikdir edirsiniz?

Nüşabə kirimək bilmirdi:

– Tərbiyəsizin yekəsi bu ifritədir. Mənim ərimi yoldan çıxarıb var-dövlətini yeyir. Ev yıxan qancıq!

Şirin özünü saxlaya bilmədi:

– O, sizi sevsəydi, sizə xəyanət etməzdi. Siz bir qadın kimi ona maraqlı olmamısınız ki, o da istədiyini başqa yerdə axtarıb.

Nüşabəni od götürdü:

– Aaaaz, sən nə bilirsən sevgi nədir? Hələ bir dilin də var, danışırsan? Hər halda, o, mənim qanuni həyat yoldaşımdır. Fərli qadın olsaydın, sənin də bir yiyən olardı. Get öz dərdini çək!

Fərhad Şirini oradan uzaqlaşdırıb otağına apardı, masanın üstündəki qrafindən stəkana su süzüb qıza uzatdı:

– İçin, bir az özünüzə gəlin.

Şirinin rəngi ağarmışdı, çiyinləri əsirdi. Stəkanı alıb qurtumladı.

– Çox sağ olun, – minnətdarlıq hissiylə həkimi süzdü.

Fərhad qızın üzündəki şramlara dərman sürtdü. Şirin ona rahatlıq verməyən sualı həkimə ünvanladı:

– Doktor, bu buynuz məsələsi doğrudur?

Fərhad doktor bir anlıq susdu, qaşlarını çatıb fikrə getdi və dilləndi:

– Buynuz deyil... Başında iki şiş əmələ gəlib. Özünüz bilirsiniz də, saytlar da sensasiya axtarırlar. Sapsağlam adamı öldürüb dəfnindən reportaj da yazırlar. Adamdan soruşarlar ki, siz buynuzu harda gördünüz?

Bu adam Şirində özünə qarşı rəğbət hissi oyatdı. Onun sakit, təmkinli danışığı qızın bütün həyəcanını yatırtdı.

Güzgüdə özünə baxan Şirin ağlamsındı:

– Mən indi bu vəziyyətdə evə necə gedim? Şramların yeri qalacaq, hə?

Fərhad doktor qızı sakitləşdirdi:

– Qəti narahat olmayın, heç bir iz qalmayacaq, yara dərin deyil. Mən sizə dərmanlar yazaram, hər gün üzünüzə çəkərsiniz, üç-dörd günə çəkilib gedəcək.

– Təşəkkür edirəm, – Şirin gülümsədi.

Bu təbəssümün şirinliyi Fərhadı məst elədi...

***

Bütün dünyada pandemiya elan edilmişdi, ölkələr karantin rejiminə keçirdilər. Əcaib bir virus sürətlə yayılıb ölkələri dolaşmaqda idi. "Mo" virusuna yoluxanların başında buynuza bənzər iki

şiş əmələ gəlirdi. Bu virusu yayanların yarasa yeyənlər olduğu haqqında xəbərlər yayılırdı. Yarasaların yaramazlığı dünyanın nizamını pozmuşdu. Buynuzlu adamların sayı günbəgün artırdı. Buynuz çıxaran adamlar dəhşətli əzablar içində ölürdülər.

Deyirdilər ki, bəşər övladı Allahın qəzəbinə gəlib. Yer üzündəki insanlar dindən-imandan üz döndərib şeytanın quluna çevrilmişdi. Oğul atanı, qardaş bacını, ər arvadını öldürürdü, qadınlar doğulan körpələri zibil qabına atıb gedirdilər, övladlar qocalmış valideynlərini qocalar evinə atırdılar. Mərhəmət, xeyirxahlıq hissi insanların qəlbindən qeybə çəkilmişdi. Adamlar zalım olmuşdu, insan insanın qanına susamışdı. Təbiətə divan tutur, meşələri yandırır, havanı zəhərləyir, bulaqları qurudurdular. Meyvələrin geni dəyişdirilmişdi, dönərxanalarda ölü it, eşşək ətini çörəyin arasına dürtüb adamlara satırdılar, çaya soda qatırdılar, mağazalarda mənşəyi bilinməyən yararsız məhsulların sayı-hesabı yox idi, xərçəng adamları diri-diri udurdu. Şeytan atını minib köndələn çapırdı.

Həkimlərin İsgəndərdən əlini üzdüyü bir vaxtda möcüzə baş verdi, xəstənin vəziyyəti tədricən yaxşılaşmağa başladı. Bir aydan sonra İsgəndər komadan ayıldı. Nəhayət, qaranlıq dünyadan işıqlı dünyaya çıxmışdı.

Uzun müddət nə baş verdiyini anlaya bilmədi, donuq nəzərlərlə başı üstə dayanmış tibb bacısına baxdı. Tibb bacısı xəstənin gözlərini açdığını görüb cəld həkimi çağırmağa qaçdı. Həkim palatanın qapısını açıb içəri girəndə İsgəndər səsə çevrildi. “Aha, demək, eşidir, huşu özündədir” – deyə həkim pıçıldadı. İsgəndərlə baxışları toqquşanda həkim gülümsədi:

– Daha sizə ölüm yoxdur, İsgəndər müəllim. Yaşayacaqsınız!

İsgəndərin gözləri parıldadı. “Deməli, yaşayacağam!”

Həmin gündən İsgəndər sürətlə sağalmağa başladı. Bir neçə gündən sonra onu palataya köçürdülər. Palatada dolaşan xəbərləri o da eşitdi. Sən demə, buynuz çıxaran tək o deyilmiş, “mo” virusuna yoluxanların hamısının başında buynuzlar əmələ gəlirmiş. İsgəndər buna sevindi. Qəzaya düşməzdən əvvəl gördüyü yuxunu xatırladı. Gözlərini tavana dikib pıçıldadı:

– Ey yeri-göyü Yaradan, keç günahlarımdan! Sağalıb ayağa qalxandan sonra qazancımın yarısını kasıb-kusublara paylayacam, yetim-yesirlərə arxa-dayaq olacağam. Qapıma üz tutan adamları naümid qaytarmayacağam. Bundan sonra mənim dostlarım varlılar deyil, kasıblar olacaq.

Yadına düşdü ki, bir müddət bundan əvvəl iş yerinə iki gənc yazıçı gəlmişdi. Katibəyə dedi ki, öyrən gör nəyə gəliblər? Katibə qayıdıb qapının ağzında ayaqlarını cütlədi:

– İsgəndər müəllim, deyirlər ki, ədəbi jurnal buraxmaq istəyirik, amma maddi vəsaitimiz yoxdur. İsgəndər müəllim bizə kömək etsəydi, ona minnətdar olardıq.

İsgəndər üz-gözünü turşutdu:

– Onları başa sal ki, bura xeyriyyə cəmiyyəti deyil. Ünvanı səhv salıblar...

İndi xəstə yatağında dediklərinə peşman olmuşdu. Özünə söz verdi ki, ayağa qalxan kimi həmin gəncləri tapacaq və onlara kömək edəcək.

Bir də ona dirilik suyunun yerini nişan verən müdrik qocanın məzarını ziyarətə gedəcəkdi.

Həkim növbəti dəfə ona baş çəkəndə gördüyü mənzərə onu heyrətə gətirdi; İsgəndərin buynuzları yoxa çıxmışdı.

– Bu da ikinci möcüzə! – həkim öz-özünə pıçıldadı.

İsgəndər bu dəfə elə bir söz dedi ki, həkim bir anlıq onun ağlına şübhə elədi. “Deyəsən, bədbəxtin ağlı gedib” – deyə düşündü.

– Həkim, axır ki, dirilik suyunun mənbəyini tapdım.

Həkim şübhə içində soruşdu:

– Hardadır ki?

İsgəndər əlini ürəyinin üstünə qoydu:

– Burdadır.

Həkim bir şey anlamadı.

– Bilirsiniz dünya niyə bu gündədir? Xəstəliklər baş alıb gedir, fəlakətlər çoxalır. Bunun səbəbi, bilirsiniz, nədir?

Həkim “yox” mənasında başını yellədi.

– Çünki adamlar adamlıqdan çıxıb, vəhşiləşib. Ürəklərə mərhəmət, yaxşılıq toxumu səpmək lazımdır ki, bu bəlalardan xilas olaq. Dirilik çeşməsinin ünvanı bizim ürəyimizdir. Əks halda xilas ola bilməyəcəyik. İmkan verməyək ki, şeytan qələbə çalsın.

Həkim yaxınlaşıb xəstənin əlini sıxdı və gülümsədi:

– Mən sizin yanınızdayam, İsgəndər müəllim!

Bir həftədən sonra İsgəndər tam sağalıb ayağa qalxdı. Evə buraxıldığı günün səhəri Gəncəyə yola düşdü. Qoca müdrikin məzarını ziyarət edəcəkdi...



Elnarə QARAGÖZOVA

*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent*

# ÇAĞDAŞ NƏSRİMİZİN YENİ İMZALARI “ULDUZ”un ŞƏFƏQLƏRİ ALTINDA

Ədəbi cameəmizdə və müasir ədəbi prosesdə özünəməxsus yeri olan “Ulduz” jurnalının 2023-cü ilin iyun nömrəsi oxucuların qarşısına tam fərqli formatda çıxdı. C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası ilə ortaq layihə çərçivəsində ərsəyə gələn bu buraxılış **“Yeni nəsil: proza”** devizi ilə təqdim edilib. Jurnalın baş redaktoru Qulu Ağsəs ədəbi prosesimiz üçün unikal bir addıma imza ataraq jurnalın bu nömrəsinin tərtibini gənc imzalardan olan Furqana həvalə edib. Furqanın təqdim etdiyi “Ulduz”un səhifələrində yeni nəsil imzalardan Orxan Saffarinin, Təvəkkül Boysunarın, Orxan Cuvarlının, Sərdar Aminin, Nihat Pirin, Həmid Piriyevin, Orxan Həsəninin, Rəvan Cavidin, Nadir Yalçının, eləcə də Furqanın özünün hekayələri işıq üzü görüb. Fikrimizcə, Furqan Qulu Ağsəsin ona həvalə etdiyi bu məsuliyyətli işin öhdəsindən layiqincə gəlib. Jurnalda toplanan hekayələr həm stilistika, həm də mövzu baxımından fərqli olduğundan çağdaş ədəbiyyatımızda hekayə janrının təzahürü haqqında ümumi fikir yürütməyə, janrın bu günü haqqında söz söyləməyə imkan verir. Müəlliflərin jurnala təqdim etdikləri hekayələrin polifonikliyi janrın ədəbiyyatımızda klassik ənənələri qorumaqla yeni inkişaf meyilləri ilə zənginləşdiyindən xəbər verir. **Furqanın** “Mustafa Həbibzadənin meyidini mən oğurlamışam” hekayəsində müasir dünyada getdikcə unudulan mənəvi bir dəyərin – verilən sözə sadiqliyin maddiyyata qurban getməsindən bəhs edilir. Gənc yazıçı aktyorun tabutunu gətirən şəxslərin onun oynadığı rolların qiyafəsinə bürünməsi səhnəsi ilə Əbdürrəhim bəy Haqverdiyevin M.F.Axundzadəyə həsr etdiyi “Xəyalat” əsərinə işarə edir. Ə.Haqverdiyevin hekayəsində yaratdığı personajlar

M.F.Axundzadəni ittiham edirdi, Furqanın hekayəsindəki aktyorun yaratdığı personajlar isə ona verilən sözü yerinə yetirməyən şəxsləri məhşərə çəkirlər. “Yeni dünya düzəni” hekayəsində isə yazıçı müasir dövrdə gündəmdə olan neqativ və pozitiv düşüncənin insanın, eləcə də kainatın gələcəyinə təsiri ilə bağlı təlimləri fərqli biçimdə, cari həyat kontekstində verməyə nail olub. **Orxan Saffarinin** “Mərcan xala və polipləri” hekayəsi tənha bir qadının həyatına kənar baxışı əks etdirir. Orxan Saffari tənhalığa baxışı bir tərəfdən uşaq gözü, uşaq xatirələri ilə nəql edir, digər tərəfdən yetkin gəncin fikirləri ilə bu nəqlə düzəlişləri təqdim edir. Hekayənin ən təsirli ifadəsi “uşaqları pişik kimi sevirdi” ifadəsidir. Bu cümlədə bir qadının analıq duyğusunu dada bilməməsi həm sadə, həm də kəskin şəkildə ifadə olunub. Uşağın necə sevildiyini duymayan qadın uşaqları insan körpəsi kimi, dadmadığı bir duyğu ilə sevə bilməzdi və sevgisini bildiyi duyğu ilə, pişiklərə sevgisinə bənzər şəkildə ifadə edirdi. **Təvəkkül Boysunarın** “Burnout” hekayəsi adı ilə oxucunu intellektual dialoqa dəvət edir. Amerikalı psixoloq Kristina Maslakın 1976-cı ildə elmə gətirdiyi Burnout sindromu (emosional yüklənmə, “yanma”) termini haqqında məlumatı olmayan oxucu hekayənin əsl mahiyyətini anlamaqda çətinlik çəkəcək. Belə ki, hekayədə təzahür edən depersonalizasiya həm burnoutun, həm də şizofreniyanın əlamətlərindən biridir. Müəllifin oxucuya verdiyi ipucunu başlıqda yerləşdirməsi də maraqlı priyom kimi diqqətəlayiqdir. “Uğursuz gün” müasir yumoristik hekayə kimi oxunaqlılığı ilə seçilir. **Orxan Cuvarlının** “Güzgü” hekayəsində baş qəhrəman və nəqledici güzgüdür. Obraz olaraq məhz divar güzgüsünün seçilməsi də təsadüfi deyil. Çünki kiçik əl güzgüsü yalnız bir şəxsin mübhəm duyğularına tərcüman ola bilərdi. Əvvəlcə hamama vurulan güzgü bir ailənin həyatına, cızılıb binanın giriş qapısına vurulduqdan sonra isə bütöv bir məhəllənin həyatına şahidlik edir. Güzgünün bina girişindəki həyatında gördükləri daha maraqlı və rəngarəngdir. Xüsusilə sərxoşla görüş, onun cibindən çıxardığı, güzgüdə əks olunan “1993, may, Ağdərə” imzalı üç gənc əsgərin fotosu və cəbhədə kontuziya alıb havalanan istedadlı cərrahla bağlı hekayət bu gündən dünənə, ağrılarımıza, itkilərimizə baxışı əks etdirir. “Dünya bir pəncərədir, hər gələn baxar, gedər” ifadəsini Orxan Cuvarlı dəyişərək dünyaya güzgüdən baxır, çünki pəncərə yalnız dünyanı göstərir, güzgü isə həm dünyanı, həm də ona baxan insanı əks etdirir. **Sərdar Aminin** “Nilufərlər” hekayəsinin adı incə, romantik, həzin bir nəql vəd edir. Lakin hekayə şəhərin müxtəlif yerlərindən gətirilən torpaqla doldurulan Günəşli dərəsindən bəhs edir. Dərənin doldurulmasına nəzarət edən Sahib kişi dərəyə tökülən torpaq laylarında ilişib qalan əşyaların nəql etdiyi fərqli həyatlara, talelərə dair hekayətlərin dinləyicisinə çevrilir. Bu bədii priyom hekayə müəllifinin uğurunu təmin edir. Xəzərin dalğaları Günəşli dərəsinə dolub torpağı və Sahib kişini qoynuna alıb aparanda “nilufərlər” də aşkara çıxır: gənc yazıçının borcla nəşr etdirdiyi və sata bilmədiyi “Nilufərlər” adlı 50 kitabı bu gölün çiçəkləri kimi Sahib kişiyə axirət yolçuluğunda yoldaşlıq edir. Yazıçının “Atamın əlləri” hekayəsi keçmiş eşq hekayətlərinin ahıl yaşda xatırlanması kimi klassik mövzunun orijinal tərzdə təqdimi ilə yadda qalır. **Nihat Pirin** “Bir kəndin manifesti” ədəbiyyatımızda Mirzə Cəlil üslubunun müasir variantda və yeni tərzdə ifadəsidir. “Danabaş kəndi”nin xələfi olan kəndin dərdi ölümün qeybə çəkilməsi və mollanın, qəbirqazanın, çadırquranın işsiz, gəlirsiz qalmasıdır. Kənd camaatının bu məsələnin həlli ilə bağlı göstərdiyi birgəlik və canfəşanlıq oxucunu həm güldürür, həm də düşündürür. Hekayədə adı ilə dərhal Mirzə Cəlil yaradıcılığına istinad verən Molla Xudayarın Şeyx Nəsrullahlıq edərək bu dəfə ölü diriltməkdən vaz keçib diriləri məcazi öldürüb yas mərasimi təşkil etməsi dahi ədibin qaldırdığı bəzi problemlərin bu gün də aktual olduğunu vurğulayır. **Həmid Piriyevin** “Şanapipik haqqında mahnı” hekayəsi Abşeron kəndlərinin ab-havası üzərində qurulub.Yazıçı ilk baxışdan monoton görünən həyat fonunda qəhrəmanların özünəməxsusluğunu vurğulamış, Bakı, Abşeron mühitinin daha öncələr işlənmiş obrazına yeni çalarlar gətirə bilmişdir. Təzadları ilə yadda qalan Həci obrazının müəllif tərəfindən böyük sevgi və diqqətlə yaradılması bu obrazın onun gələcəkdə yazacağı əsərlərdə yenidən görünəcəyi qənaətini yaradır. “Şaftalı çiçəkləri fəsli”ndəki sərxoşun şordan qu quşu tutması hekayəsi Süleyman Vəliyevin məşhur “Şor cüllütü” hekayəsinə istinad effekti yaradır. **Orxan Həsəninin** “İnziva” hekayəsi özünü cəmiyyətdən könüllü təcrid edən insanın yaşamını nəql edir. Monoloq şəklində yazılan hekayə yorucu deyil, əksinə, oxucu nəqlin davam etməsini, kəsilməməsini arzulayır. İnziva içində həyatının ən



xoşbəxt gününü axtaran qəhrəmanın həyatının, yaşamının əsası, özünün də qeyd etdiyi kimi, “gördükləri yox, düşündükləridir”. Yazıçının “Çiy balıq” hekayəsi hərbi hissədəki əsgər həyatına həsr edilib. Gürzə ilə savaş və əsgərin yoldaşına ad günündə qadağanı pozaraq telefon tapıb mahnı hədiyyə etməsi kimi detallar müharibədən kənar mühitdə hərbçi həyatının təsviri mövzusunda uğurlu bir hekayənin meydana çıxmasına rəvac verib. **Rəvan Cavidin** “Dəvələr, atlar, şarlar” hekayəsi sufi rəmzlər üzərində qurulub. Cari həyat fonunda təsvir edilən Yusif, Züleyxa obrazları rəmzi yalnız adlarında daşıyır. Dəvə karvanı və Rumi obrazları isə mif kimi mətnə hörülüb. Mif və cari həyat arasında mediator rolunu üzərinə götürən Sarvan hekayənin əsas obrazıdır. “Xudavi” hekayəsinin qəhrəmanının real həyatını Rəvan Cavid dərviş hekayəti siqləti ilə nəql etməklə fərqli auralı mətn yaratmağa nail olub. **Nadir Yalçının** “Nina Nikolayevna” hekayəsi din ayrılığı və məhəbbət kimi klassik bir mövzunun yeni nəfəslə işlənməsi kimi diqqətəlayiqdir. Məhəbbəti uğrunda üzdə dinini dəyişən, gizlində isə ilk inancının simvolu olan xaçı saçlarının altına bənd edib gizləyən Ninanın obrazı təravətlidir və məhz bu obraz hekayəni triviallıqdan qurtarır. “Səfər müəllimə nəsə olub” hekayəsinin teatrın kassası qarşısında Əzizin qarşılaşdığı hadisələrlə başlaması təsadüfi bir detal deyil. Hekayənin sonrakı gedişatı Əzizi Səfər müəllimin həyatının tamaşası ilə qarşı-qarşıya qoyur. Yazıçı təhkiyəsinin rəvanlığı, klassik nəsr ənənlərinə sadiqlik Nadir Yalçının mətnlərinə öz möhürünü vurub.

Müasir gənc ədəbi nəslin hekayə yaradıcılığına həsr edilən jurnalın “Dərgidə kitab” rubrikasında isə türk ədəbiyyatında qısa hekayə janrının banilərindən hesab edilən Ömər Seyfəddinin “Üç nəsihət” hekayəsi master-klass kimi təqdim edilmişdir. Fikrimizcə, jurnalın baş redaktoru, layihənin ideya müəllifi şair-publisist Qulu Ağsəsin “Yuxarıdayam, düşürəm indi” essesinin “Ulduz”un gənc yazarlara həsr edilmiş nömrəsində verilməsi təsadüfi deyil. Essesində ədəbiyyatımızın gəncliyinin simvolu olan Mikayıl Müşfiqi, eləcə də Müşfiq şəninə adı qoyulan Müşfiq Cabiroğlunu anan Qulu Ağsəsin, istedadlı gənclərin həvəslə yaradıcılığa davam etməsi, “işıqlı dünyadan əl çəkməməsi”, odlu-alovlu misralarını yaşatması üçün “Ulduz”u yeni formatda təqdim etməsi ədəbiyyat naminə təqdirəlayiq bir addımdır.



Əli ÇAĞLA

# LİMAN

*Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram,*
*Qolumdakı zəncirləri qıram gərək, qıram, qıram!..*
**Xəlil Rza Ulutürk**

Uzaqdan azan səsi eşidilirdi. "Bir neçə dəqiqədən sonra Təbrizin xiyabanlarında olan işıq dirəklərinin hamısının işığı bir göz qırpımında söndürüləcək. "Qızım, qaranlıqdan qorxmadın?" Sonra kimsə qayışını bağlaya-bağlaya evdən küçəyə atılıb yerə tüpürəcək. "Qızımı sənə tapşırıram, İlahi!" Bələdiyyə işçilərinin süpürgəsinin səsini avtomobillərin uğultusu batıracaq. "Qızım ağıllıdır, bilirəm". Hansısa əsgər çiynində özündən böyük çantası ilə yorğun ayaqlarına təpilmiş botularını tappıldada-tappıldada kazarmaya geri dönəcək. "O gün qızım hara qaçırdı?" Kimsə ərini işə getmək üçün oyatdığı zaman, evləndiklərindən bəri it kimi boğuşsalar da, onun gecədən öldüyünü sezdikdən sonra hay qopararaq başına döyüb qonşuları şirin yuxusundan eləyəcəkdir. "Qızım, gecəni şirin yata bildinmi?" Sonra şəhəri günəşin işığı bürüyəcək, ölü daşıyan avtomobilin sürücüsü mürgülədiyi anda tibb bacısı zəng edib o kişinin cəsədini aparmaq üçün ünvanını təkrarlayacaq. "Qızım, harda yatdın bu gecəni?" Bir neçə Adəm də gecələr Həvvanın yuxusunu görüb sayaqladıqdan sonra gözünün içini ova-ova çörək növbəsində dayanacaq. "Qızım, ac deyilsən?" Kimsə tələsə-tələsə bankdan növbə alıb ac-susuzcasına bank işçisinin yuxudan oyanıb iş başına dönməyini gözləyəcək. "Qızım, pulun yox idi, anan ölsün, qızım..." – deyərək polis idarəsinin kamerasının soyuq kafelinin üzərində uzanıb şəhərdəki özgür insanları fikirləşirdi. Kameranın qapısının cüyültü səsi qulağının içinə girmək istəyən milçək kimi vızıldamağa başladı. Məhbus qadın diskinib yerindən qalxdı. Uzandığı yerdən boylanıb, kor adamlar kimi tor pəncərəyə baxıb gözlərini qırpdı. Hələ gün təpələrin arxasında gizləndiyinə əmin idi.

"Əşhədü, ənnə la ilahə illa Allah" – səsini uzaqdan yel gətirmirdi, polis idarəsinin həyətinin

o tayında yerləşən məscidin audio lentindən qalxan səs idi. Qapını açıb içəri keçən agent qadının üzü aydın görünmürdü. Yerdə uzanan məhbus qadın ayağa qalxmağa çalışsa da, gecədən gömgöy göyərən yaraları ağrımağa başladı. Anidən beyninə "Nə çətindir! Bir var, insan vurularkən gözləri açıq olub haradan dəyiləcək zərbənin yerini bədənində qısmağa çalışsın, bir var, qapalı gözləri ilə birdən-birə bədəninin naməlum yerinə zərbə vurulsun! Görünən zərbəni işgəncə, görünməyən zərbəni cinayət adlandırmaq olar!.." fikri gəldi.

Ancaq qadın bir şeyi bilmirdi. O da zərbə vuranın əllərinin məsələsi idi. Əslində, şillə yeyən şəxsin təkcə üzü deyil, şillə vuranın əllərinin içi də onun üzü qədər ağrıyır. Bunu işgəncə verən şəxs hamıdan daha yaxşı anlayır, amma üzə vurmur.

Qara çarşablı agent qadın boğuq səsi ilə yerdə uzanan məhbus qadını ayağa qaldırmağa çalışdı. Çarşabının altından qandalı çıxarıb yuxulu məhbus qadının qoluna bağladı. Çarşablı agent qadının sağ qolundakı qızıl bilərziklər bir-birinə toxunaraq səs salırdılar, sarı qızıllar qaranlığın bağrını yararaq gözə girirdilər, qızıldan bir az üstdə, paltarının iki qolunda isə par-par parıldayan içi boş iki sarı ulduz agent qadının qızıllarına tay parıldasa da, qızıldan deyildi, amma agent qadının onlara qızıldan daha çox dəyər verdiyi məlum idi. Məhbus qadının heç zaman taxa bilmədiyi qızıl, bəzək əşyaları yadına düşdü. İnsan bir işi görməyirsə, bir şeyi təcrübə etməyirsə, o görmədiyi iş necə yadına düşə bilər?

Çarşablı agent qadın "Qorxma, qızım, səni həkimə aparıram, gecə səni çox əziyyət eləyiblər, bədənin zəifləməyə başlayıb. Bir ağrıkəsici iynəsi vurandan sonra rahat olacaqsan" – deyib məhbus qadını razı salmağa çalışsa da, məhbus qadın iki şey fikirləşdi. "Ya məni asmağa aparırlar, ya da həqiqətən, xəstəyəm. Axı dünən kamera çox soyuq idi. Hə, ümid hər şeydən yaxşıdır, məni bu agent qadın həkimin yanına aparır" – deyərək düşünürdü.

Dərd insanı boğduğu zaman insan olanları unutmağa məcbur olur. Bu iki gündə məhbus qadına verilən işgəncələrə görə niyə, necə xəstələndiyini özü də anlaya bilmirdi.

Addımlarını birgə atan iki qadın xəlvət zalın bir başından gəlirdilər. Agent qadının qara çarşabı yeridiyi anda havada fırlanıb özü zənn etdiyi azadlıq bayrağı kimi dalğalanırdı.

Səkkiz yaşlı qızını özü böyüdürdü. Lənətə gəlmiş narkoman əri gecələr evə gələndən sonra onu cəlladlar kimi döydüyündən bezar olandan sonra işləri məhkəməyə çəkib boşanmışdılar. Qızını məktəb qabağında gözləyəndən sonra məktəbin son zəngi vuruldu. Məktəbin həyət darvazasının ağzında dayanmış qadın, qızını məktəb uşaqlarının hamısının bir geyindiyi paltarların arasında tanıyıb əl elədi. Uşaqların hamısı çığıra-çığıra atalarının qucağına qaçırdılar, amma qadının kiçik qızı məyuscasına ağır addımlarlla anasına tərəf yeriyirdi. Anası onun kövrək olduğunu düşünüb, qucağını açıb qızını səslədi. Nə adı ilə səslədi? Nə fərqi var, boş ver, onsuz da bu ölkədə yaşayan qızların adının dəyəri yoxdur, hamısı qızdır, hamısı sabah böyüyəndən sonra döş çıxardacaq, qırmızı pomada vuracaq, açıq-saçıq paltar geyinib gəzəcəklər. Onları azadlıq xiyabanında dustaq etdikləri anda o səhnəyə şahid olan bığlı kişilər evlərinə dönüb, ayaqlarını uzadıb çay içdikləri zaman qadınlarına "Bir neçə qızı açıq-saçıq gəzərkən dustaq etdilər" deyib çaylarının soyumamasına tələsərək qurtaqurtla içəcəklər.

Ana ilə bala qucaqlaşdıqdan sonra kiçik qız başındakı yaylığı çıxardıb anasına verdi. Qadın yaylığı özü götürdüyü çantanın içinə qoydu.

– Ana, Bəyani müəllimə sprey almağımızı istədi. Dedi, sabah məktəb həyətinin divarında rəsm çəkəcəyik.

– Gedib alarıq, qızım, nigaran qalma.

Qadının yannda pul az olsa da, qızının könlünə toxunmağa dəyməzdi. "Olsun, bu gün taksi pulumuz olmasa da, evə piyada gedərik" – deyə fikirləşdi. Məktəbin yan xiyabanındakı qələm-dəftər satılan dükana keçib, qara rəngdə iki sprey alıb qızının çəhrayı çantasına qoydu.

Onlar xiyabandan keçdikləri anda qızı uzun bir dəmirin üstündə dalğalanan İran bayrağını göstərdi:

– Ana... Ana... – dedi. – Bayraq necə dalğalanır? Bu nə səbəbdəndir? Bəyani müəllimə yelin əsdiyinə görə onun dalğalandığını deyir. Ana, axı indi yel əsmir, o necə dalğalanır?

Qadın, kiçik qızının qulpundan yapışdığı məktəb çantasını qolunu aşıraraq çiyninə atdı.

– Qızım, – dedi, – bayraq dalğalanmır, bayraq yel ilə birgə əsmir. Bayraq rəqs edir, bilirsən?

– A... Bu olan işdir axı?

Qadın bu işin həqiqi olub-olmamasını dəqiq bilməsə də, öz sözünə yekun vurub təsdiqləməyə məcbur idi:

– Bəzən qeyri-adi işlər olmağa başlayır. Hər ölkənin bayrağı da yelin qammaları ilə rəqs edir. Bir bayraq zəfər qammaları, bir bayraq kədər qammaları, məğlubiyyət qammaları ilə rəqs edir.

Bax, qızım, indi sənin sarışın saçların da rəqs edir, sənin yeriş qammaların ilə.

– Bunu Bəyani müəllimyə danışacağam.

Polis idarəsinin uzun, xəlvət zallarında addımlayan agent qadının çarşabı döngələri döndükcə daha çox rəqs etməyə başlayırdı. Məhbus qadının çarşabı kədər, ayrılıq, dustaq, işgəncədən yaranan qammalar ilə, qızıl bilərzikləri cingildəyən agent qadının çarşabı isə özündə vizuallaşdırdığı dindən yaranan özgürlük, sevinc qammaları ilə rəqs eləyirdi. Məhbus qadın kiçik qızının sarışın saçlarının necə rəqs elədiyini gözündən yayındıra bilmirdi.

Məktəbdən qızı ilə qayıdan zaman “Bu yol nə qədər uzundur, niyə evə çatmırıq?” – deyən qadın indi klinikaya getdiyi yolun uzun olduğunu düşünən məhbus qadına çevrilmişdi.

– Bu boyda polis idarəsinin işgəncə bölməsinin bir klinikası var, – agent qadın yorulmuşdu. – Biri xəstələnərsə, kameradan klinikaya gələnə qədər yeddi kəfən çürüdər.

Məhbus qadının canına qorxu çökdü:

– Biri xəstələnərsə? Məgər mən xəstələnməmişəmsə, klinikada nə işim var?

Artıq azanın səsi kəsilmişdi. Agent qadın nəfəsini dərib saxlayandan sonra qabaq dişlərinin sınıq yerindən eşiyə buraxdıqda, xəlvət zalda firt səsi divarlara dəyib qayıtdı:

– Füsssüüüü... Bu yollarda sümük sındırmışam, sonunda kəfən çürütməsəm, yaxşıdır.

Məhbus qadının kiçik qızı yadından çıxmasa da, dilinin altında mızıldadı:

– Sən niyə narahatsan?

– Narahatam, ana, bilirsən nədən?

– Sənə qurban olum, qızım, nədən narahatsan?

– Saçlarımın necə dalğalandığından narahatam. Saçlarımdan qorxuram, birdən kədər qamması ilə dalğalanacağından qorxuram. Kaş oğlan olaydım, ana, böyüdükdə saçlarımı qırxdırıb şəhərdə yaylıqsız, özgürcəsinə gəzə biləydim.

Qadın qızının əlini bərkdən sıxaraq udqundu:

– Yox, qızım, bu sözü bir də dilinə gətirmə. Sənin saçların kişi özgürlük qammaları ilə dalğalanır. Qızım, sən saçlarının dalğalanmağını özün görmürsən, amma mən görürəm.

Kiçik qız anasının əlini bərkdən sıxaraq ah çəkdi. Xiyabanın o tayında üç kişi polis dayanmışdı. Çiynində üç böyük sarı ulduzu olan kişi polis sanki o biri dayanan kişi polislərin rəisi idi. Çiynində çəhrayı məktəb çantası ilə gedən ana ilə kiçik qızını görən kimi donub dayandı.

Gülə-gülə səkidə addımlayan kiçik qız ilə qadının önündə dayandı. Bir əlini belindəki Zoaf adlı tapançasının qundağına, bir əlinin də iç üzünü açıq şəkildə qadın ilə kiçik qız gələn tərəfə tutub “Dayanın” – dedi. Kiçik qız ən gözəl sığınacaq yer anasının kürəyidir deyə, anasının buduna sarılaraq gizləndi.

Qadın “Buyurun, cənab, nəsə olub?” – dedi.

– Çantanı boşaldın.

– Hansı çantanı, cənab?

– Hər ikisini də.

– Nədən?

– Sizə deyirəm çantaları boşaldın.

– Sənə deyirəm çantanı boşalt.

Həkim qadın idi, əsəbiləşmişdi.

Agent qadın, ayağa qalxıb iynə, şərbət, dərman olan çantaya tərəf addımladıqda dönüb həkim qadının önündə kinolarda bir-biri ilə öpüşən iki aşiq kimi üzünü üzünə yapışdıraraq:

– Mənə bir də belə əmr eləmə. Səni it gününə qoyaram. Hambal axtarırsansa, odur, rəisə məktub yaz, yardım üçün yanında tibb bacılarından birini gecələr saxlasın, nə istəyirsənsə, qabağında tir-tir əssin.

Həkim qadın uşaqyana sifətini çevirib öz işinə görməyə başladı. Ona toxunsaydın, ağlayacaq kimi görünürdü. Sanki evdəki böyük bacısı üstünə çımxırıb ona yemək payını az vermişdi. Məhbus qadın klinikanın içinə ayaq basdığı andan fikir onu boğurdu.

– Fikirləşməyə gərək yoxdur. Bir polis olaraq çantaları boşalt deyirəmsə, boşaltmalısan.

Kişi polis tapançasını çıxardıb qadına tərəf tutdu. Kiçik qız ağladı. Səhnəni dövrələyib baxan adamlar bir neçə addım geri çəkildilər. Xiyabanın o tayında polis avtomobilinə söykənən başqa kişi polislər də qadın ilə kiçik qızı mühasirəyə saldılar.

Qadın kiçik qızına təsəlli verdi. İlk öncə öz çantasını çıxardıb yerə boşaltdı. Pomada, sürmə, bəzək əşyaları, qızının ağ yaylığından başqa heç nə yox idi. Özünü itirmədi, çantadan boşaldılan bəzək əşyaları ilə ağ yaylığı bir-bir çantanın içinə qaytardı.

– O biri çantanı da boşalt.

Qadın kiçik qızının məktəb çantasını çiynindən aşırıb fermuarını açdı. Önündə dayanıb tapança ilə qadını hədəfə alan kişi polis qışqırdı:

– Çevir, nə varsa, yerə boşalt.

Qadın çantanı tərsinə tutub içində olan

əşyaları boşaltdı. Çantanın içindən qızının dəftərləri, kitabları, qələmi yerə düşdü. Sonda isə iki sprey yerə düşüb səkidə diyirləndi. Polis bir əlini tapança ilə qadının üstünə tutduğu zaman bir əli ilə sinəsində olan ratsiyanın böyrünü sıxıb başını bir az da endirdi.

– Mərkəz... Mərkəz... Əməliyyat uğurla görüldü. Çantanı boşaltdıq, içində sprey var idi.

– Yox, yox, bizim heç günahımız yoxdur.

Kiçik qız qollarını anasının qıçına daha bərkdən dolayıb çığırdı:

– Ana... Ana...

– Bunlar... Bu... Bu... Bunlar nədir?.. Nə... Nəd...

– Ana, ana.

Polislərin biri çığırdı:

– Sənə deyirik özünü təslim elə. Diz çök, əllərini başına qoy.

– Ana... Ana...

– Qızım... Qızım... – deyib polisə üz tutdu – Nə olar? Qızımla işiniz olmasın. Qızım...

Mikroavtobusun arxasından iki qadın polis düşüb sel kimi dalğalanan camaatın arasından gəmi kimi yol açıb səhnəyə girdi. Çarşablarını yellədə-yellədə xiyabanı adlayıb qadın ilə kiçik qızına tərəf gəldi.



– Ana... Ana...

Bir qadın polis kiçik qızın, o birisi də qadının qollarına qandal vurmaq istəsə də, ana ilə kiçik qızı dartınırdılar.

– Ana... Ana...

Kiçik qız, qadın polisin əllərindən qurtulub anasına tərəf qaçmaq istədiyi zaman qadın polis kiçin qızın saçlarından yapışıb yoldu. Yerdə sürütləyib ayağa qaldırdı. Başının ortasından qapaz vurduğu zaman kiçik qız pişik kimi vəngilti səsi çıxartdı.

Qadın bu səhnəni gördüyü zaman dartınıb onu qandallamaq istəyən qadın polisin əlindən çıxdı. İnsanın hirsindən dişi bağırsağını kəsdiyi zaman daha çox güclənər, qabağını heç kim saxlaya bilməz. Qadının gözləri dərhal yerdəki para kərpicə sataşdı. Bu kərpici bura kim atdığı ilə işim yoxdur, amma sanki kərpici ora qısas ilahələri qoymuşdular, birinin başına çırpılmaq üçün.

– Bu kərpicləri bura nəyə qoyubsunuz?

Agent qadın idi. Çantanı yerə boşaldıb ayağa qalxdıqdan sonra gözlərinə sataşmışdı.

– Sabah, yox, yəni bu gün nahar çağı işçilər gəlib divar işləyəcəklər.

Həkim qadın məhbus qadının qolunu əli ilə açıb mavi rəngdə bir bağ bağlayıb sıxdı. Sonra spirtli pambığı damarın üstündə oynatdı. Sonu ölümə gedən yolda mehribanlıq nəyə gərəkirdi?

Spirt nə idi? Pambıq nə idi? Yoxsa özünü and içib xəstələrə yardım etmək üçün çalışan həkimlər kimi aparırdı? Bəlkə də, bu iş adət üzrə idi.

– Əlini yum, sıx.

Məhbus qadın, iynənin damarına keçdiyi an qorxdu. Həkim qadın iynənin içini məhbus qadının qanı ilə doldurdu. Agent qadın “Çəkdin?” – deyərək dodağındakı gülüşü saxlaya bilmədi.

– Siz demişdiniz iynə vuracağıq, xəstəsən. Bəs nədən qanımı çəkirsiniz?

Həkim qadın ilə agent qadın qəhqəhə ilə güldükləri zaman klinikanın həmən otağındakı nahara qədər işçilərin yolunu gözləyən kərpiclər diskindilər.

– Bir də çək, bir də çək.

Agent qadın idi. Həkim qadın sevindiyindən çığırdı:

– Birini də çəkirəm, daha bəsdir, urra... Aha...

İynə yenə də damara keçib qan ilə dolduqda agent qadın üzünü arxada kreslonun üstündə olan şüşələrə çevirib saydı.

– Bir, iki, üç, dörd, beş, altı.

– Bunu da al.

– Yaxşı, yeddi. Ha-ha-ha-ha... Qəhbənin it canı var, qanını soruruq, qurtarmır. Ha-ha-ha-ha...

Məhbus qadın artıq sözlərini də itirmişdi. Başı gicəllənirdi. Otaqda olan həkim qadın ilə agent qadın gah gözünün önündə şişirdi, gah neçə qadına çevrilirdi.

– İtin qızı. Səni it gününə qoyacağıq.

Sanki burda adamları it gününə qoymaq dəbdir. Bir az öncə agent qadın isə Həkim qadın ilə dalaşdığı zaman bu sözü deyirdi.

– Qəhbə...

Qadının əlindən kərpic çıxdığı zaman qışqırdı:

– Qəhbə...

Atılan kərpic qadın polisin başına dəydi, o, yerə sərildi. Arxadan yetişən kişi polislər qadını zopa ilə xiyabanın ortasında döydülər. Qadın yerdə qan içində boğulurdu. Hələ də gözləri qızını axtarırdı. Gözləri camaata sataşdı. Camaat gözündə qoyuna çevrilmişdi. Sanki qoyunları hasarın o tərəfində saxlamışdılar, bu qoyunların dilini kəsmişdilər, mələyə bilmirdilər. Kişi polislərin bir neçəsi də yerə sərilən qadın polisin başının üstündə dayanmışdı. Yerdə ayağından sürünən qadın başını səkinin bu biri tərəfinə çevirdiyi zaman gözləri axtardığı nöqtəni tapmışdı. Kiçik qızı ağlaya-ağlaya dönüb anasına baxıb qaçırdı. Qadının gözləri zəiflədi, qaraldı, yumuldu. Bir də gözlərini açıb baxmaq istəyirdi. Gözünü açdıqda görə biləcək qabiliyyəti olduğuna əmin deyildi, kor olduğunu düşünürdü. Yavaş-yavaş, bir, iki, üç. Açdı. Kiçik qız qaçıb uzaqlaşdıqca qadının gözlərində daha çox kiçilirdi. Sarışın saçları dalğalana-dalğalana qaçırdı... Qaçırdı... Qaçırdı...

Qadın üzünün yerdə sürtülüb yaralandığı yaranı, zopa yerlərinin ağrısını unutmuşdu, gözləri sabit dayanaraq kiçik qızının qaçıb uzaqlaşdığı yola baxırdı.

Səhnəyə göydən baxsaydınız, daha aydın görünürdü. İki futbol topu kimi mütəhhəriksiz qan, bir sarı kərpic, bir çəhrayı rəngdə məktəb çantası, kitablar, qələm qabı, dəftərlər, iki sprey, toplanıb hadisəyə baxan dilsiz qoyunların qara saçları, müxtəlif rəngdə köynəklərinin çiyinləri, qaçan adamlar, polislər, polis avtomobillərinin mavi-qırmızı sirena işıqları. Şəhər bir-birinə qarışıbdır. Səkinin yanında olan baqqal bir vedrə su töküb qanı yuyur. Qan getdikcə sıvaşıb daş xalçalara yapışır.

Ax-ax... Getmə, dayan, səhnəni çək yaxına gətir. O nədir? Hə, qandır, mən də dedim bəs nədir, qadının yerdə sürtülmüş üzünün qanıdır. Qandır, qan, qan...

– Mənim qanımı neynəyirsiniz?

– Ha-ha-ha-ha...

– Qanını sorub içirik.

– Ha-ha-ha-ha... Şərbətdir elə bil, bəh-bəh.

Baqqal bir vedrə də su töküb mızıldandı:

– Mürəbbədir. Qan deyil ki, mürəbbədir elə bil.

Agent qadın qan dolu bir şüşəni əlinə alıb məhbus qadına göstərərək: “Qan deyil ki, mürəbbədir elə bil.” – deyib həkim qadına üz tutdu.

Qadını mikroavtomobilə mindirdilər. Həzyan deməyə başlamışdı:

– Qızım. Hardasan? Qammalar. Dalğalar. Bayraqlar. Sarışın. Qızım. Saçlar...

Artıq gicəllənməyin sonuna çatmışdı. Bu qədər qan əldən verəndən sonra iki qadının gülüş səsini eşidirdi. Sayıqlayırdı:

– Qanım... Qızım... Qanım dalğalanır... Qızım rəqs edir...

– Ha-ha-ha-ha...

– Mən... Ölürəm... Bayraqlar... Rəqs eləyir... Qızım... Qammaların üstünə yel əsir.

– Yox, yox. Ölmə, sən ölsən, biz yaşaya bilmərik.

– Ha-ha-ha-ha...

– Mən ölürəm, qızım... Ölürəm... Ölürə... Ölür... Ölü... Öl... Ö...

– Ha-ha-ha-ha...

– Ha-ha-ha-ha...

– Rəisə zəng elə. Ha-ha...

Həkim qadın həddən artıq güldüyünə görə gözlərindən yaş axırdı.

Agent qadın mobili dinamikə vurub həkim qadına üz tutdu:

– Bu bizim dərəcəni nə zaman verəcək? Ha-ha-ha...

Yuxudan təzəcə oyanan bir şəxs telefonun o tayından səsləndi:

– Alo, buyur, eşidirəm.

– Alo, rəis, qurtardıq.

– Cəsədini qızı ilə bir yerə qoyun, limana göndərəcəyəm.



## İnqilab ORXAN

**UZAQLARA GEDİRƏM Kİ...**

Bir bax, yenə külək əsir
ömrün  ötən illərindən.
Nə yaman kəsif iy gəlir
sevdamın yanıq yerindən.

Qıpqırmızı güllər kimi
qan verib qızarır yaram.
Bu xoralı şeirimi də
qızıl qanımla yazıram.

Ürək qalxır, baş gicəlir
bu qara qan qoxusundan.
Lent kimi quruyur qanım
köynəyimin yaxasında.

***
O gülü sənə göndərdim,
amma  yaram mənə qalsın.
Uzaqlara gedirəm ki,
səni pis qoxu vurmasın.

**YIXILDIM, AMMA ÖLMƏDİM...**

Qaralırmı hərdən qanın,
darıxırsanmı arabir?
Bilsən köhnə məktubların
içimi  necə göynədir?!

Olubmu külfət içində
qalasan yalquzaq kimi?
Unutma ki, xəyanətin
kürəyimdə bıçaq kimi.

Yıxıldım, amma ölmədim,
sönmədi odum-ocağım.
Kürəyimdə dəlil kimi
gəzdirdim qanlı  bıçağı.

Özümə gəldim, dirçəldim, –
güvəndim Tanrı haqqına.
Doldu damarlarım, hətta
qan da  verdim qan bankına.

Möhkəm tutun məni, dostlar,
məhkumam dimdik qalmağa.
O qız gələcək bıçağın
dəstəyindən asılmağa.

## GÖRÜNMƏZLƏR GÜCLÜ OLUR

Allah, məni elə gizlət,
kimsə bilməsin yerimi.
Heç kim heç zaman tapmasın
ya  ölümü, ya dirimi.

Bilməsin dost da, tanış da
harda, necə yaşayıram.
Adammıyam, şeytanmıyam, –
görən, nəyə oxşayıram?!

Bəlkə, quşam – qanadım yox,
bəlkə, daşam, ya dəmirəm ?
Hər nəyəmsə, hamı kimi
ömür   sürmək istəmirəm.

Zəhərli ilanam, bəlkə,
sürünürəm  sənə sarı...
Sancmaq istəyirəm, bəlkə,
sənə  sarılan qolları?!

Məni elə gizlət, Allah,
bir kimsə görməsin, nolar?!
Özün yaxşı bilirsən ki,
görünməzlər güclü olar.

## ƏLİNDƏ BİR DƏSTƏ ÇİÇƏK

Göz yaşıyla şeir dedim,
hamı  sevinclə əl çaldı.
Mən dərdimi faş elədim,
hamının dərdi azaldı.

Bir zaman daş atanları
indi çiçək atan gördüm.
Dərdimi gülə tutdular, –
necə dəyərliymiş dərdim.

...Sən də durmuşdun arxada,
gözlərin yaşla doluydu.
Sənə gedən bu uzun yol
nə gedər-gəlməz yoluydu.

Əlində bir dəstə çiçək,
amma, deyəsən, solğundu.
Yanağından süzülən şeh
halına yaman uyğundu.

Gülləri bərk sıxdığından
əlin qana bulaşmışdı.
İçim od tutub yansa da,
məni soyuq tər basmışdı.

## BİZİM GETDİYİMİZ BU YOL

Ciblərini bir eşələ,
qurdala görək nəyin var.
Vaxta da lap az qalıb,
indi tərpənir qatar.

Bir bax, xanım bələdçi
yoxlayır biletləri.
Vaqonların altında
sevişir vağzal itləri.

Kişilər mərifətlə
qadınlara yol verir.
Yanaşıb yolçulara
dilənçi qız yalvarır.



Qızın lir-licimindən
iyrənir nazlı qızlar.
Dünya dönsə də, toxlar
acları anlamazlar.

...Eşələ bir ciblərini,
xırda pulun oldu, bəlkə.
Bizim getdiyimiz bu yol
qız gələn yoldu, bəlkə!

## ALLAH, TƏKİ ÜMİD VER...

Bu iylənmiş dənizə
qarmaq atıram, qarmaq.
Vallah-billah, ümidsiz
olmur evdə oturmaq.

Yaşayıram pis-yaxşı
bir ömrün girovunda.
Günümü keçirirəm
hər gün balıq ovunda.

Qarmağıma ilişən
hər balıq bir ümiddi.
Boş çıxarsa qarmağım,
demək ki, ümid itdi.

Zatən, çox kiçik olur
tutduğum balıqlar da.
Allah, təki ümid ver,
lap olsun xırda-xırda.

Eybi yox, qoy günlərim
beləcə də ötüşsün.
Ümid var qarmağıma
bir gün balina düşsün.

## O ZAMAN DUZA GEDİRDİN...

Burnunun yelli vaxtında
qapımı çırpıb getdin.
“Dünya dönsə də, qapını
heç vaxt açmaram” – demişdin.

İndi, budur, – qapımdasan,
baxa bilmirsən üzümə.
Nədənsə, bu vurhavurda
burnun sataşır gözümə.

Əcəb ovulub, deyəsən,
o zamankı o dik burnun.
Yada sal, o vaxt evimi
başıma necə uçurdun?!

O zaman duza gedirdin,
indi duz yükü altında.
Mən də çırpımmı qapını
sənin bu sınmış vaxtında?!

Bu dəmdə nəvəm sözləri
muncuq kimi düzür sapa:
“Nənəni çağıy içəyi,
buynu çox əzilib, – baba...





Bəhruz NİFTƏLİYEV

# BƏTN VƏ BATİN

Külək tozu ən acı həqiqət kimi onun üzünə vururdu. Hava elə hey uğuldayırdı. Bəlkə də, bu, içindəki kədərin səsi idi, bu payız bitmək bilmirdi...

"Ana, elə rahat, elə sakitəm ki burada... Yavaş-yavaş böyüdüyümü hiss edirəm. Ürəyimiz bir vurur, bir döyünür. Aldığın nəfəsdə, içdiyin suda mənim də payım var. Sənin bir zərrən olmaq gözəldir, ana".

Yatağına uzananda elə bildi ki, gecəylə birgə məyusluğu da ötüb keçəcək. Keçmədi. Səhər açılanda ürəyi tutqun hava kimiydi. Yenə sol tərəfi bomboş idi, həyat yoldaşı bu gecə də evə gəlməmişdi.

Boşluqdan boylanan saatda vaxt axırdı. Leylayla Laləni məktəbə yola salmalıydı, əyninə paltarını, üzünə təbəssümünü geyinib günə başlamalıydı.

Pərvin ilə Sahil bir təsadüf nəticəsində tanış olmuşdular. Halbuki, həyatda bütün təsadüflər zərurətdir. O gün gələn qəfil zəng Pərvini dəli etmişdi. Hövlnak özünü yol qırağında dayanan maşına atmışdı. Hönkürtü içində deyilən ünvanı Sahil apaydın necə eşidə bilmişdi, görəsən.

– Bacı, taksidəyəm, gəlirəm. Təcili yardım çatıb? Müjgan hanı bəs?

Yol uzunu etdiyi dualar, ömür boyu edilən yalvarışlardan qat-qat çox idi. Sahil bu "çağırılmamış qonağ"a necə təskinlik verəcəyini, nə edəcəyini bilmədən ünvana çatdırmışdı onu. Mühasib Sahil münasib taksiyə çevrilmişdi bir anda.

– Borcum nə qədərdir?

– Borcunuz yoxdur.

– Necə yəni?

– Mən taksi sürücüsü deyiləm...

Pərvin onun sözünü axıra kimi dinləmədən "əzbər bildiyi" yol pulunu oturacağın üstünə atıb maşından düşəndə gördüyü mənzərədən dəhşətə gəlmişdi. Darvaza taybatay açıq idi. Evin sonbeşiyi olan Müjganı qonşu arvadlar sakitləşdirməyə çalışırdı. Gülzar isə don vurmuş bənövşəyə dönmüşdü. Bu üç bacının analarından başqa heç kimi yox idi. Düz üç il idi ki, zəhrimara qalmış xərçənglə güləşirdilər. Sonda yenə o qalib oldu.

Pərvinin ayaqları sözünə baxmadı. Yaxşı ki, Sahil vaxtında onun qolundan tutdu, yıxılmağa qoymadı Pərvini. Nə onda, nə də sonra....

Pərvingilin anası dünyasını dəyişməmişdən bir neçə gün əvvəl qızlarını başına toplayıb öyüd-nəsihət vermişdi. "Sizdən yerdən göyə qədər razıyam, hərənizi yüz oğula dəyişmərəm. Siz mənə həm qız, həm qardaş oldunuz. Atanız oğul arzusu ilə dünyadan köçdü. Nəvəsini görmək də qismət olmadı. Hansınızın oğlu olsa, atanızın adını qoyarsınız".

Pərvinlə Sahil bu hadisədən düz beş il sonra evləndilər. Amma bu beş il bacılar üçün təlatümlü illər oldu... Yaxşı ki, Sahil vardı. Hər çətin anda köməyə yetirdi. Amma yenə də asan deyildi. "Kaş bir qardaşımız olaydı" – ürəyində deyirdi Pərvin. Bəlkə də, bu qədər sahibsiz hiss etməzdik özümüzü. Əslində, Sahil ona həm də sahib çıxmışdı. Tək ona yox, elə bacılarına da. Amma indi yanında deyildi.

"Ana, elə istəyirəm tezliklə bacılarımın üzünü görüm. Tək onların yox, sənin, atamın... Görəsən, ən çox hansınıza bənzəyirəm?"

Hər dəfə evdə özünə yer tapa bilməyəndə məzarlığa üz tutardı Pərvin. Qoşa qəbri sığallaya-sığallaya göz yaşı tökərdi. Yeganə yer idi ki, Pərvin də, Gülzar da, Müjgan da burda özlərini rahat hiss edirdilər. Bu dəfə bacıları ilə yox, bətnindəki körpəsi ilə gəlmişdi Pərvin.

“Yerim daralır, əlim-ayağım sıxılır. Nə baş verir, ana? Sən yaxşı deyilsən?”

Nə edəcəyimi bilmirəm, istəmirəm mənim qızlarımın taleyi bizimkinə bənzəsin. Ata, sən çıxıb gedəndən sonra bizim üçün çətin oldu. Ən çox da “başsızdılar” kəlməsi toxundu bizə. Əmilərimdən də səs-səmir gəlmədi. O üç qardaşından biri bizi itirib-axtarmadı. Yetən bizə “yiyəsiz” dedi. Evdə nəsə xarab olanda usta çağırmağa da çəkinirdik. “Adımıza söz gələr” qorxusu ilə o qədər çərçivəli yaşadıq ki, gəncliyimizdən xəbərimiz olmadı. Hələ anam nələr çəkdi, bir bilsən? Səni yol qəzası, anamı isə kor qədəri apardı. Məktəbimizin direktor müavini Gülzara tamah salanda yazıq bacımın heç 15 yaşı tamam olmamışdı. İdman zalının geyim otağına çağırılanda Gülzarın ağlına da gəlməzdi ki, bu onun məktəbdə sonuncu günü olacaq. O kirli çaynaqlardan necə qurtula bilmişdi bacım, bir Allah bilir... Məktəbimizi də dəyişdik, səmtimizi də, amma yaddaşımız ki yerində idi, ata. Ürkəkliyimizin üstünə kabus kimi qorxular yüklənmişdi. Daha heç kimə inana bilmirdik. Ən çox onda “Kaş atam sağ olaydı”, – dedim. Bilirsən, ata, Gülzar o hadisədən sonra ağlamaq hissini də itirdi. Anamızın yasında da gözündən bir damla yaş çıxmadı. İndi Gülzarla Müjgan bir-birlərinə həyan olub yaşayırlar. Heç birinin ailə qurmaq fikri yoxdu. Ana, bunu heç sən də bilmirsən. Müjganın sevdiyi biri var idi. Birdənbirə ayrıldılar... Axı Müjgan təhsil alırdı, jurnalsit olmaq istəyirdi. Arzuları ilə sevgisinin arasında seçim etməyə məcbur qalandan sonra həyatı da, fikirləri də dəyişdi. İndi bir məqsədi var, sözü kəsərli, cəsarətli, tanınmış jurnalsit olsun.

İçimizdə bir Müjgan sənin arzunu yerinə yetirə bildi, ata. Mən də ki Gülzarla birgə anamın sənətini davam etdirirəm. Balaca bir atelyemiz var. Hər ölçüyə biçim verməyi bacarıram, bir özümə sığa, sığına bilmirəm.

“Bilirsən, ana, bura çox qaranlıqdır. Amma deyirlər, siz tərəfdə işıq, buludlar, göy qurşağı, yaşıl otlar, dənizlər, çaylar var. Mən də onları görmək, sevmək istəyirəm, ana. Ən çox da köksünə sığınıb qoxunu almaq istəyirəm...”

Xəzərin sahili yerində idi. Pərvin isə yersiz-yurdsuz hiss edirdi özünü. Dünənə nisbətən hava xoş olsa da, əhvalı daha betər idi. Hər keçən dəqiqə Pərvin daha dərin məngənənin içində hiss edirdi özünü. Ayaqları onu İçərişəhərə gətirmişdi. Öz iç dünyasına səyahət idi bu həm də. Sahillə tez-tez gələrdilər bura. Hələ bir dəfə qışın oğlan çağında Pərvin necə yıxılıb özünü əzmişdisə, Sahil maşına qədər Pərvini qucağında aparmışdı. Necə xoş bir duyğu idi o, İlahi? Onun qolları arasında İçərişəhəri dolaşmaq... Canındakı ağrıları da unutmuşdu Pərvin... Sevdiyi adamın qoxusunu, nəfəsini hiss edə-edə Qala divarlarının yanından keçmək onu xoşbəxt edirdi. Bəs indi? İndi isə oturub bir yerdə qalmaq, zamanı dayandırmaq istəyirdi Pərvin.

“Dur gedək gəzək, ana. Mən sakitliyi xoşlamıram. Sən yeriyəndə mən də özümü yaxşı hiss edirəm”. Pərvin bətnini sığallaya-sığallaya xəyallardan ayılıb gözlərini sildi. “Mən bunu etməliyəm”, – deyib qəti addımlarla xatirələrini də, İçərişəhəri də tərk edib taksiyə əyləşdi. Telefonunda kiməsə zəng elədi:

– Həkim, mən qərarımı vermişəm. Danışdığımız saatda ordayam.

Sonra tələsik mesaj yazdı:

“Sahil, bəlkə də, bundan sonra mənim üzümə heç vaxt baxmayacaqsan. Bəlkə də, bu bizim sonumuz olacaq, amma mən buna qərarlıyam – üçüncü bir qız uşağını bu boz dünyaya gətirmək istəmirəm. Başa düş, qorxuram! Sənə bunu deyən gün qapını çırpıb getdin. Mən də belə ana, belə qadınam – aciz, qorxaq, cahil! Səndən də, Leyladan da, Lalədən də üzr istəyirəm”.

Mesaj da, taksi də ünvanına çatmışdı.

“Yox, ana, yox! Mən yaşamaq istəyirəm. Nolar, ana, əlimdən həyatımı alma, yalvarıram. Sənə qız da olaram, oğul da!”

Zaman keçmək bilmirdi. Leyla da, Lalə də o qədər xoşbəxt idilər ki. İndicə qapı açılacaq, neçə gündü həsrət qaldıqları analarını görəcəklər. Sahil isə elə bil göyün yeddinci qatında idi.

“Ata, bax, anam gəlir”, – deyib Leyla anasına tərəf qaçdı. Lalə də ondan geri qalmadı. Pərvinin qucağı bir anda gül-çiçəklə doldu. Sahil isə öz yeni körpəsini əzizləyirdi.

Leyla ilə Lalə ad barəsində çox fikirləşmişdilər. Qardaşları olsaydı, babalarının adını daşıyacaqdı: Yaşar! Amma bacılarına adı çox çətinliklə tapmışdılar.

Pərvin abort masasına hazırlaşdığı vaxt telefonuna gələn zəng onu ləngitmişdi.

– Bəli, Pəri xala, nəsə olub?

– Yox, qızım. Uşaqlar danışmaq istəyir.

– Ana, ana, Laylay... biz bacımıza ad tapmışıq...

– Eşidirsən, ana?

– Hə, qızım.

– Biz istəyirik ki, bacımızın adı Layla olsun. Hər ikimizin adına uyğun.



Xuraman HÜSEYN

**ƏLLƏRİN**

Hər dəfə
əllərin toxunduqca yanaqlarıma,
sildikcə göz yaşımı
utandım onlara əzab verməkdən.

təbəssümün düşməni kədər imiş –
gündüzdən qorxan yarasa kimi gizlənər o
gülümsəsən,
günəş doğsa qəlbində...

Gülə bilsən,
silahın qəhqəhələr olsa,
əliyalın düşmən kimi geri çəkilər
kədər...

gülüşüm gözlərimə qayıtdı,
qaranquş öz yuvasına qayıdan kimi.
əllərin unutsun göz yaşımı,
sərçələr qürbət elləri unudan kimi...

**AĞ SAP**

İlk dəfə
qara köynəyinin düyməsinin
ağ sapla tikilməyindən bildim
evinin
qadın əllərindən ötrü darıxdığını...
Sonra mənə hədiyyə etdiyin kitabların tozu
və
saralmış vərəqlərdəki tənhalıq qoxusu
anlatdı həyatını...

Ürəyim sənindi,
bilirəm,
saçlarım,
gözlərim,
ruhum...
Amma daha çox əllərim sənin olsun, istəyirəm...

Saçını tumarlayar,
süfrə bəzəyər sənə
əllərim...
Bir də
qara köynəyinə
qara,
ağ köynəyinə ağ sapla tikər düymələri...

**YAĞIŞ GECİKƏN KİMİ**

Bir-birimizə gecikdik,
yarpaqları saralan
budaqları quruyan ağaca
yağış gecikən kimi…
Göy üzü bir az tez tutulaydı,
buludlar gecikməyəydi
mehriban olmağa…
Birimiz tez çıxaydıq evdən,
birimiz gecikəydik,
təsadüfən rastlaşaydıq,
qağayıya dönəydik...

Görüşəydik dəniz yurdumuzda,
zaman bu zaman olmazdı,
illər də bu illər...
Nə sən ruhuna xəyanət edəydin,
nə də mən.
sevəydik bir-birimizi
qağayılar dənizi,
dəniz qağayıları sevən kimi…

Yazdığın şeirin
son misrası mənəm,
nöqtə qoya bilmirsən,
birdən ardını yazarsan deyə,
Bir zərrə ümidin qalıb –
bəlkə, işığı
geri qayıtmam üçün
yollarımı aydınladar deyə...

**O YOL**

Bu yolun başlanğıcı
o yolun bitdiyi yerdi.
o yol mənim gəldiyim,
sənin getdiyin yerdi.

biz o yolda qarşılaşmalıydıq,
mən gəldim,
sən getmədin...
orda bir yol yoruldu –
səni gözləməkdən,
məni gözlətməkdən...

**SAMAN ÇÖPÜ**

Bulud aldı göy üzünü, batdı yenə günəşim,
Ruhumdakı son ümidi əsən yellər qopardı.
Mənim işim səninlədi, başqasıyla nə işim?
Saman çöpü, səni sular məndən əvvəl apardı.

Saman çöpü, sən də getdin, söylə, indi neyləyim?
İlk evimiz beşik olur, son evimiz də məzar.
Dayağım yox bu dünyada, kimə ümid eyləyim?
Dost da bəzən düşmən olub adama quyu qazar.

Əl uzatdım, əllərimi düşmən kimi sıxdılar,
Saman çöpü, de, hardasan? Səni gəzir əllərim.
Mən onları dost sanırdım, onlar düşmən çıxdılar,
Boğuluram, səndən başqa yoxdur bir ümid yerim.

**SON VAQON**

O gedən qatarın son vaqonu
sənin ürəyindi:
bomboş,
soyuq...
Arada ürəyindən xəbər tut,
hörümçək tor qurar
mənsizlikdən...

**TAXT-RƏVAN**

Qara buludlar
mürəkkəb kimi yayılıb
göy üzünü gizləmişdi
zülmətin bətnində.
Nə qədər baxsam da,
nənəmin sönən ulduzunu
görə bilməmişdim...
Tez-tez cilddən-cildə girib
şəkildən-şəklə düşən buludları
nağıllarda təsvir olunan
taxt-rəvana bənzətmişdim
həmin gecə.
Elə bilmişdim ki,
bu “taxt-rəvan”da
başqa buludlara qonaq gedib
nənəmin ruhu...
Həmin gün –
nənəm günəşdən qaçıb
qara torpaqda gizlənən gün...

**ÖMÜR**

Sənə yaxşı yol arzulamıram, ömür!
“Getmə” də demirəm,
bilirəm ki, yol üstəsən,
gedəni saxlamaq olar,
amma səni olmaz,
heç olmaz!
Yol üstəsən,
gedirsən saniyə-saniyə...
Qorxuram ki, sözüm düşəcək yerə,
peşman olacam.
Hələ ki hiss etmirəm
getməyini,
nə vaxtsa
onu da hiss edəcəm...
Naxələf ömür,
arzularımızı
ürəyimizdə qoyan namərd!



Əlizadə NURİ

# VER SÖZƏ EHYA Kİ...

Ədəbiyyat və Əbədiyyət sözləri arasında təkcə söz oxşarlığı, forma yaxınlığı yox, həm də ciddi bir mahiyyət, məna oxşarlığı, linqvistik qohumluq axtarmaqdan özümü saxlaya bilmirəm. Əbədi olmayan hissin, duyğunun, obrazlı təfəkkürü ifadə edən sözün Ədəbiyyatın içində nə işi? Əbədi olmayan Ədəbiyyat da deyil, – olsa, bu, nonsensdir!

Ədəbiyyat bəzən illüzor, utopik xoşbəxtliklər vəd etsə də, hər halda, cəzbedicidir. Çörçilsayağı yanaşsaq, axı ondan yaxşısı da yox hələ!

“Heç bir insanın ömrü Bodlerin bir misrasına dəyməz” deyib Akutaqava. Öz təlatümlü fiziki ömrünü poeziyayla harmoniyada keçirən Bodlerin bir misrası neçə-neçə “obıvatel”in, ömrünü “zövqü-səfa”da keçirən meşşan xislətlərin ömründən üstün deyilmi?

Ərəblərin bir sözü var: “Məna arı bətin hinar”, yəni hər bir şairin, sözün içinə hopmayan, pünhan saxlanılası sirri də olmalıdır. Bir gün mən də özümə və yaxın çevrəmə söz verdim ki, daha şeirin daşını atacam. Bəzi sirlərimi özüm üçün saxlayacam. Ancaq şeirin “daşı” çox ağır imiş – onu atmağa gücüm çatmadı...

Bir sevgi şeirimdə deyildiyi kimi:

Nə yaxşı, unuda bilmədim səni –
Nə yaxşı, durmadım sözümün üstə...

İfrat dərəcədə özümdən razı adam olmasam da, heç təvazökar da deyiləm (ona görə yox ki, indi təvazökarlıq dəbdə deyil). Məncə, sənət adamı daxilən saf, mükəmməl olmalıdırsa, bu, onun zahiri görünüşünə də nüfuz etməli, zahiri xoşluq, daxili məmnunluq yaratmalıdır. Sənət adamı kasıb olmalıdır moizəsi, Markes demişkən, əclafların fikridir (necə ki, nasionalizm əclafların son sığınacaq yeridir).

Həyat kimi, ölüm də poeziyanın ədəbi mövzularındandır. Qədim Zen-buddist fəlsəfəsində belə bir fikir var: “Həyatımız uzun ölümümüzdə qısa fasilədir”. Yaradıcılıq bir az da öz gücünü ölümdən alır. Həyat insanın nazını çəkdiyi kimi, insan da ölümün nazını çəksin gərək!

Qəribə səslənməsin: Fikrimcə, insan elə bir həyat yaşamalı ki, ölümə layiq olsun! İnsan bəzən bu dünyada axtardığı sakitliyi, rahatlığı gedib ölümün ağuşunda tapır... Həm də axı Puşkin demiş:

"Dünyada xoşbəxtlik yoxdur, azadlıq və rahatlıq var". Bir də hələ 740 il əvvəl böyük Mövlanə deyirdi: "Onun adına ölüm deyib bizi qorxutmayın, onun ki adı qovuşmaqdır; haqqa, Tanrıya qovuşmaq!"

Nəbadə bu fani dünyada "tamah"a tamah salasınız:

Dərdi dünya olanın
Dünya boyda dərdi var.

"Dahi şairlərin olması üçün dahi oxucular lazımdır" – unutmuşam bu kimin fikridir, amma hər halda, müəlliflə mübahisə edərdim. Dahi oxucuların olması dahi əsərlərin yaranmasından sonrakı mərhələyə aiddir. Əslində, ədəbiyyatın "Xam torpaq"larına elə bədii toxum əkmək lazımdır ki, yetişən məhsulun alıcısı (oxucusu) çox olsun. Həm də ədəbiyyat elə müqəddəs "qab"dır ki, ağzınacan dolu olsa belə, (gözəl əsərlərlə) o qaba qiymətli nəsə qoymaq istəsən, qabda mütləq yer tapılacaq!






Bayaq ölümdən danışdıq, təxminən "ölüm bir qadın kimi dünyaya sığal çəkir" – dedik, ədəbiyyat da insan ruhuna, hiss və duyğulrına, əxlaqına sığal çəkən fövqəl və xarüqəladə bir hadisədir, ilahi bir ştampdır...

Bu illər ərzində nəyi dərk etdim? Dərk etdim ki, Tanrının yanından gələn Sözün ayağına durmaq lazımdır! Mövlanə demişkən:

Aqil odur, yazıb qoya bir əsər,
Bir əsər qoymayanın yerində yellər əsər...

Puşkin "poeziya əxlaqdan ucadı" deyirdi. Amma bu o demək deyildi ki, poeziya əxlaqsızdı. Əksinə, poeziya bütün əxlaqi göstəricilərin, mənəvi dəyərlərin barometridir. Əxlaqdan kənar yerdə ədəbiyyat yoxdur! Yoxdur!..

Eşq uğrunda ölmək özü eşqdi!.. Yox, mən sizi eşq uğrunda ölmək yox, yaşamaq üçün ədəbiyyatın kölgəsinə çağırıram...

**P.S.Azərbaycan şairi Əlizadə Nurinin həyat və yaradıcılığı haqqında Türkiyənin paytaxtı Ankarada kitab çap olunmuşdur. İlkin Qulusoyun və Həbibə Ayın həmmüəllifi olduğu kitab "Çağdaş Azərbaycan şairi Əlizadə Nurinin şiir dünyasına yolculuq" adlanır.**



Aysel FİKRƏT

# KAKTUS ÇİÇƏYİ

İlk dəfə gəlin getdiyim evin eyvanındakı kaktus çiçəklərindən anladım: gəlin getmək, əslində, çox yad bir duyğuymuş. İnsan da özü öz ayağıyla doğma evindən, sevdiklərindən çıxıb gedərmi? Hara qədər? Qəti bunu qəbul etmədən ilk gündən içimdəki üsyanı qıraqdan izləməyə başladım. Gəlin getməyin ilk dəfə şəxsiyyət ikiləşməyini yaradan psixoloji xəstəlik yaratdığını başa düşdüm.

İlk dəfə üstümə gələn, məni anlamayan, başqa duyğuları daşıyan insanları öyrənməyə başladıqca anladım; əməlli-başlı həyatın dibinə yuvarlanıram, ətrafda bir saman çöpü belə yoxdur. Gəl, – deyə haradasa uzaqdan bir doğma səs mənə kəndir uzatdı. Kəndirə sarılıb yuxarı qalxırdım ki, yuxudan qapı döyülməyinə oyandım. Qapının arxasında bir sürü adam saat səkkizi keçmədən ayağa qalxmalı olduğumu sübut etdilər. Baxışlarıyla qapını göstərib, nəyəsə eyham vurdular. Çox keçmədən əlimdə bir sürü əşya həyətdə donub qalmışdım. Ətrafda bir yığın toyuq-cücə kəsiləcəklərini gözə alıb həyata sığınırdılar. Sonra gözlərimə inanmadım; çox keçmədi, qonşu evlərdən mənim kimi ayaqlarını sürüyə-sürüyə gəlinlər çıxdı. Əyinlərindəki geyimin mənə nəyisə xatırlatdığını yəqin etdim. Sonra bir özümə, bir də onlara baxdım. Eynisi idi. Qapıdan bizi izləyirdilər. Heç kim özünü itirmirdi, hamı bir nəfər kimi xalçaçırpanı xalçaya çırpırdı. Hər çırpanda sanki burada hədər gedən boş günləri kötəkləyirdilər. Anladım ki, gəlinlik hərbi vəzifədir – öz geyimi, öz qanunu olan.

Yaşasın azadlıq! İlk evdən çıxdığım günü heç unutmaram. Günəşli bir gün idi. Adını bilmədiyim xalalar, bibilər... Hamısını bir-bir qucaqlayıb öpmək istəyirdim. Poçt idarəsinə ərimdən gələn məktubu almağa getmişdim. Sən demə, bu məhəllədə bütün qadınlar ərlərini toy səhəri köçəri quş kimi göyə uçurdub yazda yolunu gözləyirlərmiş…

Bu məhəllədə toylar payızda olur. Hər gün səhər o gəlinlərin geyimlərindən tutmuş, göz yaşlarına qədər eyniləşdiyini görüb ağlımın yerindən oynayacağından çox qorxurdum.

Onlardan bir damla belə fərqlənmirdim. Nə yaxşı ki, bir kimsə bir kimsənin beyninin içinə girmir. Mənim fərqim içimdə idi. Hər an özümü ayıldırdım – yox, sən eyniləşmə, – deyirdim, nə edirsən-et, bu axına düşüb getmə. Gözümün önünə məni yola salarkən atamın göz yaşları gəlirdi. Gəlin köçmək bu dünyadan köçməyə bənzəyirdi: sən gedər-gəlməzə gedirsən. Öz evinə dönüş yoxdur. Artıq sənin xəyalınla yaşayırlar. Hamı səni unudur, xatırlamır.

Qız uşağı qurbanlıq kimi bir şeydir. Dönüşü yoxdur. Hərdən o qadınların əri gəlirdi. Məhəllənin səssizliyi pozulurdu; haradasa biri arvadını döyürdü. Mən də xəyalımda o qadını zalım ərinin əlindən alırdım. Onu öldürürdüm. Heç düşünməzdim ki, insanlıqdan uzaq, qəddar, qorxulu hisslərin hamısını burada öyrənəcəyəm.

Mənə sevgi haqqında bir sürü yalan demişdilər. İlk dəfə "sevirəm" sözünü məhkəmə zalında eşitdim. Boşanma kürsüsündə ərimi beşinci dəfə idi görürdüm. Hakim mənə sual verdi:

– Boşanma səbəbiniz?

Uzun bir danışıqdan sonra: həyatıyla barışan qadınları ordan qurtarın, - dedim. Hamı mənə gülürdü, hakim də:

– Bu nə düşüncədir?

– Xanım, ailə qurmaq sevgidən doğulan və insanlar üçün önəmli olan bir dönəmdir. Siz nə ilə mübarizə aparırsınız? Bir kimsə evlənməsinmi? Əgər sizin uğursuz evliliyiniz olubsa, hamı boşansınmı?

Azadlığıma qovuşduğum gün bərk soyuq idi. Hər tərəf ağappaq qar... Evimizə qədər qaçdım. Saatlarca qapımıza baxdım. Sonra yavaşca qapını döydüm. Qapını mənə açan elə özüm idim. Gözlərində sevinci itməmiş halımla gülümsünürdüm. Əllərimi saçlarıma çəkib bağışla, – dedim. Gözləri dolmuşdu, sevinirdi. Üzümü çevirib getdim...

Yol həmişə ümid verir. İnsanın heç bir yerdə yeri olmayanda yol getmək istəyir. Nə qədər yol getdimsə, ardımca əl edən o qadınları unuda bilmədim. Onlar mənim içimdə böyüdülər, oğul-uşaq sahibi oldular, qocaldılar, öldülər. Əsla unudulmadılar. Elə indi də dediyim o məhəllə var. Orada qadınlar payız nübarından dadıb arzularından əl çəkirlər. Onların hamısının pəncərəsində kaktus çiçəyi olur.

# MƏSCİDİN DƏLİSİ

Allahın tanımadığı evi olmaz. Yerin özü də Onun evidi. Bax sənin də, mənim də nə etdiyimizi, harda olduğumuzu bir o Yaradan bilir. Nənəsi Abdullanı belə böyütmüşdü. Onun süngüyə gedən dilinə qurban, sadağa gedə-gedə. Sübh namazında: "Ay Allah, bu balamı da qat bu dünyanın uşaqlarına. Axı mənim bu dünyadan yanına köç edən, mələk qızımın nə günahı var idi ki, onun uşağının dili lal ola. Ay Allah, bu uşağın dilini aç. Onun da, bəlkə, Sənə sözü var". Güllü yorğanlardan gələn gülab iyinin gözəlliyində böyümüşdü Abdulla. Bir gün də tezdən oyanıb "Nənə" – demişdi Abdulla. "Ay nənə..."

Abdullanın dilinin açıldığı gün nənəsi o dünyaya köç etdi. Abdulla ölümün nə olduğunu görməmişdi. Saatlarca nənəsinin yanında oturub onu oyandırmaq üçün səslər çıxarmışdı. Abdulla özü də anlamadan sözlər deyirdi. Ac idi, susuz idi. Qonşu Zibeydə gəlməsə, bəlkə də, Abdulla da ölüb gedəcəkdi. Qonşunun hay-küyünə adamlar yığıldı. Abdullanın nənəsini harasa apardılar. Abdulla nənəsiylə dua etməyə getdiyi evin ta yanında torpaq qazıldı. Abdulla nənəsinin torpağa əkilməsini gözüylə gördü. Onda onun gözləri böyüyüb dünyanı aşdı. Abdulla bu dünyanı hələ bu günə qədər belə aydın görməmişdi.

Nənəsinin dua etmək üçün onu gətirdiyi məscid adamla dolu olardı. İsti idi. Yerə xalçalar, yorğanlar döşənmişdi. Nənəsi tez-tez Abdullaya "Gözlərini yum, bala, yat. Yuxuda sənə şəfa verilər", – deyərdi. Abdulla çox yorulmuşdu. Adamların arasından qaçıb məscidin içində bir sakit yer tapıb uzandı. Gülab ətri verən yorğanı üstünə örtüb nənəsinin sözlərini bir də düşünüb yatdı.

Kəndin adamları onu məsciddə tapanda çox kövrəldilər. Bu gecə ona dəymədilər. Səhər azan səsinə oyanan Abdulla bir daha evinə getmək istəmədi.

Hər gün obaşdan oyanıb ətrafı səliqəyə saldı. Su daşıdı. Nənəsinin qəbrinin yanına su tökdü. Hər dəfə su tökdükcə bir az böyüdü Abdulla. Axırda böyüyüb 19 yaşında bir gənc oldu. Kənddə hamı sevərdi Abdullanı. Təkcə Ağgüldən başqa. Uşaqlıqdan bəri gözünün tutduğu bu qız Abdullanın onun üçün dərdiyi gülləri yolun düzünə səpələyib "məscidin dəlisi" deyib qaçmışdı bir dəfə.

O gündən Abdulla heç ağıllı olub bir kəlmə deyə bilmədi. Lal baxışlarla, ağzından çıxan bir-iki sözü də içində susdurdu.

Abdulla nənəsindən sonra sığındığı Allahdan, bir də Ağgüldən başqa bir həqiqət tanımırdı.

Məscidə baxan Hüseyn kişi də deyirdi, ay kişi, Abdulla olmasa, bu məscidin halı necə olar. Abdulla səhər durub həyətin bütün işlərini görərdi. Darvazanı açar, insanlara yardım edərdi. Dua üçün gələn xəstələri əlində daşıyar, qocalara su verərdi. Abdullanın başqa yönü yox idi. Abdulla üzü Allaha böyümüşdü. Dua vaxtı minbərin altında oyuq kimi bir yer tapıb gizlənərdi. İnsanların diləklərini Allahla bir eşidərdi Abdulla.

Heç kimin onu görməyəcəyindən əmin olub yerini rahatlardı. O, qonşu Zərbəlinin Allaha pənah gətirib, “Ay Allah, sən günahımdan keç” deməsinə xeyli gülmüşdü. Zərbəli bu kəndin mal-qarasını, kasıbını talayan qumarbazın biri idi. Abdulla gülür, gülür, səsini içinə qısa bilmirdi. Zöhrəbəyim qarının “Allah, bilmirəm bu insanlar mənim lal canımdan, dilsiz-ağızsız canımdan nə istəyir” deməsinə lap qəşş etmişdi. Çünki bu məhəllənin uşaqları, böyükləri Zöhrəbəyimin davalarıyla böyümüşdü.

Abdulla burda nələr görmüşdü, nələr... Dostunun malını yeyib iman istəyəni, ev dağıdıb aman istəyəni... Hərdən Abdulla ağlardı, Pakizə ananın xəstə canına, qonşusu Ağcanın itkin oğluna, Qasımın evsiz-eşiksiz, küçədə qalmağına.

Hərdən də qəzəblənirdi sələmçinin, imansızın bura gəlişinə. Onda Abdulla əlində olan xırda daşları göydən atardı. Günahlılar onun məscidində çox qalmasın deyə.

Gecələr nənəsinin qəbrinin daşını öpüb, qoxlayıb yenə məsciddə yatardı. Bu minvalla Abdullanın gülüşü, göz yaşı da insan diləyi idi.

O günə qədər ki Ağgül məscidə gəldi...

O gün Abdulla məscidin həyətindəki gülləri suvarırdı. Qapıda Ağgülü görüb yerində dondu. Əlində satılı, ayağının altında daşı hiss etməyib yıxıldı. Üst-başı su içində, Ağgüldən qaçıb oyuqda gizləndi. Ağgül yaxasından bir məktub çıxardı. Gözəl sinəsində tövşüyən ürəyinin sanki səsi eşidilə-eşidilə “Ay Allah, – dedi, – məni bu məktubla aldatdılar. İndi mənə ölüm yaraşar”.

“Bu məktubda o qədər gözəl sözlər var idi. Məni aldatdılar, – deyib dizlərini yerə qoyub ağladı. – Mən kirləndim. Mən sevginin belə eybəcər olduğunu, o yaraşıqlı oğlanın gözlərinin belə iyrənc olduğunu bilmirdim. Bilmirdim, ay Allah. Ölməliyəm, bilirəm. Yalnız Sən məni bağışla. Keç günahımdan”.

Abdulla heç nə anlamasa da, Ağgülün göz yaşlarına dözmürdü. Ona qoşulub xeyli ağladı. Ağgül hıçqırıq səsi eşidib qaçdı. O gecə qardaşı Ağgülü ölüncə döydü. Ağgülün səsi, naləsi bütün kəndi bürümüşdü. Onu aldadan oğlan da çoxdan qaçıb getmişdi. Ağgül qaçıb gedəndə Allahın evində unutduğu məktubu oxuya bilməsə də, Abdulla onu bir dərd kimi qorudu. Abdulla özü də bilmədiyi bir ürpəntinin ona verdiyi “daha Ağgülü sevə bilməzsən” acısında üşüyürdü... Amma onu sevməyə bilmirdi. Abdulla bir səhər oyanıb nənəsinin qəbrini bağrına basıb getdi... Danışa bilməsə də, son dəfə Allahın dərgahında azan çəkdi. Var səsiylə üzü göyə inildədi. Ürəyində bir söz gizləmişdi, onu heç vaxt demədi... Bir gün də nə su vedrələri, nə ağaclar, nə qəbirlər, nə minbər sevindi. Allahın lütfü düşən bu evdə Abdulla qədər işıq azaldı. Abdulla getdi. Allahın tanımadığı evi olmaz. Yerin özü də onun evidi. Bax, sənin də, mənim də nə etdiyimizi, harda olduğumuzu bir o Yaradan bilir. Nənəsi Abdullanı belə böyütmüşdü. Onun süngüyə gedən dilinə qurban, sadağa gedəgedə. Sübh namazında: “Ay Allah, bu balamı da qat bu dünyanın uşaqlarına. Axı mənim bu dünyadan yanına köç edən mələk qızımın nə günahı var idi ki, onun uşağının dili lal ola? Ay Allah, bu uşağın dilini aç. Onun da, bəlkə, sənə sözü var”.





## Süleyman ABDULLA

### YOL ŞEİRİ

Hər sabah bir günü salıram yola,
Artan yaşımızdır, azalan ömür.
Uzanır gecələr getdikcə zaman,
Gündüzlər gödəlir... və qalan ömür.

Sərinlik gətirir araya, dostum,
Taleyin boz yeli hansısa tindən.
Açıqdı pəncərə ürək qırana,
Baxırıq havanın sınan yerindən.

Kim qaldı son gündə əl uzatmağa,
Sənin də əvvəlki ərkin, havan yox.
Küsübdür ömrünün ağaran çağı,
Can dostu dediyin daha o can yox.

Qaldı bir işıqlıq nahar yeməyi,
Gəldik gözü toxdan, ürəyi toxdan.
Bu dünya dediyin vəfa acıdır,
Çoxları andını yeyibdi çoxdan.

Ad da tapmaq olmur xatırlamağa,
Yada da düşməyir unutmaq daha.
Əllərin üzülən vaxtıdır haqdan,
Əlidən qalmayıb əl tutmaq daha.

Çətindir bu ruhda yollara düşmək,
Dünən nə oldu ki, bu gün nə ola.
Düzdür, nə ümid var, nə vaxt sabaha,
Yenə də mən səni verirəm yola.

Gecikmə, toparlan işıq gözünə,
Mənə də bir vida edərsən, dostum.
Etibar eyləmək olmur heç kimə,
Keçib ürəyimdən gedərsən, dostum.

Canım sıxılanda əl sıxmıram mən,
Nə düşür tez küsüb gec barışana.
Bir zərrə nur qalıb, tükənməmişdən
Mən də üz tuturam şər qarışana.

Keçən üşütmədir ağ ciyərimdən,
Bir udum nəfəs də alıram yola.
Adam var bir ömür vaxtı öldürür,
Mənsə...
Hər sabah bir günü salıram yola.

## BOZ EVİN AĞ GECƏSİ

Sonra hamı susdu...
Daha hönkürmədi divar küncləri...
Nə vaxt qarışmışdı, yox idi bilən,
Axşamın xeyiri, sabahın şəri.

Şəkil çəkdirirdi sabaha sanki,
Donub divardibi qara kölgələr.
Unudub getmişdi gecə rəngini...
Sərsəm pəncərədən süzülürdü şər.

Hörümçək torları yuxulamışdı,
Tavanın gözündən axmırdı nur-zad.
Kədər sərilmişdi boz döşəmədə,
Xonçası çat qapı durmuşdu “azad”...

Külək oynadırdı əsən şüşəni,
Titrəyən pəncərə alaca idi.
Zorla nəfəsini dərirdi küçə,
Təngiyən nəfəslik balaca idi.

Dara çəkilirdi istidə daş yol,
Asılıb qalmışdı havada bürkü.
Aynalar əsirdi quş ürəyitək,
Paslı barmaqlığa qonmuşdu hürkü.

Arana düşmüşdü yolu atəşin,
Yanğı təbiətin nazı deyildi.
Payız sarısıydı üzü divarın,
Dərdin çiçəkləyən yazı deyildi.

Səsini çəkmişdi içinə dünya,
Gecə ağuşunda aldı qır damı.
Əvvəl külək idi o inildəyən...
Sonra…
Və susdu hamı...

## SÖZÜN AXŞAM BAZARI

Hələ soyuqların zamanı deyil,
Havalar istidir, aralar sərin.
Nə söz vaxtı çəkir, nə də vaxt sözü,
Bazar günü imiş tərəzilərin...

Heç vaxt düzgün olmur pulla ölçülən,
Birinin fəhmi var, birinin zəhmi.
Üz-üzə dayanıb halallaşmağa
Alanın pulqabı, satanın rəhmi.

Sözü ucuzluğa getməyək daha,
Qulaqla ölçülməz bu yerdə darı.
Kimə deyəsən ki, bazardır bura,
Olmur bazar günü axşam bazarı.

## ELƏ VAXT GƏLƏR Kİ...

Bu haqsız zamanın dəyişməyi var,
Yetişər çoxunun kiçilən günü.
Bir ömür şaqqanaq çəkəni ağlar,
Hıçqırıq boğanın gələr şən günü.

Arazın suları axar aşıqdan,
Topuq isladarıq yenə Kür boyu.
Hərənin ölümlük bir səbəbi var,
Mən sözdən ölmüşəm bir ömür boyu.

Vardır çox keçənin ümid hələsi,
İçilmiş çox andın amanı gələr.
O qədər dilək var vaxtı gələsi,
Bir də vaxt olar ki, zamanı gələr...

Üzü Xeyirəyik qarışanda şər,
İşığa çıxası var daha bir gün.
Bizim də yolumuz zülmətdən keçər,
Çıxar zil gecədən sabaha bir gün.

Bizim də haqqımız çatır xoş günə,
Yaraşmaz adama, eyləsə giley.
Zamanın təkəri dönər düzünə,
Elə vaxt gələr ki, dəyişər hər şey...



**QƏRİBİN QÜRBƏT ŞEİRİ**

Uzaqlardır ayrılığın ünvanı,
Hansı şəhər unudacaq adını?
Xəyalında şirin idi, gizlədin,
Damağında acıların dadını.

Yollar keçər gözlərindən dolama,
Toz dumanı lap axıra saxlayar.
Nə olsun ki gülümsəyir dan yeri,
Axşamüstü qürub xəlvət ağlayar.

Həsrət var ki, yaşamağa dəymir heç,
Öz yurdunda ölmək imiş ən çətin.
Doğma elin qəribliyi bir ayrı,
Bir başqadır sıxıntısı qürbətin.

Uçurumlar atılmağa yarayır,
Nəfəsini dərə adam son kərə.
Üz çevirib sinə dolu çəkə ah
Əlçatmayan, ünyetməyən yerlərə.



Kimsə yoxdu söyləməyə əlvida,
Əllərini az silkələ boşluğa.
Yad olarsan, yer olar ki, hamıya,
Öyrəşmək var hələ, hələ boşluğa.

Tanış gəlməz küçələrin cod adı,
Tənhalığı ya tanıma, ya tanı.
Yaxınlaşıb yad birindən soruş lap,
Uzaqlardır ayrılığın ünvanı.

**RƏNGLƏRİN ŞEİRİ**

Heç kəs yaşıl çıxmayacaq bu payızdan,
hərənin bir yarpaq tökümü var –
sarı, sarı, sapsarı...
Ağaran üfüqlərə nəfəsi çatmaz baharın,
bütün yağışların bir çiçək dövrü
və bir yapraq tökümü...
Yağdımı, bir daha dolmayacaq o bulud...
Eh, necə də aldanıb yüyürmüşük
ətəyimiz qum dolu
göy qurşağının arxasınca.
Haqqıx daşları kimi yağıb
başımıza qızıl almalar,
sel-su axıdanda ömrümüzü zaman-zaman...
Axının əksinə üzməlisən
almaları tutmaq üçün,
oysa ki, olmur,
olmur quyruğunu tapdalamaq əjdahaların.
Ağzından çıxan atəş qarsar canını,
içindəki yanğını hiss edirsənsə,
hələ udmamış səni
zəbanə çəkən alovlar, demək...
Qürubun sarısında bir payız məhrəmliyi,
üfüqlərin o biri üzündən əsən
bir sərin mehə susayar
pəncələrindəki yanıq izləri...
Elə o andan atılarsan
yarpaq yağışının şiləvaranına...
Öndə bir ağ işıq,
arxada sapsarı bir qürub...
Heç kəs yaşıl çıxmayacaq ömrünün qışına,
biləsən,
hər dövrün öz rəngi var,
gözlərin tumurcuqlayacaqsa bir daha....



Nurlana İŞIQ

# BURULĞAN

İşıq tut ağacının altında oturmuşdu. Kürəyini də ağacın gövdəsinə söykəmişdi. Başının üstündəki yarpaqlar yelpik olub onu sərinlədirdi. Üçrəng pişik də böyründə qıvrılıb xumarlanırdı. İşıq bu gün həmişəkindən sevincli idi. Anası onu xeyli tərifləmişdi. O, anasına tut mürəbbəsi bişirməkdə yaxşıca kömək etmişdi. Birlikdə şipşirin bir gün keçirmişdilər. İndi yorulub lap əldən düşmüşdü.

İşıq tut çətirinin altında yenicə mürgü döyməyə başlamışdı ki, yarpaqların qəfil xışıltısına oyandı. Gözlərini açıb yerindən tərpənmədən diqqətlə ətrafa baxdı. Düz gözünün qabağında yaranan burulğanın özüylə birgə iki dənə qurumuş yarpağı süpürüb göyə sovurduğunu gördü. İşığın bundan çox xoşu gəldi. O istədi ki, yenə belə bir səhnə olsun, o da tamaşaya dursun. Ancaq pişiyin gözləri qorxudan böyümüşdü, tükləri biz-biz durmuşdu.

Ana təbiət elə bil İşığın ürəyini oxudu. Bir az ara verən sakitlikdən sonra sürətli külək daha güclü burulğan yaratdı. Pişik caynaqlarını ağacın cadar gövdəsinə keçirib onu qucaqladı. Göy üzündən xortuma bənzər qara bir bulud enib ağzını yer üzünə dirədi və ağaclardakı bütün yarpaqları göyə sovurdu. Külək elə sürətlə, elə hay-küylə əsirdi ki, ağaclar acıqlarından başlarını yelləyirdilər. Tutun budaqlarındakı meyvələr tappıltı ilə yerə tökülürdü. İşıq bilmirdi ki, hansı birini tutub saxlasın, qırmızı ətəyini açıb ora-bura qaçırdı. Tutlar onun başına, üzünə, kürəyinə – hər yerinə tökülürdü. Küləyin sürətinə gücü çatmayan İşığın qanı qaraldı. Həm də artıq ayaqları sözə baxmırdı. Küləyə qoşulub qaçırdılar. İşıq iki əlini ən yaxın budaqdan tutub müvazinətini saxlamaq istədi, ancaq burulğan altdan yuxarı hər şeyi necə sovurdusa, uşağın ayaqları torpaqdan ayrıldı, o sağa-sola yelləndi. Qasırğa bir az da hirsləndi, uşağın yapışdığı budağı möhkəm silkələməyə başladı.

İşıq acıqlandı:

– Qorxmuram səndən, nə qədər istəyirsən coş, burul, mənim tutduğum budaq səndən güclüdür.

Bunu eşidən qasırğa kükrəyib ağacı kökündən tərpətdi. Ancaq ağac təmkinini pozmadı. O, İşığın qulağına əyilib pıçıldadı:

– Ayağını köklərimin üstündən ayırma. Onda qasırğanın bizə gücü çatmaz.

Balaca qızarmış barmaqlarıyla budaqdan yapışan İşıq var gücüylə ayaqlarını yerə basdı, ağacın kökünə qüvvət gəldi. Külək hər şeyi anlamışdı, o, sürətini azaltdı. Qasırğa isə yalnız özüylə yığdığı çör-çöpü apara bildi. Pişik heç nə olmamış kimi caynaqlarını ağacdan qoparıb yenə ağacın dibində xumarlanmağa başladı.

Ağac İşığa dedi: “Sağ ol ki, məni qoyub getmədin, köklərimi bapbalaca ayaqlarnla qorudun”.



## Sevinc YUNUSLU

***

Gecə düşər, günəş axtararam
gözlərin deyib.
Gəzərəm veyil-veyil,
yolum sənə çıxar...
Adını silərəm,
yenidən başlayaram həyata,
sonum sənə çıxar...
Saçlarına toxunsam,
ekvatora qədər getdiyim olar.
Eh, yuxular... Yuxular!..
Gözlərimdə nə qədər
adam ölər, yıxılar,
əllərimdə qalan ətrin
göy üzünə qanadlanar...
Ən möhtəşəm səhərlər
Bütün kəndlər, şəhərlər,
Yer-göy ismin adlanar.
Bütün cismim odlanar,
Bulud-bulud yaş gedər...
Savaş gedər,
Həsrətin diz çökdürər,
dünyanı, başıma yıxar...
Çingiz xan qılıncdan keçirər
Mavəraənnəhri, Buxaranı,
kəllələri qarşıma yığar,
sevdan dindən çıxarar,
quruyaram...
Romada
sən müsəlman məscidisən,
mən dinimi qoruyaram.
minbərdə dua edərəm:
SƏNdən başqa Tanrı yox!
İnan ki, vallah-billah!
La ilahə illallah!



***
Bu qaranlıq gecənin o üzündə işıq var,
Görən, nə vaxt gətirər bu yollar səni mənə?..
Eh, elə darıxıram, bir Allah şahidimdi –
Əvəz etməz versələr, bütün dünyanı mənə;
Yer yerində qalandı,
Göy göyündə qalandı...

Mən hələ gözləyirəm həmin ağrı-acıda,
Söz vermişdin gələcəm qış sovuşsa, yaz olsa.
Bəlkə, qurbanlar kəsim yeddi yol ayrıcında,
Əllərim əllərinə bircə kərə qovuşsa,
Məni məndən alandı,
Səni səndən alandı...

Parlayan gözlərinin xırda səmalarında
Ulduzlar da yerindən aramla sürüşərdi.
Bu vəfasız ömrümün könül burulğanından
Ən uzağı ovcuma iki damla düşəndi:
Biri sənin olandı,
Biri mənim olandı...

***
Belə daha rahatdı, belə daha bəsitdi –
Ağrıların içindən üzüb də çıxmaq olur.
Bir ağ rəngli kağızdı, bir ağ tüstü, bir qələm,
Dərdi dərin badəyə süzüb də çıxmaq olur...

Başım üstə çağlayır bir qaraca bulud, gəl...
Səbir kasam çatlayır, yaxşı, olsun, unut gəl..
Qurban olum, gözünü birdəfəlik qurut gəl
Başqa nəyə deyirsən, dözüb də çıxmaq olur...

Nə tez əsdi aradan həftə yeli, an yeli,
Saçlarının ətridi göz yaşımın qan yeli.
Ölüm təkcə əcəllə olmayır ki, dan yerim,
Bu dünyadan əcəlsiz bezib də çıxmaq olur.

***
Keç bulud yaddaşından,
su səp tikanlı zəmilərə,
yalın ayaqlara batmasın.
Bu payız
ağaclar yarpaqlarını,
ilanlar dərilərini,
güllər ləçəklərini atmasın...
Çərpələnglər uçmasın,
pəncərə kənarları buz tutmasın.
Sevgi ilə açılsın evlərin
taxta qapıları...
Qış gəlməsin bircə il,
uşaqlar yıxılmasın,
pambıq olsun qartopuları.
Sevgi isitsin evləri,
sobalara atmayaq
odunları...
Günahında yanmasın
dünyanın gözəl qadınları.
Hey, fikirlər,
başımdan dağılışın...
Bax, Qadınlar Günü gəlir,
Hədiyyəm sənsən, üşüyən...
Təbrik et doğuluşumu...
Sənə gələn təyyarə var,
açıb bütün ağuşunu.
Sındırıb qanadlarını –
iki bilet hazırlamışam.
Zərfin üstündədi ünvan,
həminki...
Qar içində qızılgülüm,
imza: Sevinc Yunuslu.
Beş fevral, iki min iyirmi iki...



# Natiq Rəsulzadə

# ƏMİNƏ

*hekayə*

Qəbiristandan yorğun-arğın, baş soxmağa yer tapmadıqları zəhlətökən yağışdan islanmış halda qayıtdılar. Cavan mollanın ölü duasını uzada-uzada çox ləng oxumasından hirslənmişdilər, bu azmış kimi, ehsan plovunun hələ restorandan gətirilmədiyi məlum olanda Səməd xəcalətindən bilmədi neyləsin. Odur ki, yekə aş qazanları gəlib çıxanacan və plov nimçələrə çəkilib süfrəyə düzülənəcən acqarına xeyli müddət çay içməli oldular.

Yas mərasimini şəhərin müxtəlif məscidlərində keçirmək son illərdə adət halını alsa da, Səməd hansısa məscidə gedib müdiriyyətlə danışmaq halında deyildi, eşidəcəyi xoşagəlməz sözləri təkcə elə təsəvvürünə gətirəndə ürəyi bulanırdı. Odur ki, ehsanı hamının gen-bol yerləşəcəyi öz geniş evində vermək qərarına gəlmişdi. Fikri dağınıq halda nəzərlərini masa arxasında əyləşmiş adamların üzərində dolandırır, ona ünvanlanan sualları yaxşı başa düşmədiyindən candərdi başını tərpədib nəsə mızıldanaraq cavabdan yayınırdı. Başı ağrıyırdı, özünü pis hiss edirdi, yan-yörəsində baş verənlər ona haçansa yaxşı başlanmış bir tamaşanın heç bir məna kəsb etməyən absurd səhnəsi kimi görünürdü.

Arvadıyla iyirmi ilə yaxın birgə ömür sürmüşdü. Daha doğrusu, iyirmi ilin tamamına vur-tut bir neçə ay qalırdı. Amma dəqiq neçə ay? İlk görüşlərini, evləndikləri günü yada salıb hesablamağa, dəqiqləşdirməyə başladı. Əlbəttə ki, axırda hamısını yadına saldı – on doqquz il, dörd ay. Belə şeyi unutmaq olar?! Sadəcə, heç vaxt dəqiq hesablamağa ehtiyac olmamışdı, ona görə də ağlına yuvarlaq iyirmi rəqəmi gəldi. Dəqiq tarixi xatırlayandan sonra isə elə oturduğu yerdəcə qeyri-iradi olaraq qalan şeyləri də xatırlamağa başladı.

Ehsan süfrəsindən sonra mətbəxdə yır-yığış edən qadınlar, səliqə-sahman yaradan qohum-əqrəba arabir onun yuxulu kimi hərəkətsiz oturub qaldığı otağa nəzər salır, öz aralarında pıçıldaşır, kişini yatağa uzatmağa kömək edib-etməməyi götür-qoy edirdilər. “Axı kişiyə dincəlmək lazımdır, arvadının xəstə olduğu son aylar, son günlər yazıq lap yorulub əldən düşüb” – deyirdilər. Sonra da kişinin hərəkətsiz vücuduna tərəf baxmadan böyründən dinməz ötüb keçir, mümkün qədər astadan danışır, səs salmamağa, çəngəl-qaşığı cingildətməməyə çalışaraq qab-qacağı yuyurdular.

Arvadını tamamilə gənc şəkildə xatırladı; indi qadının yoxluğunda bu vaxtadək baş verənləri xatırlamaq xeyli asanlaşmışdı, çünki Əminənin ağır, yorucu xəstəliyi ərzində onun da, özünün də keçmişini düşünmək ağlına belə gəlməmişdi. Bu da onların keçmişi – günü-gündən sozalan, getdikcə ümidləri sönən, çuxura düşmüş gözlərlə yataqda uzanıb. Qəfildən ağladığını, bir damcı göz yaşının əlinin üstünə düşdüyünü hiss elədi. Bərk təəcübləndi: alışmadığı tərzdə təsirlənməsi qətiyyən təbiətinə uyğun deyildi. O, sadəcə yorulmuş, əsəbləri tarıma çəkilmişdi.

Tutqun baxışlarla artıq tam boşalmış adamsız otağa göz gəzdirib düşündü ki, hər halda, özümü ələ almalıyam. Süfrə yığışdırılmışdı, masa tərtəmiz idi, qab-qacaq yuyulub yerinə qoyulmuşdu, bayaqdan səssiz-səmirsiz otaqlara girib-çıxan qadınlar hər yerdə səliqə-sahman yaratmışdılar. Arvadının üzərinə ağ mələfə salınmış televizorun üstündəki portretinə baxdı: çoxdanın şəkli idi, bir çox qadınlardan fərqli olaraq, Əminə heç gəncliyində də şəkil çəkdirməyi xoşlamazdı. Özündən sonra barmaqla sayılacaq qədər şəkil qalıb, onlardan biri də elə budur. Şəkildə iyirmi yaşı ola, ya olmaya...

Başını qaldırıb şəklə diqqətlə baxdı: yox, güman ki, otuz beş olar... son illər çox da yaxın olmamış, tez-tez dalaşıb küsüşmüşdülər. Qadının deyingənliyi axırda kişini bezdirmiş, o da evdən çıxıb sevdiyi qadının yanına getmişdi. Ərinin hara

getdiyini bilsə də, ərinin həyatındakı sonuncu qadını tanısa da, arvadı bunu üzə vurmamışdı. O heç nəyi birbaşa söyləməyən, bütün məsələləri dolayı yollarla həll etməyə üstünlük verən riyakar ailədə böyümüşdü. Sadəcə, xırdaçılıq edir, tədricən qalmaqalı elə həddə çatdırırdı ki, axırda kişi az qalırdı onu boğsun. Odur ki, evdən çıxıb qəzəbdən titrəyə-titrəyə, arxadan qovurlarmış kimi tələsə-tələsə qaçırdı. Məhəllədə tanış-biliş çox olduğundan addımlarını yavaşıtmalı olurdu, istəmirdi kimsə onu dayandırıb soruşsun ki, hara qaçırsan belə, hara tələsirsən? Bəhanələr uydurmamaq üçün özünü sakitləşdirməyə çalışır, məcbur qalıb qonşu küçələrlə addımlayırdı. Soruşsalar, deyərəm, elə-belə gəzməyə, hava almağa çıxmışam... Başınıza gəlsin... Nolardı xarabanızda oturub məni bu halda görməyəydiniz, belə vəziyyətdə qarşıma çıxmayaydınız?! Aşna məsələsini başında götür-qoy eləyə-eləyə ürəyinə qulaq asır, bədəninin istəyini dinləyib başa düşürdü ki, belə əsəbi, sarsılmış vəziyyətdə o hayda deyil. Amma o hayda olmasa da, yenə fikirləşdiyi yerə yollandı. Səhər də işə oradan getdi, arvadı heç vecinə deyildi...

Övladları olmamışdı. Evliliklərinin ilk səkkiz ilini gözləyəndən, bütün bu illər ərzində ənənəvi tibbin və türkəçarənin məsləhətlərini yoxlayandan sonra artıq bir-birlərinə öyrəşmişdilər, elə bu səbəbdən ayrılmaq istəmədikləri üçün uşaq evinə müraciət etməyə qərar verib altıaylıq uşaq götürmüşdülər. Qadın tez bir zamanda uşağa alışmışdı. Doğma balası kimi sevdiyi uşağın ağıllı, dərrakəli olmasından, hərəkətindən, davranışından, gözlərindən, gülüşündən saatlarla danışa bilərdi. Bütün günü uşaqdan aralı durmur, hətta arada işi də buraxıb gününü onunla keçirirdi. Amma on yaşına çatan oğlan meningitdən öləndə, fikirləşmişdilər ki, görünür, qismətimizdə uşaq yoxdur. Arvadını beləcə nə qədər sakitləşdirsə də, üzüntüdən, depressiyadan çıxarmaq çətin oldu, çox çətin. Həkim yanına aparmaq, daha doğrusu, xəstəni evdən çıxarmaq mümkün olmadığına görə psixiatrları evə gətirmək... bütün bunlar azından bir il çəkdi. Getdikcə hər şey yoluna düşmüşdü, Əminə yavaş-yavaş özünə gəlmiş, hətta xəstəlik ucbatından tərk etdiyi işinə də qayıtmışdı. Elə Səməd özü də oğlana öz balası kimi öyrəşmişdi, uşağın şəkillərini də, sadəcə, arvadına görə hər yerdən yığışdırdı. O, arvadından daha dözümlü idi, başlarına gələn müsibətə də kişi kimi tab gətirdi. Amma günlərin birində qadın şəkilləri yerində görməyib elə dəhşətli nalə çəkdi ki, insan fəryadına bənzəməyən bu səsə kişi yandakı iş otağından qorxu içində qaçıb gəldi. İsterik halda yerə uzanıb döşəməni yumruqlayan qadını sakitləşdirmək üçün xeyli vaxt və enerji sərf etməli oldu. Axırda şəkilləri qaytarıb yerinə düzdü, bu isə özünə də ağır gəldi. Sanki oğlan yenidən – ikinci dəfə ölmüşdü.

Vaxt keçdikcə, qadın tamamilə özünə gələndən sonra onlar daha çox mehribanlaşdılar – sanki dünyada bir-birindən yaxın kimsələrinin olmadığını başa düşmüşdülər. İndi qadın özünü kişinin sevgisinə tam təslim etmişdi, hətta münasibətləri evliliklərinin ilk günlərində belə bu qədər çılğın olmamışdı. Qadın öz qarşısında qoyduğu yalançı, qeyri-səmimi sevgi qadağalarının üstündən xətt çəkmişdi. Kişi buna görə sözün əsl mənasında şad idi – əvvəlki məcrasına düşən sevgi münasibətlərinin onlara necə kömək etdiyini, normal həyatlarına yenidən qayıtdıqlarını dərk edirdi. Bir zamanlar onlara çox baha oturan hallar – qadının ac-susuz bütün gün divanə kimi susub dinməməsi, ərinin heç bir sözünə münasibət bildirməməsi, yeyib-içməməsi, günlərlə hərəkətsiz şəkildə uzanması – artıq geridə qalmışdı. Hətta bir dəfə qadın özündə güc tapıb birtəhər ayağa qalxmış, paltar dolabından ərinin kəmərini götürüb özünü asmaq istəmişdi... yorğunluqdan yuxuya getmiş baxıcı, təcrübəsiz kənd qızı sahibəni güclə xilas etmiş, təlaş içində Səmədə zəng vurmuşdu, o da vacib toplantını yarıda qoyub başılovlu özünü evə çatdırmışdı... adam xatırlamaq belə istəmir...

Hər ikisi neft şirkətində işləyirdi. Daha dəqiqi, şirkətdə yüksək vəzifə tutan Səməd arvadını burda yaxşı işə düzəltmişdi. Pis qazanmırdı. Amma oğlunun ölümündən sonra pulu hara xərcləyəcəyini bilmirdi. Bədbəxliyə bax, pulun ola-ola heç nə almaq istəmirsən, almalı bir şey də yoxdur.

Qadının çılğın sevgisi özüylə cılğın olduğu qədər də sərt, rüsvayçı münasibət gətirdi: Əminə dəlicəsinə, bəli, məhz dəlicəsinə və heç bir səbəb olmadan ərini qısqanmağa başladı – qonşu qadınlara, yoldan təsadüfən ötən qızların ani baxışına, tez-tez bazarlıq üçün getdiyi mağazadakı qadın satıcılara, işə təzə düzəlmiş cavan xadiməyə... Halbuki, kənarda sevgi əlaqələri qurmaq kişinin fikrindən belə keçmirdi, çünki arvadı onu tamamilə qane edirdi. Həm də işi asan iş deyildi – daim gərgin və qayğılı olurdu. Arvadının xırda davalara, yorucu umu-küsülərə gətirib çıxaran əsassız şübhələri axırda onu

bezdirməyə, qıcıqlandırmağa, əsəbiləşdirməyə başladı. Əvvəlcə heç nə anlamırdı, fikirləşirdi ki, yəqin, keçmiş depressiyanın təsiridir. Amma atmacalar, ikibaşlı sözlər axırda öz işini gördü. Yeri gəlmişkən, həmin vaxt qadını bürüyən şiddətli, qarşısıalınmaz ehtiras da sönməyə başlamışdı. Özünün uydurduğu cəfəng səbəbə görə əriylə soyuq davranmağa, ondan mümkün qədər uzaqlaşmağa çalışırdı, bununla da ərini aşna tapmaq fikrinə salması kifayət qədər məntiqliydi. Kişi də həmin vaxtdan qadınları tez-tez dəyişməyə başladı, çünki əslində, meyli öz arvadınaydı.

Birgə həyatlarında bu maneəni də aşmalı oldular. Şəxsən kişi üçün bu çətin və ədalətsiz maneə idi, ona çox əziyyət verirdi, həm də ona görə ağır idi ki, dərdini bölüşəcəyi kimsə yox idi: həyatındakı yeganə belə insan qadının anası ola bilərdi – öz qızını nələrəsə inandıra, hətta hansısa fikirdən daşındıra biləcək qayınanası. Tərslikdən, o da təzəlikcə haqq dünyasına qovuşmuşdu.

Bayaq masa arxasında gözlərini tavana zilləyib oturduğu kimi, indi də üstü hansısa qayğıkeş qadın əliylə örtülmüş şəkildə, arvadıyla ortaq yataqlarında paltarlı uzanmışdı. Sinəsinə çökən ağırlığı hiss etdi. Pəncərə şüşəsini döyəcləyən damcıların səsinə əvvəlcə fikir verməsə də, sonradan başa düşdü ki, yağış yağır.

İndi yasla bağlı və yasdan əvvəlki bütün təlaşlar, əziyyətlər, ehsanın gecikməsinə görə keçirdiyi gərginlik, dəfn yeri və qiymətlə bağlı qəbiristandakı dünənki danışıqlar, arasıkəsilməz qohum və dost zənglərinə verilən yeknəsəq cavablar, camaatı qəbiristana aparacaq avtobusların sifarişi, digər xırda, boş, mənasız məsələlər arvadını fikirləşməkdən onu müvəqqəti olaraq yayındırmışdı və sanki bütün bunlar iki gün əvvəl yox, çoxdan olmuş, qadın öz itkisi ilə ərini təkbaşına qoyub getmişdi. O heç nə barədə düşünə bilmirdi, diqqətini nəyəsə cəmləmək istəsə də, bacarmadı. Birdən yuxuya getdi, son günlərin gərginliyi onu zorla yatızdırdı. Bu yatmaqla düz on bir saat yatdı, oyananda isə ona elə gəldi ki, heç bir tikə də yatmayıb, yan otaqda qonaqlar hələ də oturublar və ona heç bir dəxli olmayan boş söhbətlərlə yas mərasimi davam edir.

Gözlərini yumub aylardı ilk dəfə yuxu görmədiyini, sadəcə, yuxunun qara dəliyinə qərq olduğunu düşünərək qımıldanmadan uzanmışdı. Yataqdan qalxıb aralı qalmış qapıya baxdı və birdən... qapının yanında döşəməyə kölgə düşdüyünü, elə o dəqiqə də qapıda kəfən kimi ağa bürünmüş tanış fiqur gördü… heç bir qorxu hissi keçirmədən yataq otağına girib artıq çarpayısına yaxınlaşan fiqura baxdı.

– Əminə?!

Ağ fiqur yaxınlaşıb əynindəki kəfəni səssizcə çıxararaq çılpaq qaldı.

– Əminə, sənsən? Axı sən ölmüsən.

– Mənim ruhum ölümsüzdür...

Qadın elə astadan danışırdı ki, kişi onu eşitmək üçün bütün diqqətinin topladı.

– Hə, – razılıqla başını tərpətdi. – Bilirəm, oxumuşam, həm də ağıllı insanlardan dəfələrlə eşitmişəm. Bu nədir, xəstələnəndə iman gətirməyinin nəticəsidir? Yoxsa bunun bir dəxli yoxdur?

– Belə danışma, – qadın dedi. – Sən ələ salırsan, amma inanmaq lazımdır.

– Yəqin ki, haqlısan, amma inanmaq həmişə lazımdır, dinə yalnız vəziyyət pisləşəndə üz tutmaq düzgün deyil, mən belə başa düşürəm. Burda nə gəzirsən? Ölümsüz olan təkcə sənin ruhundur? Hamı ölür, hər kəs də yerində sakitcə uzanır, heç kimi narahat etmir.

– Gəldim deyəm ki, orada bizim oğlanı gördüm.

Kişi dinmədi.

– Sənin üçün fərqi yoxdur? – qadın soruşdu. – Bir söz deməyəcəksən?

– Nə deyim? – kişi əllərini təəccüblə yanlara açaraq diqqətlə qadına baxdı; qadın xəstəliyə qədərki vaxtlardakı kimi görünürdü. – Bircə onu deyə bilərəm ki, öləndən sonra əməlli-başlı səfehləmisən.

– Bir də gəlməyəcəm, – qadın dedi.

– Lap yaxşı, – kişi cavab verdi. – Xüsusən də cümə axşamları öz yasına gəlməyi ağlından keçirmə, camaatı qorxudan öldürərsən.

– Sən heç dəyişməmisən, Səməd, elə həmin adamsan... – qadın sözünün arxasını gətirmədən qeyb oldu.

O, günlərdir vücuduna çökən yorğunluğun canından hələ də çıxmadığını hiss edib bir müddət yataqda uzandı. Ayaqları sızıldayır, kürəyi, çiyinləri ağrıyırdı, elə bil ağır yük daşımışdı. Yadına düşdü ki, bazar ertəsidir – işə getməlidir. Düzdür, iş yoldaşları, rəhbərlik – hamı dəfndə iştirak etmişdi və belə bir gündə onun işə gəlib, şirkətin məsələləri ilə məşğul olacağını heç kəs gözləmirdi, amma evdə qalmaq da dözülməz idi.

Əminənin həmin dəqiqələrdə çoxdan görmədiyi kimi, tamamilə canlı şəkildə qarşısında

dayanmasına baxmayaraq, kişi onun peyda olmasına yuxugörmə – mistikanın reallığa müvəqqəti müdaxiləsi kimi yanaşdı... Arvadının illər uzunu əvvəl varlığıyla, sonradan xəstəlikdən doğan depressiya ilə doldurduğu mənzildə özünü tənha hiss etmək qeyri-adi bir duyğu idi. Düzünə qalsa, aylarla sürən xəstəlik boyu kişi ona nifrət etməyə də macal tapmışdı. Qadın dözülməz dərəcədə kaprizli olmuşdu, eqoistliyinə iki sutkadan artıq tab gətirə bilən baxıcı zorla tapılırdı, sonra əri yenisini axtarır, atıb getməsinlər deyə pulu ikiqat, üçqat ödəməli olurdu. Onda heç olmasa, işdə özünü az-çox rahat hiss edir, fikri yayınmırdı...

Yataqdan qalxdı, aşağı salladığı çılpaq ayaqlarıyla başmaqlarını tapıb hamamxanaya getdi, güzgünün aşağı rəfindəki stəkanda gözünə sataşan qadının diş fırçasını görüb zibil vedrəsinə atdı, üzünü qırxdı, zümzümə elədiyi bayağı musiqinin sədaları altında yuyunub-darandı.

Bir az gəzişmək üçün bayıra çıxdı. İşə yollanmaq fikri öz-özünə keçib getdi. Əslində, diqqət mərkəzində olmaq istəmirdi, işə getsəydi, bu, qaçılmaz olacaqdı. Evin yaxınlığındakı kişik, yaşıl bağa getdi. Yağışdan sonra hava təmiz idi, dalandar qadının alababat sildiyi oturacaqlardan birində əyləşib siqaret alışdırdı. Təqaüd yaşlı bir neçə kişi bağın qırağında yığışıb domino oynayır, zarafatlaşır, bir-birlərinə söz atırdılar. Yağış illər öncə vəfat etmiş yazıçının heykəlini yaxşıca yuyub təmizləmiş, heykəlin çuqun başında quş zılının izi-tozu qalmamışdı. Görkəmindən tələbəyə oxşayan iki qız gözlərini telefonlarına zilləyərək nəsə çeynəyə-çeynəyə internet xəbərləri barədə təəssüratlarını bölüşürdülər. Skamyanın arxa hissəsindəki kollardan gələn xoş rayihə ətrafı bürümüşdü. Yanından bir qız keçdi, sonra yaxınlaşıb çəkinə-çəkinə Səmədin əyləşdiyi skamyanın qırağında oturdu. Qızı gözaltı süzən Səməd onun ayağındakı kobud ayaqqabıları görəndə özündən asılı olmayaraq düşündü ki, Əminə heç vaxt beləsini geyməzdi. Təxminən iyirmi beş, iyirmi yeddi yaşlı qızın yorğun sifətində həyatının heç də asan keçmədiyinin izləri sezilirdi, əynindəki plaş beş il qabaqkı dəbdə olsa da, təmiz və səliqəli idi, çiynindən uzun kəmərli kiçik çanta asılmışdı. Qız kişinin baxışlarını üzündə hiss eləyib utana-utana, dili topuq vura-vura dedi:

– Bağışlayın, dayı, mənə metro üçün yolpulu verməzsiniz? Getməliyəm, amma pulum... başqa şey düşünməyin, burda rəfiqəmi gözləyirdim, söz vermişdi ki, pul gətirəcək, mənə borcu var, amma nə səbəbdənsə gəlib çıxmadı...

Səməd əlini cibinə saldı, neçəliyinə baxmadığı kağız pulu ona uzatdı. Qız təəccüblə pula baxırdı.

– Bu nədi, yox, mənə ancaq metro üçün pul lazımdı. Mən nə dilənçiyəm, nə də qaçqın, şəhərliyəm, burada doğulmuşam.

Səməd əlindəki pula nəzər saldı: hə, doğrudan da, bir az çoxdu. Amma qızın sözləri onu təəccübləndirdi.

– Gedək, – oturduğu yerdən qalxıb qıza dedi. – Səni plova qonaq edəcəm. Dünənki yasdan qalıb.

– Nə danışırsınız!.. – qız qeyri-iradi etiraz etməyə başladı, amma sözünü axıra çatdırmamış ayağa qalxıb itaətkarcasına kişinin ardınca getdi. Görünür, Səmədin sanballı görkəmi heç bir narahatlıq yaratmırdı, üstəlik də plov təklifi qızı ürəkləndirdi, həyat bir anlıq gözünə əlvan rənglərdə göründü.

Onlar aralıdakı təqaüdçü-dominoçuların çaşqın baxışlarının müşayiəti ilə bağdan çıxdılar.

Səməd qızın həm iştahla, həm də gözütoxluqla, həm də səliqə ilə – haradasa Əminəni xatırladan yemək tərzinə dalğıncasına baxa-baxa siqaret çəkdi, sonra gözlənilmədən soruşdu:

– Bəs sənə maraqlı deyil ki, bu kimin yasıdır?

Qız heç nə demədən qəribə tərzdə kişiyə baxanda Səməd Əminənin suallara cavab verməyən depressiya dövrünü xatırlayıb cinləndi, hirsindən az qaldı bu başdanxarabı boğsun.

– Niyə dinmirsən? – əsəbi halda soruşdu.

– Duş qəbul edə bilərəm?

– Duş? Nə duş?

Bütün ömrü boyu, xüsusən də qadınlar tərəfindən hər cür gözlənilməz halla qarşılaşsa da, Səməd heyrətindən bilmədi bu sözə nə cavab versin.

Qız gülümsündü, masadan qalxıb hamamxanaya keçdi, içəridən qapını kilidləyən kimi suyun şırıltısı eşidildi. Kişini fikir götürdü... indi onun ayrı-ayrı jestləri, baxışları, dilinin ucuyla üst dodağını yalaması, yemək yeyəndə udqunması, sanki yerində olub-olmadığını yoxlayırmış kimi çeçələ barmağıyla burnunun ucuna toxunması... bütün bunlar eynən Əminəni xatırladırdı. Hamamdan çıxanda da bütün hərəkətləri, yerişi, duruşu ilə rəhmətlik arvadını, Əminə ilə birlikdə keçən ən gözəl, ən ehtiraslı günləri yada salırdı.

– Sənin adın nədir? – kişi eşidəcəyi cavabdan qorxa-qorxa özünü birtəhər toparlayıb soruşdu.

– Hələ də başa düşməmisən? – qız əsəbi halda dilləndi.

Kişi aralanıb dəhşət içərisində qıza baxdı; qız onun gözündə getdikcə daha sürətli, daha çevik şəkildə dəyişməyə və ölən arvadınln canlı surətinə çevrilməyə başladı.

– Axı necə? Bu necə ola bilər? – kişi hövsələdən çıxıb həyəcanla soruşdu.

– Bunu sənə deyə bilmərəm, – qız sakitcə cavab verdi.

– Sənin ruhun... sənin obrazın... necə izah edəcəyimi bilmirəm... səhər bura gəlmişdi, yuxuya bənzətmişdim, amma indi... başqasının cismində... Bu, ruhun başqasının bədənində yerləşməsidir? Bunu necə bacarmısan?

– Yəni səninçün belə vacibdir?

– Əlbəttə, vacibdir!

– Yox, səhvin var, – qız dedi. – Əsas odur ki, biz bir-birimizi sevirik. Mən ki sənə ən vacib olan şeyi xatırlatdım, elə deyil?

Səməd qızın sözlərini düşünərək susdu, bu yad, eyni zamanda çox doğma adamın üzünə baxdı, fikirləri qarışdı, bilmədi nə desin, necə etsin... Qızı burda saxlasınmı, yoxsa qovsunmu? Bəs əgər o, bütün çətin, nahamar, birgə yaşadıqları yorucu illərə baxmayaraq məhz xiffətini çəkdiyi insan idisə? Bəlkə, onun üçün ev tutub hərdən baş çəksin? Qız isə xəfifcə gülümsəyərək kişiyə baxır, sanki onun fikirlərini oxuyurdu.

Beləliklə, yeni Əminə Səmədin evində yaşamağa başladı. Qonşuların mühakiməsindən qorxub əvvəl-əvvəl qıza çölə çıxmağa icazə vermədi, özü isə evə heç kəsi dəvət etmədi. Uzun illər evində işləyən xidmətçini də azad etdi, kimsə zəng etmədən gələndə, yaxud qapını döyəndə qapını açmır, domofondan danışırdı. Amma yaxınları, doğmaları, iş yoldaşları bu hərəkətləri arvadının ölümüylə əlaqələndirib bacardıqca onu narahat etməməyə çalışır, əsasən telefonla, vacib bir söz olanda skaypla danışırdılar.

İşə müntəzəm gedir, əvvəlki kimi vicdanla çalışırdı. İş yoldaşları onda elə bir ciddi dəyişiklik hiss etmədilər; evdə olduğu müddətdə yaranmış insanlardan qaçma vərdişi də ofisdə görünən andan onu tərk etdi. Amma dostları Səməddə baş verən hər hansı dəyişikliyə fikir vermir, onu necə vardısa elə qəbul edirdilər. Bu hamını qane edirdi: məhsuldar işləyir, kollektiv fikirlərə hörmət bəsləyir, vaxtaşırı təşkil olunan kişi məclislərində canla-başla iştirak edir – başqa nə lazımdı? Evdə isə... özü bilər, kefi necə istəyir elə yaşasın, kimin nə vecinə?..

Evdə isə... evdə yeni problemlər meydana gəlmişdi. Belə ki, ev dustağına çevrilməsinə heç bir etiraz göstərməyən, hətta burnunun ucunu belə qapıdan bayıra çıxarmayan Əminə getdikcə özünü daha qəribə aparmağa, insan davranışındakı heç bir qəribəliyi mistikayla, o dünyayla əlaqələndirməyən ateist ərini öz qeyri-adi hərəkətləriylə qorxutmağa başlamışdı. Düzdür, məhəbbət məsələlərində qız sanki onu heyrətləndirən sevgi dolu təcrübəli vaxtlarına qayıtmış, Səməd də öz yeni Əminəsindən kifayət qədər razı qalmışdı. Məftunluğu bir yana, həm də əvvəllər olduğu kimi ondan başqa heç kimi istəmirdi, amma eyni zamanda yaşına uyğun olmayan bu şiddətli sevgi onu yorub əldən salmış, düşgünləşdirmişdi. Doyunca yatmadığı çılğın gecələr Səmədi yaxşı saxlamağa çalışdığı gümrah görünüşünə baxmayaraq gündüzlər işin qızğın vaxtında özündən ixtiyarsız yuxuya sövq edirdi.

Hə, yeri gəlmişkən, yuxu barədə... yuxusuna müəmmalı şeylər girməyə başlamışdı. Amma gecəyarı və ya səhərə yaxın oyanıb onların konkret nə olduğunu dəqiq xatırlaya bilmirdi. Oyananda yalnız yuxunun ümumi atmosferini, əl-ayağını bağlayıb onu qaçmağa qoymayan, sanki yumşalmış əllərinin müqavimətinə mane olan, canını bürüyən dəhşəti xatırlayırdı. Yuxuda uçurdu, lakin hündürə uça bilmirdi, nəsə dəhşətli, tənək budağı kimi uzun çıxıntısı olan bir şey onu təqib edir, uçuş zamanı yerdən yarım metrlik məsafədə yuxarıya qalxmış ayağından tutub saxlayırdı. Tər içində, ağır nəfəs alaraq oyanıb yuxusunu isti-isti xatırlamağa çalışırdı, amma əbəs yerə, heç cür xatırlaya bilmirdi. Yuxudan yarımçıq oyandığı gecələr onu başqa təhlükə – şirin və arzuolunan bir təhlükə gözləyirdi. Gözlərini açdığını hiss edən kimi işrətdən gözü doymayan Əminə fürsəti qaçırmayıb dərhal işə keçirdi, həm də şeytan kimi son dərəcə peşəkarlıqla! Heç bir təcrübəli, işini bütün incəliklərinəcən bilən peşəkar fahişə də bu yeni Əminəyə çata bilməzdi. O isə uyğunlaşmalı olurdu, başqa çarəsi yoxdu.

Bir dəfə gecəyarısı yataq otağının kip örtülmüş qalın pərdələrinin yaratdığı zülmət qaranlıqda (həmişə pərdələri azca aralı qoyar, küçədən otağa işıq süzülərdi, amma həmin gecə içəri qəti işıq düşmür, göz gözü görmürdü) Əminə bir-birinin ardınca onu dünyadan köçmüş doğma adamlarının, sonra onların yaxınlarının, hətta tanışlarının, sonra lap uzaq tanışlarının (bir sözlə: növbə – məşhur

meqapolisin məlum məqbərəsindəki qurumuş mumiyanın qapısındakı canlı növbə kimi sonu görünməyən əzəmətli növbə idi) yad elədikləri növbəti kabusun ortasında nəsə soyuq bir şeyin sinəsində gəzdiyini hiss elədi. Fəryad içində oyanıb qorxudan tir-tir əsən zavallı ürəyinin üstündə Əminənin yağlı flomasterlə nəsə çəkdiyini gördü. Bu ürək əvvəllər bütün normal insanlarda olduğu kimi öz yumruğu boydaydı, indi isə büzüşüb Əminənin yumruğu boyda olmuşdu.

– Sən neynirsən?.. – alnının tərini silərək sakitcə soruşdu.

– Sənin ürəyin burdadı, – elə səslə dedi ki, sanki ona sirr açırdı.

– Bilirəm...

– Bilirsənsə, onda yat.

Səməd qaranlıqda onun üz ifadəsini görməyə çalışır, üzünə heyrətlə baxırdı.

Başqa bir vaxt səhərə yaxın – dan yeri təzəcə ağarırdı – yatdığı yerdə qız onun üzünə kiçik bayırını etmişdi. Yataqdan sıçrasa da, kənara atıla bilməmişdi: qız birbaşa onun üzündə oturmuşdu. Hər şey qurtarandan sonra o, yastıqdan qalxıb mələfənin qırağıyla iyrənə-iyrənə üzünü silir, bərəlmiş gözləriylə qıza zillənib heç olmasa bir açıqlama gözləyirdi.

– Bu çox şəhvani hissdir, – qız dedi, – mən qurtardım. Sənə elə gəlmir?

Bütün bu oyunlar, yataqda saatlarla uzanan nəvazişlər kişinin bütün gücünü əlindən alır, onu heydən salıb sanki qanını sorurdu.

Bir dəfə iş yoldaşı olan cavan bir qız Səmədi ad gününə dəvət etmişdi. Əminə bunu hardansa, necəsə öyrənmişdi.

– Nədi? – soruşdu. – Gedəcəksən?

– Əlbəttə, – dedi. – Özü də necə gedəcəm! Təmiz alt paltarı geyib gedəcəm.

– Sən onu istəyirsən, – Əminə bu sözü sual, yoxsa təsdiq olduğu bilinməyən bir tərzdə dedi.

– Səndən sonra vacib olan kimisə istəmək deyil, bunu bacarıb-bacarmamaqdı. Yeri gəlmişkən, bir-birimizdən bir az dincəlməliyik.

– Mən hələ səndən bezməmişəm, – qız sadəcə cavab verdi.

O susdu. Son günlər özünü elə hiss edirdi, elə bil sıxıb suyunu çıxarıblar. Arada başı fırlanır, uzanmaq istəyirdi; küçədə ayaqları əsir, yıxılmaqdan qorxurdu; çox vaxt sükan arxasına əyləşməkdən vaz keçib sürücü çağırırdı...

Hər gecə qız onu çox məharətlə şirnikdirib yatağa salır, saatlarla birlikdə olmağa təhrik edirdi. Bir dəfə qarnının üstündəki qeyri-müəyyən ağırlıqdan oyanıb yorğanın üstündə yekə bir pişk gördü. Əminənin şıltaqlıqlarından, təhlükəli hiylələrindən bezmiş Səməd pişiyi güclə yerə tullayıb hərəkətlərini diqqətlə izləyən qızdan soruşdu:

– Bu pişik mənim evimdə neyləyir?

– Sən elədiyini, – qız sakitcə cavab verdi, – yaşayır.

– Yox, mən yaşamıram, deyəsən, ömrümün axırıdır. Kardioloqa getmişdim, qəfil təzyiqim düşmüşdü, heç vaxt belə olmamışam.

Qız heç nə demədi, o biri böyrü üstə çevrildi, sanki təzyiq məsələsinin ona heç bir aidiyyəti yox idi.

– Sən bir neçə gün mənə yaxın durma, həkim dincəlməyimi məsləhət görüb.

– Axı səni sevirəm, – qız dedi.

Nəsə başqa cür idi və Səməd bunu hiss edirdi. Qızın hər toxunuşu onda çılğın ehtiras doğururdu, sanki bu yeni Əminənin bədəni ağlagəlməz cazibə qüvvəsinə malik idi və günün istənilən çağında onu özünə çəkir, şəhvətini artırırdı. Baxmayaraq ki, saatlarla uzanan nəvazişlərdən sonra yazığın yataqdan qalxmağa, duş qəbul etməyə heyi qalmırdı. Qız yataqda onunla elə əylənir, ən köntöy sözləri qulağına elə bir ehtirasla pıçıldayırdı ki, Səməd uzun müddət qızdan qopa bilmir, isti qadın bədəninə yapışıb qalırdı. Deyəsən, Əminənin niyyəti bu yolla onun canını almaq idi. O, qızı kənara itələyir, ondan qopmaq istəyirdi, amma mümkün olmurdu, Əminə yorulub usanmaq bilmədən təkrar-təkrar ona sürtüşür, istədiyini almayınca pişik kimi sığal çəkir, tumarlayır, istəyinə çatanda isə elə çığırır, elə inildəyirdi ki, Səməd qana həris vəhşi heyvana, yırtıcıya çevrildiyini bütün orqanlarıyla hiss edir və dəfələrlə girib-çıxdığı yerdən qırmızı qan fəvvarəsinin fışqırması üçün qızı parçalamaq istəyirdi. Ancaq bu, qızı məhv etmirdi, əksinə, hər dəfə bu cür yaxınlıqdan sonra qız sanki daha güclü, daha çılğın, daha inadkar olur və yaralı heyvan kimi böyürürdü.

Səməd işə getməyi yadırğamışdı, telefona yaxın getmirdi, səhərdən axşamacan yataqda uzanıb qalmışdı. Qız duşun altında oxuyur, mətbəxdə fit çalır, kişiyə yunan qozu və bal yedizdirir, körpə uşaq kimi qaşığı ağzına soxub barmağını boğazınacan aparır, qidanın hansı yolla son mənzilə çatdığını, onu daha güclü və şəhvətli etdiyini göstərirdi.

– Sən məni öldürmək istəyirsən? – kişi yatağın ayaq tərəfində oturub soyuq dabanlarını masaj edən qızdan zəif səslə soruşdu.

– Yadındadı, bir dəfə demişdin ki, sevgidən ölmək istəyirsən, – qız gözlərini hiyləgərcəsinə qıydı, – noldu, fikrini dəyişdin?

– Sən bunu başa düşməzsən. Mən həmin sözləri o biri Əminəyə deyirdim.

– Yalnız bir Əminə var, – qız əminliklə cavab verdi. – Mən hər şeyi xatırlayıram.

– Sən yırtıcısan!

– Sənin kimi, – qız cavab qaytardı. – Səni incitmək istəməzdim, amma məni necə ələ salıb incitdiyini, mənimlə qul kimi rəftar etdiyini, mənə hansı ədəbsiz şeyləri öyrətdiyini, aşnalarına, hətta birgünlük fahişələrinə görə məni necə atdığını, ifrat hərəkətlərindən utandığım zaman necə alçaltdığını, bəzən döydüyünü, bəzən də anamın evinə qovduğunu düşünəndə... İndi sevinə bilərsən: bunu bacardın, gördüyün kimi, sənin istədiyin əsl pozğuna çevrilmişəm. Sən məni məzara sürükləyən xəstəliklərimin səbəbi, baiskarı oldun...

Kişi susurdu. Qız ona nəzər salanda yuxuladığını gördü: uşaqtək fısıldayan, əvvəlki kimi xoruldayan kişi çoxdan yatmışdı, gücü qalmamışdı.

Qız yataqdan qalxıb yarımçıq qalmış naharı mətbəxə apardı. Təzədən yataq otağına qayıdanda isə kişi sakitcə dilləndi:

– Mən yatmamışdım, hamısını eşitdim.

Və qız təngə gəldiyi bir işi yerinə yetirirmiş kimi onu öpməyə başladı...

İndi onun yuxularının əsas məzmunu qaçmaq idi: o, qar basmış çöllə gedir, qarşıda, geniş düzənliyin ortasındakı kiçik daxmanın pəncərəsində işıq görünür, damdakı bacadan tutqun havanın fonunda aydın görünən tüstü çıxırdı... Səməd uzun, yorucu yoldan sonra daxmadakı ocağın qırağında dincəlmək üçün daha cəld yeriməyə çalışır, amma nə qədər əlləşsə də arzuladığı yerə bir addım belə yaxınlaşa bilmirdi... addımlarını bir az da yeyinlədir, sonra var gücüylə qaçmağa can atırdı, amma pəncərədəki aldadıcı işartı yenə də uzaq, əlçatmaz olaraq qalırdı.

Səmədin gecəyarısı qeyri-adi vəziyyətdə gördüyü yekə, qara pişik də ailənin üzvünə çevrildi. O da Əminə kimi evdən bayıra çıxmadı, hətta Səməd işə getdiyi günlər onu hərdənbir çölə çıxarmaq istəsə də, pişik sifətini yarıaçıq qapıdan bayıra çıxarıb pilləkənə, qonşu qapılara, qapaqlı zibil yeşiyinə oğrun-oğrun, tələsik baxır, tez də mənzilin içərilərinə çəkilirdi. Pişik də, dustaq həyatı elə ilk gündən ürəyincə olan və evi heç vaxt tərk etməyən yeni Əminə də – hər iki könüllü əsir – bilavasitə mənzil sahibinə bağlı idilər, heç biri də yaxasından əl çəkmir, sırtıqlıqlarına salıb böyründən qopmurdular. Amma bu, kişinin ürəyincə deyildi, çünki yorulmuşdu, dincəlmək istəyirdi, səhər oyananda heç birini görmək istəmirdi.

– Onun adını nə qoyaq? – bir dəfə Səməd Əminədən candərdi soruşdu.

– Ad qoymaq niyə? – Əminə etiraz elədi. – Pişik.

– Hər halda, mən onun adını Əminə qoyardım.

Pişiyin mənzildə qəfil yoxa çıxmaq kimi qəribə vərdişi vardı. Özünü onun ayağına sürtər, ya da sahibi uzun, ağır gecələrdən sonra dincələndə çarpayıya tullanıb onun yanında uzanmağıyla yoxa çıxmağı bir olurdu. Öz adına inanılmaz dərəcədə tez öyrəşmişdi və cağıranın üzünə əsla pişiyinkinə bənzəməyən ağıllı, dərrakəli gözləriylə baxaraq miyoldamaqla cavab verirdi.

– Əminə! – Səməd pişiyi çağırdı, amma o sanki evin içində yoxa çıxmışdı, əvəzində pişik kimi cazibəli tərzdə əyilərək son dərəcə qıvraq bədəninin fantastik imkanlarını nümayiş etdirən arvadı Əminə gəldi.

– Myau, – Əminə əsl pişik səsi çıxardı. – Myau...

Səmədi vahimə basdı. Hər iki Əminə ona eyni nəzərlə baxırdı, hər ikisinin gözlərindəki ifadə ağlasığmaz dərəcədə bir-birinin bənzəri idi.

Bir səhər qəribə hadisə baş verdi: geniş açılmış pərdələrin arxasındakı pəncərədə hələ qaranlıq ikən, çarpayının yanındakı saatın əqrəbləri 5.58 göstərəndə yanında ərinin oyanmasını gözləyən Əminəni görməyəndə Səməd astadan çağırdı, amma ona heç kim cavab vermədi. Bütün otaqlarda bir səssizlik hiss olunurdu. Bu dəfə Səməd bərkdən çağırdı, yenə xeyri olmadı. Onda pişiyi səslədi:

– Əminə! Kis-kis-kis!

Amma həmişə bir çağırışdan qaçıb gələn pişik də görünmədi. Səməd bir az da uzandı, ürəyində onların yoxluğuna sevinsə də, eyni zamanda bunun yalançı siqnal olacağından ehtiyat edirdi. Sonra ayağa qalxıb yuyunmağa getdi, üzünün tükləndiyini görüb fikirləşdi ki, bəlkə saqqal saxlasın? Amma yuyunandan sonra üzünü qırxdı, çimməyə isə gücü qalmamışdı. Mətbəxə keçib doyunca səhər yeməyi yedi. Soyuducunun ağzına qədər əla məhsullarla dolu olması onu

təəccübləndirdi: axı Əminə bir dəfə də olsun ayağını evin kandarından bayıra qoymamışdı, mənzili tərk etməmişdi. Bəlkə, pişik? – zarafatyana fikirləşdi.

Səhər yeməyindən sonra yenidən yataq otağına keçdi, dincəlmək üçün uzanan kimi yuxuya getdi. O dəqiqə də hər iki Əminə yuxusuna girdi – arvadı da, pişik də ona əl elədi, sanki vidalaşıb yavaş-yavaş yoxa çıxdılar, dumanlı yuxunun içində əriyib getdilər.

Səməd bir neçə gün tək yaşadı, hərdənbir küçəyə çıxıb ərzaq üçün mağazaya gedirdi. Beşinci gün işə yollandı, iş yoldaşlarıyla mehribancasına görüşüb o dəqiqə də işə başladı. Xəstəliyə görə rəhbərlik ona güzəştə getdi. Nahar fasiləsində dostlarıyla kafeyə gedib ac qurd kimi doyunca yedi. Dostları onun iştahına təəccüb və qısqanclıqla baxırdılar. Səməd ofisə gəlmədiyi günlərdə yığılıb qalmış yarımçıq işlərini də sürətlə yerinə yetirirdi.

Özündə bəzi qəribəliklər hiss etməyə başlamışdı: həm işdə, həm küçədə, həm də getdiyi digər yerlərdə qadın sifəti, hətta ən gözəl, ən cəlbedici olanlar da onda nəsə qıcıq yaradırdı – iyrənirmiş kimi tez üzünü çevirirdi.

Evə qayıdarkən giriş qapısının yanında duran, başını çarəsizcəsinə bulayaraq sanki nəsə axtaran pişik gözünə dəydi. Pişiyi diqqətlə süzməyə başladı: öz pişiyinə oxşasa da, buna tam əmin deyildi, çağıranda da arxaya çəkilib qaçmağa üz qoydu. Səməd çiyinlərini çəkib giriş qapısından içəri keçdi.

Mənzilə girəndə isə əməlli-başlı səksəndi – az qaldı quyruğunu qaldırıb qalib tərzdə sevincək qabağına qaçan pişiyi ayaqlasın.

– Fikirləşirdim ki, səni bir də görməyəcəyəm, – hündürdən dedi və pişiyə gic-gic sual verdi: – Bura necə gəldin?

Pişik bütün axşam mənzildə onun arxasınca gəzdi: sahibi ayaqyoluya girəndə qapının arxasında gözlədi, çıxanda isə onun gözlərinə insan kimi diqqətlə zilləndi və Səmədə elə gəldi ki, pişik Əminə sevincini bildirmək üçün gülümsəyir.

Səhər oyananda pişiyi yanında gördü, gözlənilməz olduğu üçün qışqırıb onu çarpayıdan döşəməyə tulladı, amma pişik dərhal da geri atıldı. Səməd yataqdan qalxdı, iyrənmiş kimi əllərini sinəsinə, ayaqlarına sürtərək yuxuda olarkən pişiyin ona sığınıb yatdığını təsəvvür elədi və üst-başını çırpdı. Xoşagəlməz natəmizlik hissindən qurtulmaq üçün qaçıb duşun altına girdi.

Leysan yağırdı. Maşını işıqforun qırmızı işığında əyləyib dalğın halda ətrafa baxır, yolun açılmasını gözləyirdi. İkicə addımlıqda, avtobus dayanacağında yağışdan gizlənməyə yer axtaran bir qız dayanmışdı. Səməd heç nə düşünmədən qeyri-iradi şüşəni aşağı salıb ucadan dedi:

– İstəsəniz, sizi apara bilərəm!

Qız ona baxdı, maşına baxdı, qısa götür-qoydan sonra bayaqdan gözlədiyi avtobusun gəlməli olduğu küçəyə baxıb dilləndi:

– Sizə çətin olmaz ki?

– Yox, heç yerə tələsmirəm.

Qız qabaq oturacaqda onunla yanaşı oturan kimi dedi:

– Vay, maşını çirkləndirdim, suya bax...

– Eybi yox, – Səməd qızın ayağının altındakı gölməçəyə baxıb dodaqaltı mızıldandı. – Su yaxşı şeydir, aydınlıqdır...

Və bütün yol boyu susdu. Qadınlarla ünsiyyət qurmağı bacardığına, adətən, onların xoşuna gəldiyinə baxmayaraq, qəribədir ki, bu qızla... bütün yolu özünə xas olmayan tərzdə, utancaqlıqla susdu. “Mənə nolub belə, elə bil dilim tutulub, qız uşaqdı, yaşı iyirmidən çox olmaz, mənimsə sanki əlim-qolum bağlanıb, axı niyə?” Baş açmırdı, amma utancaqlıq hissi onu elə bürümüşdü ki, hətta başını döndərib qızın üzünə belə rahat baxa bilmirdi.

– Bax elə burda saxlayın, zəhmət olmasa, – birdən qızın səsini eşitdi. – Mən çatdım. Çox sağ olun...

Qızın səsini eşidən kimi utancaqlığı yoxa çıxdı, elə bil qaranlıq otaqda qəfildən gur işıq yandırdılar. Maşını saxlayıb ətrafa göz gəzdirdi – giriş qapısında tələbələr yığışan universitetin yanındaydılar.

– Siz burda oxuyursunuz? – soruşdu.

– Bəli, – qız cavab verdi. – Magistraturanı bitirmək üzrəyəm.

– Nə vaxtsa, uzun illər əvvəl... – bu sözü ağzından qaçırdığına görə ani təəssüflənib ara versə də, sözünə davam etdi, – mən də burada oxumuşam. O zaman bura indiki kimi universitet yox, institut adlanırdı.

– Doğrudan? – qız maraqla soruşdu. – İxtisasınız üzrə işləyirsiniz?

– Xeyr, məcburiyyət üzrə, – dedi və qızın gülümsədiyini görəndə üzünə, gözlərinə diqqətlə nəzər yetirdi. Qız açıq-aşkar utanıb qızardı, baxışlarını ondan qaçırmağa çalışdı.

– Bu necə olur?

– Zarafat elədim. Sadəcə, yaxşı maaş verən şirkətdə işləyirəm.

– İndi aydın oldu... Bir daha təşəkkür edirəm, – qız maşının qapısını açıb düşmək istədi.

– İstəyirsiniz, arxanızca gəlim? – birdən kişi soruşdu.

– Yox, nə danışırsınız?! Sağ olun...

Və maşından çıxıb universitetə tələsdi, qapıda gözdən itənədək Səməd onun arxasınca baxdı. Sonra birdən ayılıb fikirləşdi: "Nə sarsaqlayırsan, axı ondan iki dəfə böyüksən..." Amma içindəki digər səs – həmişə narazı olan və etiraz edən səs razılaşmadı: "Nolsun ki? Ehtiyatlı olmaq sənə qalıb?"

Dərslərin nə vaxt qurtara biləcəyini təxmini hesabladı, vaxtı qaçıracağından qorxduğu üçün işdən icazə alıb yarım saat tez gəldi. Öz hərəkətinə özü də təəccüb qalmışdı, sanki içində gözə-görünməz, amma qarşı çıxa bilmədiyi güclü bir şey onu idarə edir, yönləndirir, sağlam düşüncəyə sığmayacaq işi görməyə məcbur edirdi. Ən əsası isə, son zamanlar qadınlara qarşı ürəyində yaranmış nifrət və qıcıq bu qızla rastlaşandan sonra büsbütün yoxa çıxmışdı.

Qız qapıdan, deyəsən, qrup yoldaşı ilə çıxdı. Lənətə gələsən! Burasını qabaqcadan düşünməmişdi, halbuki təxmin etmək elə də çətin deyildi. Məyus halda uzaqlaşmaq istəyirdi ki, oğlanın ayrılıb getdiyini gördü və Səməd bəxtinin gətirdiyini düşünüb ürəkləndi, maşından enib qıza yaxınlaşdı. Qız dərhal onu gördü, qaşlarını çatsa da, atası yaşında olan kişinin yaxınlaşmasını gözləmədən çıxıb getməyi ədəbsizlik hesab elədi.

– Siz gəlmisiniz?! – narazı halda soruşdu və yetkin kişinin cavan oğlan sayağı günahkar baxışlarını görüb dili dolaşdı.

– Bilmirəm, – səmimi etiraf etdi. – Həqiqətən, bilmirəm bu necə oldu. Sizi yenə görmək istədim.

– Yaxşı, gördünüz... Sonra?

– İcazə verin, sizi evə ötürüm, – kişi yalvarıcı səslə necə dedisə, qız özündən ixtiyarsız qımışdı.

– Yox, olmaz!

– Onda mənə beş dəqiqə vaxt ayırın. Yağış kəsib. Bir az gəzək. Yaxşı?

– Yox, pis! Görürsüz, bizə baxırlar.

– Deyərsiniz ki, dayınızam...

– Əla fikirdi, – qız onu sancdı. – Belə kəşflər ağlınıza tez-tez gəlir?

– Nə gözəl danışırsınız, heç deməzsən ki, tələbəsiniz. Savadlı, məzmunlu...

– Mən filoloji təhsil alıram, adam istər-istəməz savadlı danışır, burda təəccüblü heç nə yoxdur.

– Təəccüblənmirəm, sadəcə, sizinlə ünsiyyət çox xoşdur.

Qız susdu, eyni zamanda tələsik addımlayaraq universitetdən uzaqlaşmağa çalışdı. Kişi onunla yanaşı gedərək yandan üz ifadəsinə baxırdı. Qızın üzündəki ifadə heç də ümidverici görünməsə də, cəsarətsizlik artıq kişini tərk etmişdi, hətta içində oyanmış abırsızlıq ədəb çərçivələrindən kənara çıxmayan lətifə danışmağı da diktə edirdi.

Qəfil arxaya çevrilən qız dedi:

– Maşını düzgün yerdə saxlamamısınız, aparacaqlar. Evakuatorlar bura tez-tez baş çəkir.

– Qoy aparsınlar. Başqasını alaram.

– Hmm... pijonsunuz? Bağışlayın, ağzımdan çıxdı.

– Eyb eləməz. Amma pijon deyiləm. Sadəcə, sizdə özüm barədə təəssürat oyatmaq istədim.

Qız heç bir cavab vermədən ona diqqətlə nəzər saldı.

– Hələ çox belə gedəcəyik? – kişi soruşdu. – Evə tələsmirsiniz?

Qızla birlikdə əsasən tələbələrin sıx olduğu avtobusla, həm də öyrəşmədiyi basabasda iyirmi dəqiqə yol getməli oldu. Üstəlik, səfərin sonunda onu sürpriz də gözləyirdi.

– Siz, zəhmət olmasa, mənimlə avtobusdan düşməyin, – yanındakı sərnişinlər eşitməsinlər deyə, qız elə sakit tonla xahiş etdi ki, etiraz etmək kişinin ağlına belə gəlmədi. – Ola bilsin, anam məni eyvanda gözləyir, oradan dayanacaq görünür.

– Yaxşı, – kişi çaşqın halda dedi. – Düşmərəm.

Qız elə füsunkarcasına gülümsündü ki, bu təbəssümdən siması tamamilə dəyişdi – sanki belə uğursuz gedişə görə kişidən bağışlanmasını xahiş edirdi. Kişi bu ani təbəssümdən cəsarətləndi, gülümsəyib qızdan aralandı, növbəti dayanacaqda avtobusdan düşüb taksi ilə maşınının yanına qayıtdı.

Gecə pişiyi ayağıyla yan otağa itələyib yataq otağının qapısını kip bağlasa da, pişik israrla içəri keçmək istəyirdi. Qapı örtülənəndə kişi kəskin fışıltı, inilti eşitdi, pişiyin quyruğunun qapı arasında qaldığını düşünüb qapını yenidən açdı və üzünə baxan heyvanın insana məxsus üz ifadəsindən üşəndi...

Yox, buna pişik sifəti demək olmazdı!

O bir daha ayağıyla pişiyi itələyib özünə söz verdi ki, sabah onu evindən uzağa aparıb azdıracaq. Sonra yorğun-arğın iniltiyə çox da fikir

verməyib yatağa uzandı, adını bilmədiyi naməlum tanışını xatırlayaraq çoxdan bəri duymadığı, yalnız indi hiss etdiyi və ona xoş təsir bağışlayan – təbəssümünü xatırlayanda ürəyini həyəcanla döyündürən – sevgi hissinin təsirindən yuxulamağa başladı. Arıqtəhər üz, daha doğrusu, incə çöhrə, hər an aldadılacağından qorxan uşaqsayağı gərgin üz ifadəsi, iri, qonur, gülümsər gözlər, zərif ağ boyun...

Divarın o üzündə xışıltı eşidildi, sanki kimsə qapını cızırdı. Divandan hiddətlə sıçrayıb qalxdı, qəti qərara gəldi ki, pişiyi elə indicə bayıra atsın. Amma heç kim yox idi, qapının arxasında heç nə görmədi. Qapını əsəbi halda çırpıb kilidlədi, yerinə uzanıb yatmaq istədi, amma əhvalı artıq korlanmışdı, heç nə düşünmədən yuxulamağa güc lazım idi. Yenə yuxusuna bəzi qarışıq şeylər girdi və yuxulu-yuxulu yenə üzərində tanış ağırlığı hiss etdi – pişik onun üstünə atılıb öz dəhşətli, göz önündəcə uzanan caynaqlarıyla sinəsini cırmaqlayırdı.

Səhər oyananda pişiyi yataqda, düz böyründə gördü. Qorxu içində divandan atılıb qapıya cumdu: qapı kilidli idi. Heyvan mənasız pişik baxışlarıyla gözlərini ona zilləmişdi. Heç nə anlamadı, kilidlədiyi qapını açarla açdı.

– Lənətə gələsən, bu nədi?!

Qorxudan əsə-əsə sualı kimdən soruşduğunu bilmədi, pişik isə sanki suala cavab verməyə hazırlaşaraq onu diqqətlə süzüb başını qaldırdı.

Pişiklə bağlı bütün bu hoqqalar axır ki əsəblərinə ciddi təsir etməyə başladı, qərara gəldi ki, elə bu gün, elə bu dəqiqə onu rədd eləsin, işə gedəndə bu məlun heyvanı özüylə götürüb harasa, vaxtı çatarsa hətta şəhərdən kənara aparsın. Evdən çıxanda pişiyi səslədi.

– Piş-piş-piş! Əminə! Piş-piş!

Evin içində nə qədər axtarsa da, çarpayının, divanın, dolabın arxasına baxsa da, pişik heç yerdə yox idi.

Hamamxanada paltaryuyan maşının arxasında gizlənən pişiyi tapana qədər çox əlləşməli oldu, halbuki nəinki bu böyüklükdə pişik, heç onun quyruğu da ora sığışmazdı. Amma pişik məhz qaçıb özünü o dar yerə dürtmüş, deyəsən, ilişib qalmışdı və pərçimləndiyi yerdən çıxa bilmirdi. Heyvanın heç səsi də çıxmırdı, amma Səməd onun quyruğundan yapışanda pişik vəhşicəsinə böyürüb əcaib səslər çıxartmağa başladı. Axırda Səməd arxa pəncəsindən tutub pişiyi ordan birtəhər qopara bildi.

Kifayət qədər ağır olan heyvanın boynunun ardından yapışıb yuxarı qaldırdı, aparıb qabaqcadan hazırladığı, yaxın vaxtlarda borc səbəbindən bağlanmış kitab mağazasının qalın paketinə qoydu. Pişik heç bir müqavimət göstərmədən sakitcə tabe oldu, kişi də onu paketin içində maşına gətirdi və yeni tanışıyla rastlaşmaq ümidiylə dayanacağa getdi. Rastlaşdı da. Hə, yenə bəxti gətirmişdi.

Qızın minəcəyi avtobus yaxınlaşanda Səməd hamını qabaqladı, avtobusun qabağında qəza vəziyyəti yaradıb qəfildən dayanacağa çıxdı, avtobusun sürücüsü başını pəncərədən şıxarıb ona çəmkirdi, səkidə dayanmış qız həyəcanla içini çəkdi, kişi isə dərhal maşından düşüb sağ qapını açdı və tələsik dedi:

– Nə qədər ki bizi saxlamayıblar, əyləşin, aradan çıxaq!

Qız hirsindən nə baş verdiyini dərk eləyə bilmədi, qorxu içində qaçıb maşına əyləşdi, maşın sürətlə yerindən götürüldü.

– Siz dəli olmusunuz? – qızın sualı heç də sual kimi səslənmədi.

– Əla oldu, düzdü?

– Oy! Pişiyə bax! – qız arxa oturacağa tərəf çevrilərək dedi. – Piş-piş! Necə də böyükdür? Sizinkidir?

– Yox, tanışımın pişiyidir... Dubay səfərinə çıxmışdı, xahiş etmişdi qayıdanacan göz olum...

– Necə də qəribə pişikdir...

– Qəribədir? – kişi təəccüblə soruşdu.

– Hə, elə baxır, elə bil nə danışdığımızı başa düşür. Fikir verin, baxışlarını gah sizə, gah mənə çevirir... Adı nədir?

– Əminə, – Səməd cavab verdi. – Bəs sizin adınız necədir?

– Nigar. Bəs sizin?

– Səməd...

Nigar pişiyə tərəf çevrilib onu sığallamaq istədi, amma gözlənilmədən uzun caynaqlı pəncələr qabağa uzanaraq qızın əlini cırmaqladı. Nigar həyəcan içində qışqırdı. Səməd əyləci basıb maşını dayandırdı, dərman qutusunu çıxarıb Nigarın əlinin üstünə pambıqla yod çəkməyə başladı və gözlənilmədən qızın əlini öpdü. Qız utanaraq əlini geri çəkdi.

– Necə də hikkəli pişikdir, – Səmədin öpüşündən sonra yaranmış, havadan asılıb qalan xoşagəlməz səssizliyi doldurmaq üçün Nigar fənd işlətdi.

Elə o dəqiqə də arxa oturacaqda pişik səsinə bənzəməyən fısıltı eşidildi.

– O, yad adamları sevmir, – Səməd sanki üzrxahlıq elədi. – Çatdıq sizin institutunuza. Təəssüf ki, tez çatdıq, söhbət eləməyə imkan olmadı. İcazə verin, dərsdən sonra arxanızca gəlim, mən istəyirəm ki... sizinlə danışmaq istəyirəm...

Qız heç nə demədi, bir az tərəddüd etsə də, bir az ürkək halda başını tərpədib razılaşdı.

– Onda dərsdən sonra sizi tində gözləyəcəm, – Səməd nəzakətlə bildirdi və qızın baxışlarından başa düşdü ki, kişinin onu universitetin qapısında nümayişkaranə şəkildə gözləməyəcəyini qiymətləndirir.

Qız gedəndən sonra Səməd gözlərini qəzəblə ona zilləmiş pişiyə tərəf çevrilib başa düşdüyünə əmin şəkildə dedi:

– Səninlə isə tezliklə məsələni yoluna qoyarıq, alçaq!

Mobil telefonla iş yerinə zəng edib bir az gecikəcəyini xəbər verdi, sonra isə maşını yiyəsiz pişikləri parçalamağa hazır olan (baxmayaraq ki, bu pişik buzov boydaydı) qəzəbli və azğın itlərin at oynatdığı çimərliyə sürdü. Bir az kənarda, qol-budaq atmış kolluqların yanında maşını saxladı, "Di cəhənnəm ol" deyib arxa oturacağa qanrılanda gözünə heç nə dəymədi – şeytan qılıqlı məlun pişik yerli-dibli yoxa çıxmışdı.

Gözlərinə inanmadı, yerə düşüb çaşqın halda qapıları açdı, salonun hər yerini yoxladı – heç bir pişik-filan yox idi. Naəlac qalıb sükan arxasına keçdi...

...Nigar onu gözləməsin deyə, Səməd bu bu dəfə də görüşə vaxtından qabaq gəlmişdi. Qız maşına oturdu və yəqin ki, sözünün kəsilməsindən qorxaraq tələsik danışmağa başladı:

– Arxamca gəlmək lazım deyil, başa düşün, mənə çətindir, kurs yoldaşlarım görsə, onlara nə deyəcəm?.. Bu sözləri sizə demək mənə xoş deyil, ancaq başa düşün...

Qız özünü itirərək susdu. Görünür, belə yaşlı, təcrübəli insana sözlərini bu cür rahat deyə bildiyindən utandığına görə çaş-baş salmışdı.

– Başa düşürəm, – Səməd dedi. – Məhz buna görə sizə bəzi şeylər deməliyəm.

O, maşınla dolu küçəyə baxa-baxa bir müddət susdu. Qız da cınqırını çıxarmadan ona baxırdı.

– Hər şeydən əvvəl mənə əsas məsələni deyin. Sizin elə bir adamınız varmı... demək istəyirəm, xoşunuza gələn oğlan var?

– Əlbəttə, var, – qız o dəqiqə cavab verdi və kişinin ürəyi qopdu; sükandan daha bərk yapışdı, amma bu vaxt qızın səsini eşitdi. – Bred Pittdən çox xoşum gəlir, sonra Nikolas Qonsales var. Bizimkilərdən isə Fəxrəddin Manafov, düzdür, indi bir az yaşlanıb...

– Uf, ürəyim yerinə gəldi. Belə zarafatlar eləməyin.

– Niyə? – qız bic-bic gülərək soruşdu.

– Çünki siz mənim xoşuma gəlirsiz...

Ürəyindəkini dilinə belə rahat gətirməsinə və məsələni bu qədər asan çözdüyünə təəccübləndi. Elə qız da təəccübləndi. Həmişə aldanılmaq qorxusuyla baxan ecazkar gözləriylə mat-məəttəl ona zilləndi. Bir müddət üzücü fasilə yaransa da, kişi söhbətin kifayət qədər sərbəst keçəcəyinə ümid eləyirdi.

– Siz də belə zarafat eləməyin, – qız üzünü yana çevirib dedi.

– Niyə? Yoxsa məni də bir qədər yaşlanmış hesab edirsiniz? – kişi bu üzücü sükutu pozmaq üçün zarafatyana soruşdu. – Cavab verməyə bilərsiniz, özüm də bilirəm ki, sizdən iki dəfə böyüyəm, amma başa düşün, siz çox xoşuma gəlirsiniz, sözün əsl mənasında sizə vurulmuşam. Bəlkə də, bu, pisdir, amma mən bu barədə fikirləşməməyə çalışıram. Neopolitanların dediyi kimi, əgər sevirsənsə, heç nə barədə düşünmə. Amma mən... çox ümid eləyirəm ki, bizim münasibətlərimizin gələcəyi olacaq... Niyə susursunuz? Bir söz deyin...

– Nə deyim? Elə gözlənilməz oldu ki. Neopolitanların nə dediyini bilmirəm, amma biz Neapolda deyilik, hər şey barədə fikirləşməli oluruq... Axı bir-birimizi heç tanımırıq... və birdən-birə sizin bu cür etirafınız çox qəribədir... düzü, mən çaşıb qalmışam, bilmirəm nə deyim, nə danışım...

– Özünüzdən danışın.

– Mənim tərcümeyi-halım çox qısadır, magistraturada oxuyuram, yaxınlarda atam rəhmətə gedib, bir il bundan əvvəl...

Qız bu yerdə bir qədər sussa da, kişi başa düşdü ki, hər şey çox yaxşı gedir. Hiss edirdi ki, yaş fərqinə baxmayaraq, qızda özünə qarşı müəyyən maraq, hətta simpatiya yarada bilib. Sözləri tuturdu, qız onun zarafatlarını başa düşürdü. Bir-birinə "siz" desələr də, ünsiyyət davam etdikcə daha da yaxınlaşırdılar.

Səməd artıq özünü çox yaxşı hiss etməyə başlamışdı, elə Nigar da əvvəlki etirazlara baxmayaraq, indi onunla danışanda neopolitanlar kimi, deyəsən, daha heç nə barədə fikirləşmirdi.

Qızı yola salandan sonra Səməd iş yerinə az qala uça-uça gəldi. Təbiətcə pessimist olduğundan işdə onu xoşagəlməz hadisələr gözlədiyini düşünürdü. Çünki hər şeyin belə gözəl olması ağlabatan deyildi, fikirləşdi ki, kimsə şən əhvalını pozacaq. Elə dəhlizdəcə rəisin katibəsiylə qarşılaşdı və qız, adətən, çox vaxt ofisdə olmayan şefin onu gözlədiyini xəbər verdi. Səməd şefin kabinetinə nigaran ovqatla getdi, amma... hər şey düşündüyünün əksinə oldu: qəribədir, gülərüz köməkçi təmtəraqlı kabinetin qapısını onun üzünə nəzakətlə və sorğu-sualsız açdı. İçəri girəndə isə Səmədin təəccübü bir qədər də artdı: şef öz taxtından qalxıb əlini sıxmaq üçün gülümsəyərək onun qarşısına çıxmışdı. Belə məlum oldu ki, Səmədin vəzifəsini yüksəldiblər, bu isə hər şeyə təsir göstərəcəkdi – maaşına, maaşdan əlavə aylıq aldığı konvertin qalınlığına, əvvəllər onun tabeçiliyində olmayan şirkət əməkdaşlarının sayının artmasına, xidməti maşına...

Evə hələlik öz köhnə maşınıyla qayıtdığı yolda artıq xoş xəbəri eşitmiş dost-tanışın çoxsaylı təbrik zənglərinin arasında gözlənilmədən Nigar da zəng vurdu. Ürəyi ağzından çıxacaqmış kimi bərk-bərk döyünməyə başladı, hətta maşını da kənara çəkib saxlamalı oldu.

– Elə-belə zəng vurdum. Bir problem yoxdu ki? Sizi işdən yayındırmadım?

– Aman Allah! – kişi dərindən nəfəs aldı. – Sən... siz heç təsəvvür edə bilməzsiniz ki, zənginizə necə sevindim!

Bir az ordan-burdan söhbət etdilər, birdən-birə Səməd istədi ki, işdəki yeni uyğurlarını qızla bölüşüb ürəyini boşaltsın, amma özünü saxladı, düşündü ki, bəlkə, hələ tezdir, qız onu düzgün başa düşməz, yaxud təəccüblənə bilər... Bəlkə, onun karyerası qızın çox da vecinə deyil?! Bu, kişiyə ağır gələrdi, sevincini gözündə qoyardı... Evə çatanda düşündü ki, tələsməməkdə, özünü saxlamaqda düzgün edib.

Nigarın gözlənilməz zəngi Səmədi cavan oğlanmış kimi əməlli-başlı həyəcanlandırdı və o, ürəyinin səsinə qulaq verib bir daha əmin oldu ki, qızı sevir, ötən hər saat, hər dəqiqə qıza olan məhəbbəti daha da dərinləşir, qəlbinin titrəyişi getdikcə artırdı. Yaddaşında fotolarda olduğu kimi qızın jestləri, baxışları, başını çevirib baxması, üzündəki ironiyalı təbəssümü, bəzən nəyisə etiraf etmək istəməsi, lakin kişinin gözündə sadəlövh görünməkdən çəkinib qızarması... hər şey, hər şey canlanırdı. O bütün bunları qızın üzündən oxuyurdu, üstəlik, bu elə də çətin iş deyildi – çünki qızın bütün hissləri öz emosiyalarını gizlədə bilməyən, əlindəki kartları öz davranış və hərəkətləriylə başa salan təcrübəsiz qumarbazlar kimi çöhrəsində əks olunurdu.

Özü də hiss edirdi ki, həyəcanlanmağı elə-belə deyil: qızın zəngi onu yoldan çıxarmış, hətta çoxdan gözlədiyi vəzifə yüksəlişini də ikinci plana keçirmişdi. Qərara gəldi ki, çoxdan istifadə etmədiyi sakitləşdirici dərmanı içsin və sakitcə yerinə uzanıb yatsın.

Di gəl ki, səhər zəngli saatın siqnalından on dəqiqə əvvəl oyanıb yorğanın üzərində pişiyin uzandığını görəndə bilmədi neyləsin. Kişinin oyandığını görən pişik günahkar insana baxan kimi, dik-dik onun üzünə baxdı. Səməd çarəsiz halda ah çəkdi, sonra özünü də təəccübləndirəcək sakit tərzdə pişiyi döşəməyə tulladı, başmaqlarını ayağına keçirib yuyunmağa getdi. “Cəhənnəm olsun!” – düşündü. – Onun işinə sonra baxaram!” Yuxudan sevinclə oyanıb dünənki xoş hadisələri, vəzifə karyerasında yüksəlişini xatırlayanda pişik arxa plana keçmişdi, odur ki, zəhləsi gedən bu heyvancığaza vaxt sərf edib ovqatını korlamaq istəmirdi.

İş yoldaşları səhər tezdən bu yüksəlişin şərəfinə Səməd üçün xudmani qonaqlıq təşkil etmişdilər. Səməd özü də bir stəkan koka-kola içdi. Az sonra fransız nümayəndə heyəti şirkətə təşrif buyurdu və Səmədi şefin otağına dəvət edib onu müqavilə bağladıqları fransız mütəxəssislərlə tanış etdilər. Bundan sonra Səməd fransızları baş ofislə, xidmət otaqlarıyla tanış etdi, hətta bilyard və tennis otaqlarına da baş çəkdilər. Fransızların general De Qolla oxşayan ucaby və ədalı başçıları qəfildən Səmədə bilyard oynamağı təklif etdi.

– Əgər udsanız, müqavilədə ləğv edilmiş bəndləri sizin xeyrinizə bərpa etməyə razı olduğunu bildirir, – tərcüməçi “general”ın şərtini Səməd üçün çevirməyə başladı.

Səməd bunun zarafat olduğunu bilirdi, başa düşürdü ki, tərəflər arasındakı müqavilə hazırki vəziyyətə gələnədək bütün bəndlər ciddi müzakirə edilib.

Oyun Səmədin qələbəsi ilə başa çatanda fransızlar çaş-baş qalmışdılar, görünür, “general”a böyük ümid bəsləyirmişlər.

– Eybi yox, – Səməd qonaqları sakitləşdirmək üçün zarafata keçdi, – rəqib meydançasında uduzmaq da olar...

Qonaqlar bu sözə gülüşdükləri vaxt Səmədin

telefonuna zəng gəldi, yanıb-sönən ekranda Nigarın nömrəsi göründü.

– Nişanlımdı, – Səməd fransızlara bildirdi, – üzr istəyirəm, cavab verməsəm, olmaz, onu dəlicəsinə sevirəm.

Bu sözlərin tərcüməsi də qonaqlara yaxşı təsir bağışladı, hamısı əl çalıb Səmədi səs-küylə alqışladılar. Ah, bu şeytan fransızlar!

Bir sözlə, hamı bir-birindən razı qaldı, Səməd nümayəndə heyətini bahalı avtomobillərinə qədər yola salıb hər birinin əlini sıxdı.

– Pis başlamamısınız, əhsən! – şef də öz növbəsində Səmədin əlini məmnuniyyətlə sıxaraq bildirdi.

Həmin gün Nigarın dərsləri bir saat uzanırdı, qız da Səmədə elə bunu xəbər vermək üçün zəng vurmuşdu.

Beləcə, Nigarla müntəzəm görüşməyə başladı. Səməd bunu taleyin hədiyyəsi kimi qəbul etdi. Hər görüşdən sonra qızın ona rəğbəti bir az da artır və tanışlıq münasibətləri getdikcə dərinləşirdi.

Səməd hər səhər yuxudan duranda yatağında pişiyi görürdü: yumaq kimi qarnının üstündə uzanıb sahibinin oyanmasını gözləyən heyvancığaz özünü kifayət qədər dinc apardığından Səmədi daha əvvəlki kimi əsəbiləşdirmirdi. Səməd sanki ona öyrəşmişdi, hər dəfə əlini sərt şəkildə yelləsə də, problemin həllini yubadır, asudə vaxt tapacağı sonraya saxlayırdı...

– Anam sarıdan nigaranam, – günlərin birində Nigar narahatlığını etiraf elədi. – Soruşsa, nə deyəcəm? Axı heç vaxt ona yalan danışmamışam.

– Bəs özündən necə? Özündən nigarançılığın yoxdur ki?

– Başa düşmədim...

– Bəlkə, münasibətlərimizdən özün də narahatsan?

– Yox, nə danışırsan! Narahat olsaydım, heç səninlə görüşməzdim.

– Onda anana da hər şeyi olduğu kimi danışmalısan.

– Mən də elə düşünürəm. Amma qorxuram...

– Sən mütləq ona deməlisən, necə varsa, o cür. Səmimilik xatirinə onu da deyərsən ki, biz hələ bir dəfə də olsun öpüşməmişik. Bu, ananın xoşuna gələcək.

– Onda öp məni, – qızın yanağına qızartı çöksə də, gözlərini yumaraq sakitcə dedi. – Düşünürəm ki, bir dəfə yalan danışmaq olar, düzdü?..

Sonra o, nəhayət ki, işdəki uğurları barədə Nigara danışmaq qərarına gəldi və qızın hədsiz sevincini, hətta əl çaldığını görüb ürəyi sakitləşdi. Başa düşdü ki, Nigar onun həyatına, işlərinə, karyerasına laqeyd deyil, uğurlarına ürəkdən şərik olur. Bu, belə işlərdə səriştəsi olmayan qızın sanki boğularaq məcburiyyətdən onu kənara itələdiyi ikinci və daha uzunmüddətli öpüşə şərait yaratdı. O, qızın təcrübəsizliyinə gülsə də, bu hərəkətdən məmnun idi.

İki gündən sonra Nigargilə qonaq getdi. Bahalı tort sifariş vermişdi, qızın anasıyla söhbətin nəticəsini qabaqcadan bilsə də, yenə yol boyu həyəcan keçirirdi.

“Mənə nolub belə? – tortu arxa oturacadan götürəndə fikirləşdi. – Əllərim əsir, dilim-ağzım quruyub... Həqiqətənmi mən bunu istəyirəm? Mənim yaşımda olanlar rahat, sakit, dinc həyat arzulayır, ehtiyacları getdicə azalır. Yaxşı sevgili, asan yaşayış, maraqlı iş... Bəlkə, nahaq yerə həyatımı çətinləşdirirəm? Bəlkə, istəyimi ürəyimdə boğmalıydım... Nigar məndən iki dəfə cavandır, on ildən sonra qocalıq başlayanda məndə çox şey dəyişəcək, o isə cavan ömrünün çiçəklənən dövrünü yaşayacaq, cavan, normal kişilərin arzusu olacaq... Onda neyləyəcəm, dalınca gəzəcəm ki, şorgöz kişilərlə görüşməsin? O da mümkündür ki, sədaqətli ömür-gün yoldaşı, yaxşı dost olsun... Amma bunu qabaqcadan necə biləsən? Mən nə sayıqlayıram? Hər şey cəhənnəm olsun! Mən onu sevirəm, həqiqətən, sevirəm, indi əmin oldum ki, ilk baxışdan sevgi yalan deyilmiş... Burda pis nə var ki? Pis odur ki, cavan oğlan kimi eşqə düşmüşəm, amma ağıllanmaq, ciddiləşmək, sanballı olmaq vaxtıdır... Mən onsuz da ciddi və sanballıyam, yoxsa işimdə bu qədər yüksələ bilməzdim... Di bəsdi lovğalandın, hər nəsənsə osan, əlliyə gedirsən, bundan sonra dəyişib başqa cür olmağın mümkün deyil...”

Beləcə, gah narahatlıq keçirir, gah da tərəddüdləri kənara ataraq sevgidən başını itirmiş halda özüylə söhbət edirdi.

Belə məlum oldu ki, Nigarın anası Səməddən bir yaş kiçikdi. Qadın ciddi görkəm alıb bildirdi ki, ailədə kişi xeylağının olmaması, ərinin vaxtsız vəfatı hələ onların müdafiəsiz qalması deyil və əgər Səməd...

– Mən ailədə etibarlı kişi olmağa söz verirəm, – Səməd onu sakitləşdirdi. – Mənə güvənə bilərsiniz. Qızınızı sevdiyim üçün sizin razılığınızı alıb onunla evlənmək istəyirəm. Nigar üçün elə dəbdəbəli toy edəcəm ki, gəl görəsən!

Bayaqdan kənarda oturub onları təbəssümlə izləyən Nigarın qaşlarının çatıldığını görəndə içindən gələn öz səsini eşitdi: "Dayan, yenə göylə gedirsən".

– Təvazökarlıqdan kənar oldusa, bağışlayın, – deyib tez qadının əlini öpdü.

– Amma hər bir halda... – qadın əlini geri çəkməyə tələsmədi, görünür, köhnə kişilərə məxsus bu ədəb-ərkan xoşuna gəlmişdi. – Hər bir halda yaş fərqinin belə çox olması... Düzdür, ərim də məndən xeyli böyük idi...

– Neyləmək olar, məcburam ki, evlənən kimi cavanlaşmağa başlayım...

Hər necə olsa, Nigarın anasının xoşuna gəlməyi bacardı və dərhal da nişan barədə razılaşıb günü dəqiqləşdirdilər.

İndi o, hədsiz dərəcədə xoşbəxt idi: hər axşam işdən sonra Nigara öz evində baş çəkə, darıxanda birgə gəzintiyə çıxa bilərdilər. Görüşəndə doyunca danışıb ürəklərini boşaldır, qadın otaqdan çıxan kimi fürsət tapıb öpüşürdülər. Artıq Nigar bütün varlığı ilə ona məxsus idi, di gəl, nə qədər qəribə də görünsə, qıza sahiblənmə fikri hələ ki onunçün arxa planda idi. Özünü bu qədər dözümlü və təmkinli hiss etmək son dərəcə xoş və gözəl duyğu idi; xoşbəxtlikdən ruhu səmalarda uçurdu.

Sabah onu çox gərgin iş günü gözləyirdi. Bu səbəbdən, yaxşı yatmaq üçün yenə sakitləşdirici damcılar qəbul etdi. Amma gərgin günün sonunda Nigarla görüşəcəyini yada salan kimi məmnuniyyətlə gülümsündü.

"Yaşamaq nə gözəldir, – düşündü. – Həyatım, sadəcə, bir nağıldır!"

Sevincindən çarpayının qırağını tıqqıldatdı ki, özünü gözə gətirməsin. Səsə çarpayının altından qəzəbli fısıltı gəldi, amma buna fikir vermədi.

Səhər yuxudan xoşagəlməz, qorxunc hisslərlə oyandı, sanki başında nəsə bir qəza vardı. Ürəyinə daman pis şeylər gözlərini açan kimi özünü doğrultdu. Pişik həmişəki kimi yatdığı yorğanın üstündə, onun sinəsində uzanmışdı, amma bu dəfə sifətini irəli uzadıb qəzəbli baxışlarıyla düz gözlərinə zillənmişdi. Pişiyi özündən aralamaq üçün əllərini yorğanın altından çıxarmaq istəyəndə dəhşət baş verdi: pişik göz qırpımındaca pəncəsini irəli uzatdı, Səmədin fikirlərini oxuyubmuş kimi, onu qabaqlayaraq qeyri-adi dərəcədə uzun, sanki dəmirdən olan caynaqları ilə sahibinin üzünü cırmaqladı; dərin yaradan qan fışqırdı.

– Ay səni, yaramaz!

Səməd hiddətlə yerindən sıçrayıb pişiyi qamarlamaq istədi, amma pişik cəld hərəkətlə kənara atıldı, yataq otağından qaçıb hardasa gizləndi. Səməd söyə-söyə onun dalınca cumub gizləndiyi yeri tapanda pişik tez qaçıb özünü başqa yerə dürtürdü, birtəhər tutanda isə əlindən çıxıb yenə harasa dürtülürdü. Kişi üzünün qanını silə-silə, qəzəbdən əsə-əsə otaqlarda fırlanırdı. Axırda lənətə gəlmiş vəhşini tuta bildi. Amma pişik təslim olmur, ilan kimi qıvrılaraq sahibinin əlindən çıxmağa çalışırdı. Uzun çəkişmədən sonra, nəhayət ki, Səməd onu balkona gətirdi. İki daşın arasında fikirləşəndə ki yarasının qanını kəsib yodlamaq lazım olacaq, üzündəki cırmaqların nə olduğunu işdə dostlara necə başa salacaq, hələ Nigara nə uydurub deyəcək – az qalırdı havalansın. Bu xoşagəlməz fikirdən elə cinləndi ki, daha heç nə düşünmədən lənətə gəlmiş pişiyi eyvandan aşağı tulladı.

Səhər çoxdan açılsa da, nədənsə küçədə heç kim gözə dəymirdi. Yarasından damcılayan qan gecə köynəyinə qırmızı ləkələr salmışdı. Yaralanmış sifətinin qanını silib otağa keçmək istəyəndə aşağıdan adamların dəhşətli qışqırtısı eşidildi. Eyvandan əyilib baxanda küçənin ortasında gölməçələnmiş qanın içində hansısa qadının uzandığını gördü, qadının ətrafında isə haradan peyda olduqları bilinməyən xeyli adam, dövrə vurub cansız cəsədə tamaşa edən böyük bir izdiham vardı.

– Əminə! – Səməd qorxu içində həyəcanla pıçıldadı.

İzdihamın içərisindən bir nəfər başını qaldırıb barmağını Səmədin dayandığı eyvana tuşlayaraq bərkdən qışqırdı:

– Odur! Baxın odur, beşinci mərtəbədə! Öz gözümlə gördüm – qadını balkondan yerə tulladı!

Səməd dəhşət içərisində durduğu yerdəcə donub qalmışdı. Küçədəki adamlar isə hamısı eyni vaxtda başını yuxarı qaldırıb ona baxırdı.















# Dəniz Bəhruzlu

*10 yaş "XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi"nin 5-ci sinif şagirdi.*
*"Palitra" rəsm studiyası*
*Müəllimə: Nərmin Abdullayeva*



@ULDUZ_AYLIQ_EDEBIYYAT_DERQISI

ISNN 0134-522
İNDEKS AZ 1000
2 AZN